# Milli Məclis

ANALİTİK İNFORMASİYA JURNALI

MART-APREL, 2025 | WWW.MECLIS.GOV.AZ




# QƏDİM İPƏK YOLUNA YENİ BAXIŞ



**Milli Məclis**
*Analitik informasiya jurnalı*

**Təsisçi:**
Azərbaycan Respublikasının
Milli Məclisi

**Redaksiya Şurasının sədri:**
Sahibə Qafarova

**Redaksiya Şurasının üzvləri:**
Əli Əhmədov, Ziyafət Əsgərov, Musa Qasımlı, Rafael Hüseynov, Fərid Hacıyev, Əli Hüseynli, Arzu Nağıyev, Zahid Oruc, Sadiq Qurbanov, Azər Əmiraslanov, Tahir Rzayev, Musa Quliyev, Əhliman Əmiraslanov, Hicran Hüseynova, Şahin İsmayılov, Fazil Mustafa, Siyavuş Novruzov, Anar İsgəndərov, Polad Bülbüloğlu, Səməd Seyidov, Eldar İbrahimov, Eldar Quliyev

**Baş redaktor:**
Ülviyyə Abdullayeva

**Redaktorlar:**
Aidə Əhmədova
Qərənfil Mansurova

**Dizayn:**
Vəfadar Əliyev

**Redaksiyanın ünvanı:**
Azərbaycan 1152, Bakı,
Parlament prospekti 1.
Tel: (+99 412) 510 90 01
(+99 412) 510 67 01
(+99 412) 510 88 72

Milli Məclisin rəsmi web səhifəsi:
**www.meclis.gov.az**

"Milli Məclis" jurnalının
web səhifəsi:
**www.jurnal.meclis.gov.az**

**Jurnal 2007-ci ilin may ayından nəşr olunur**

# BU SAYDA

**BURAXILIŞ:** MART-APREL, 2025

*Azərbaycan-Çin münasibətləri yeni mərhələdə* ..... 2
*ADA Universiteti Siyasət Forumu: qlobal düşüncə üçün regional platforma* ..... 8
*Cənub Qaz Dəhlizi: Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində reallaşan qlobal layihə* ..... 12
*Qlobal Bakı Forumu əhəmiyyətli dialoq platformasıdır* ..... 16
*Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı Milli Məclisdə qəbul olundu* ..... 20
*Milli Məclisin sədri MDB PA-nın faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş iclasında çıxış etdi* ..... 24
*Parlamentlərarası İttifaqın Özbəkistanda keçirilən 150-ci Assambleyası mühüm çıxışlarla yadda qaldı* ..... 28
*Azərbaycan-Gürcüstan dostluğu xalqlarımızın iradəsindən qaynaqlanır* ..... 36
*Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Milli Məclisdə oldu* ..... 40
*Rəsmi qəbullar* ..... 42
*Milli Məclisin sədri Roma Papasının dəfn mərasimində iştirak etdi* ..... 47
*Azərbaycan Respublikasının dövlət əsasları onun Konstitusiyası və suverenliyidir* ..... 48
*Antalya Diplomatiya Forumu - qlobal dünya üçün mühüm platforma* ..... 54
*Antalya çağdaş dünyanın diplomatik cazibə mərkəzinə çevrildi* ..... 58
*Azərbaycanda qadın hərəkatı çoxillik tarixə söykənir* ..... 60
*Türk dövlətlərinin təhlükəsizlik və müdafiə üzrə əməkdaşlığında parlament diplomatiyası mühüm rol oynayır* ..... 66
*Ulu Öndərin müstəqil Azərbaycan Konstitusiyasının qəbul edilməsində müstəsna rolu var* .. 70
*Aqrar siyasət komitəsində ictimai dinləmə keçirildi* ..... 72
*Azərbaycanda ailə, qadın və uşaq hüquqları konstitusion hüququn əsas prioritetini təşkil edir* ..... 74
*QHT-lər beynəlxalq aləmdə Qərbi Azərbaycana qayıdışla bağlı səylərini artırmalıdırlar* ..... 76
*Yubileylər* ..... 78
*Hesablama Palatası daim şəffaflıq və ictimai hesabatlılıq prinsipini ön planda tutur* ..... 84
*Milli Məclisdə İnsan hüquqları üzrə müvəkkilin 2024-cü il üzrə illik məruzəsi qəbul edildi* ..... 90
*Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması regional inteqrasiyaya xidmət edəcək* ..... 94
*Azərbaycanda turizmin inkişaf perspektivləri* ..... 98
*Qəlbi Azərbaycan eşqi ilə döyünən istedadlı soydaşımız* ..... 100



# AZƏRBAYCAN-ÇİN münasibətləri yeni mərhələdə



**Pərvanə Vəliyeva**
Milli Məclisin deputatı

Əminliklə demək olar ki, Azərbaycanın nəhəng iqtisadi uğurlara imza atan Çin Xalq Respublikası ilə münasibətləri yüksələn xətlə inkişaf edir. Belə bir dövlətlə bərabərhüquqlu əməkdaşlıq qurmaq, əlaqələri strateji səviyyəyə yüksəltmək ölkə başçısı İlham Əliyevin uğurlu xarici siyasətinin daha bir göstəricisidir. Ölkəmizin Çinlə münasibətləri siyasi, iqtisadi, mədəni, humanitar və nəqliyyat-logistika sahələrini əhatə edir, eyni zamanda, geosiyasi və strateji sahələrdə də əlaqələrimiz güclənib. İki ölkə başçısı arasında şəxsi münasibətlər bu əməkdaşlığı daha da dərinləşdirməkdədir.

2025-ci il aprelin 22-dən 24-dək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə dost ölkədə dövlət səfərində oldu. Səfər zamanı iki ölkə arasında diplomatik münasibətlərin 33 illik inkişafına yüksək qiymət verildi və dövlət başçıları dostluq və qarşılıqlı etimad ruhunda danışıqlar apardılar. Çin Xalq Respublikasının Sədri tərəfindən Azərbaycanın inkişafı və Prezident İlham Əliyevin liderliyi yüksək qiymətləndirildi. Tərəflər Azərbaycanla Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat, vizasız rejimin tətbiqi



haqqında sənəd və əməkdaşlıq sazişləri imzaladılar. Gələcək əməkdaşlıq sahələrinə aşağı karbonlu inkişaf, rəqəmsal iqtisadiyyat, ağıllı infrastruktur və yaşıl texnologiyalar daxildir. Çin lideri tərəfindən Azərbaycanın Qlobal Cənubun maraqlarını müdafiə etməsi alqışlandı.

Bəyanata görə, ölkələrimiz qarşılıqlı olaraq bir-birinin suverenliyinə, təhlükəsizliyinə və ərazi bütövlüyünə dəstəklərini bildirdilər. Azərbaycan "Vahid Çin" prinsipini dəstəklədiyini, Tayvanın Çin ərazisinin ayrılmaz hissəsi olduğunu və "Tayvan müstəqilliyi"nin istənilən formasına qarşı çıxdığını söylədi. Çin isə Azərbaycanın sülh gündəliyinə, ərazi bütövlüyünə, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa, terrorizmə və separatizmə qarşı mübarizə məsələlərinə həmrəyliyini bəyan etdi. Bildirildi ki, dövlət başçıları səviyyəsində diplomatiya və əldə olunmuş razılaşmalar iki ölkə arasındakı strateji istiqamət kimi qəbul ediləcək. Həmçinin partiyalararası, hökumətlərarası və parlamentlərarası dialoqun inkişafı, xarici işlər nazirlikləri arasında müntəzəm məsləhətləşmələrin davam etdirilməsi razılaşdırıldı. Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə dəvət edildi.

Tərəflər "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanın "İpək Yolunun dirçəldilməsi" strategiyası və sosial-iqtisadi inkişaf planları ilə uzlaşdırılmasını dəstəklədilər. Ticarət və investisiya sahəsində əməkdaşlığın dərinləşdirilməsi, yaşıl enerji, rəqəmsal iqtisadiyyat və kənd təsərrüfatı sahələrində qarşılıqlı fəaliyyətin genişləndirilməsi məqsədilə müvafiq mexanizmlərin və işçi qrupların yaradılması qərara alındı.

Azərbaycan həm də Çin Sədri tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir və bu layihənin reallaşmasına Çindən sonra xaricdə və ölkə daxilində daha çox investisiyalar qoyan ikinci ölkədir. Bu layihə Çinin 2013-cü ildə Avrasiya ölkələri arasında infrastrukturun yaradılmasına və qarşılıqlı əlaqələrin qurulmasına yönələn yeni iqtisadi inkişaf strategiyası elan edilib. Strategiya iki əsas inkişaf istiqamətini nəzərdə tutur: "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu".

Burada söhbət malların Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa daşınması üçün ticarət dəhlizinin yaradılmasından gedir. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz), həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün yeni perspektivlər açır.

Azərbaycan Çində keçirilən beynəlxalq sərgilərdə fəal iştirak edir, Çin



şirkətlərinin bizim ölkədə keçirilən sərgi və forumlara qatılmasını, Şanxayda Azərbaycan Ticarət Evinin yaradılmasını alqışlayır.

Ölkələrimiz arasında sənaye əməkdaşlığı çərçivəsində neft-kimya, əczaçılıq, maşınqayırma, toxuculuq və digər sahələrdə kommersiya əsaslı tərəfdaşlığın genişləndirilməsi razılaşdırılıb. 2024-cü ildə əmtəə dövriyyəsinin həcmi əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib.

Bu gün Çin Azərbaycanın ən böyük ticarət tərəfdaşlarından birinə çevrilib, onun xarici ticarət dövriyyəmizdə payı 7,9 faiz olub. İki ölkə arasında iqtisadi-ticari əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya ikitərəfli iqtisadi əlaqələri genişləndirmək, əməkdaşlığın perspektivli istiqamətlərini aşkara çıxarmaq və onları hüquqi müstəvidə bundan sonra möhkəmləndirmək üçün mühüm mexanizmdir. Azərbaycanda Çin kapitalı ilə 375 şirkət qeydə alınıb. Onlardan 298-i hazırda tam gücü ilə işləyir. Həmçinin Azərbaycanın ticarət və şərab evləri artıq ÇXR-in Pekin, Şanxay, Urumçi, Tsindao, Çendu, Nankin və Çjantszyatsze şəhərlərində fəaliyyət göstərir. Çin Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünü dəstəklədiyini bəyan etdi və dünya iqtisadi sistemində dəyişiklikləri əks etdirən islahatlara dair birgə təşəbbüslərin zəruriliyini vurğuladı.

Qeyd etmək istərdim ki, Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Çinin müxtəlif dövlət qurumları arasında sənaye, rəqəmsal iqtisadiyyat və ticarət sahələrində bir sıra mühüm anlaşmalar imzalanıb. Nəqliyyat sahəsində tərəflər arasında əməkdaşlığın dərinləşdirilməsi, xüsusilə də multimodal daşımalar, Çin-Avropa-Çin transxəzər marşrutlarının inkişafı, gömrük prosedurlarının asanlaşdırılması və regional qarşılıqlı əlaqələrin genişləndirilməsi vurğulanıb. Çinlə Azərbaycan arasında imzalanmış yeni sənədlər logistikanın standartlaşdırılmasını, transsərhəd gömrük prosedurlarının təkmilləşdirilməsini, Çin-Avropa quru-dəniz marşrutunun səmərəliliyinin artırılmasını nəzərdə tutur. 2024-cü ildə Çin və Azərbaycan arasında tranzit daşımaların həcmi 378 min ton olub. Bu, 85,6 faiz artım deməkdir. Belə ki, avtomobil yolu ilə 52 min ton, dəmir yolu ilə 159 min ton, hava nəqliyyatı ilə 166 min ton yük daşınıb.

Səfər zamanı vizasız rejimə dair saziş də imzalandı - Azərbaycan və Çin arasında ümumvətəndaş pasportlarına malik şəxslər üçün vizalar qarşılıqlı şəkildə ləğv edildi. Hesab edirəm ki, vətəndaşlarımızın ölkələrə vizasız gediş-gəlişi turist axınının artmasına kömək edəcək, bununla da iqtisadi, humanitar və mədəni əlaqələrin genişlənməsinə mühüm töhfə verəcəkdir.

2024-cü il noyabrın 24-də ilk dəfə Bakıdan Çinə (Sian şəhərinə) ixrac qatarı yola salınmışdır. “South China Airlines” həftədə 2 dəfə Urumçi-Bakı-Urumçi, AZAL həftədə 3 dəfə Bakı-Pekin-Bakı sərnişin reysləri, “Silk Way West Airlines” həftədə 10 dəfə Şanxay və Çjenjouya, həftədə 1 dəfə isə Honkonq və Urumçiyə yük reysləri yerinə yetirir.

Görüşlərdə həmçinin kosmos sahəsində əməkdaşlıq haqqında imzalanan Anlaşma Memorandumu Azərbaycan üçün kosmik layihələrdə birbaşa tərəfdaşlıq imkanları yaradır. Bu əməkdaşlıq Azərbaycanın regional kosmik texnologiyalar mərkəzinə çevrilməsi üçün əhəmiyyətli addım hesab olundu. Elmi-tədqiqat və təhsil sahələrində birgə platformaların yaradılması, tələbə mübadiləsinin genişləndirilməsi, Konfutsi institutlarının inkişafı, Çin və Azərbaycan dillərinin tədrisinin təşviqi razılaşdırıldı. Mədəniyyət, turizm, idman, səhiyyə, gənclər və media sahələrində əlaqə-

lərin gücləndirilməsi də səfərin əsas mövzularından biri oldu.

Qeyd etmək istərdim ki, Azərbaycan və Çinin ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı əldə edən vətəndaşlarımızın sayı ildən-ilə durmadan artır. Cari tədris ilində Çində 123 Azərbaycan vətəndaşı, ölkəmizdə isə 118 çinli tələbə təhsil alır. Bakı Dövlət Universitetində, Azərbaycan Dillər Universitetində və Xəzər Universitetində Çin dili kursları təşkil olunmuşdur. Həmçinin bir sıra təhsil müəssisələrində Konfutsi institutları - Çin mədəniyyəti və təhsili mərkəzləri, Xucou Dövlət Universitetində "Azərbaycan dili və mədəniyyəti" mərkəzi, Anhoy Universitetində isə "Azərbaycanşünaslıq" mərkəzi fəaliyyət göstərir.

Görüşdə tərəflər təhlükəsizlik sahəsində, o cümlədən terrorizm, separatizm və ekstremizmlə mübarizədə əməkdaşlıq etməyə və hüquq mühafizə orqanları arasında təcrübə mübadiləsini genişləndirməyə hazır olduqlarını söylədilər. Çin Azərbaycanın minatəmizləmə fəaliyyətinə göstərdiyi dəstəyi davam etdirəcəyini bildirdi.

Bəyanatın ardınca iki ölkə arasında müxtəlif sahələri əhatə edən - diplomatik münasibətlərdən texnologiyaya, nəqliyyatdan energetikaya, mədəniyyətdən hüquqi yardıma qədər 30-dan artıq sənəd imzalandı. Sənədlər arasında viza rejiminin sadələşdirilməsi, minatəmizləmə, texniki-iqtisadi əməkdaşlıq, elm və texnologiya, ədliyyə, mədəniyyət, əqli mülkiyyət, kosmos tədqiqatları, "Bir kəmər, bir yol" təşəbbüsü, yaşıl enerji, sənaye, nəqliyyat, rəqəmsal iqtisadiyyat və media sahələrində əməkdaşlığa dair saziş və anlaşma memorandumları yer aldı.

Eyni zamanda, Naxçıvan və Urumçi şəhərləri arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulmasına dair niyyət məktubu da imzalandı. Bu sənədlər Azərbaycan-Çin



münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu göstərdi. Ötən illərdə Bakı şəhəri ilə Sıçuan vilayəti, Gəncə şəhəri ilə Tsindao şəhəri, Sumqayıt şəhəri ilə Sian və Mianyan şəhərləri, Çunçin şəhərinin Tsyanşin rayonu, Naxçıvan Muxtar Respublikası ilə Çunçin şəhəri, Bakı şəhərinin Xəzər rayonu ilə Quanqjou şəhərinin Nanşa rayonu arasında əməkdaşlığa dair sənədlər imzalanmışdı.

İqlim dəyişikliyi sahəsində əməkdaşlıq çərçivəsində Çin COP29-un Azərbaycanda keçirilməsini alqışladı və 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumuna dəstəyini ifadə etdi. Bildirildi ki, COP29-da Çinin Baş nazirinin müavininin iştirakı çox əhəmiyyətli olmuşdur. O, Azərbaycan tərəfindən konfransda iqlim fəaliyyəti və dayanıqlı inkişafla bağlı irəli sürülmüş 14 qlobal təşəbbüsdən COP Atəşkəsi, Yaşıl Rəqəmsal Fəaliyyət, Davamlı və Sağlam Şəhərlərə Aparan Sektorarası Yollar (MAP), Bakıdan İqlim Fəaliyyəti üçün Sülh, Yardım və Bərpa Çağırışı məsələlərini dəstəkləmişdir.

Səfər çərçivəsində bərpaolunan enerji sahəsində əməkdaşlıq, eləcə də təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşdırılması istiqamətində birgə fəaliyyətə dair razılıq da əldə olundu. "Bərpaolunan enerjinin inkişafı və elektrik enerji sisteminin planlaşdırılması"na dair Anlaşma Memorandumu Energetika Nazirliyi ilə Çin Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu arasında imzalandı. Bu əməkdaşlıq 2028-ci ildən sonrakı dövr üçün şəbəkəyə inteqrasiya imkanlarını təhlil etməyi və müvafiq texniki-iqtisadi həllərin hazırlanmasını nəzərdə tutur.

Səfər zamanı Çin şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisi layihəsinin inkişafı üzrə Anlaşma Memorandumu da imzalandı. Bu memorandum çərçivəsində layihənin hüquqi, texniki və kommersiya baxımından inkişaf etdirilməsi üçün işçi qruplar və rəhbər komitə formalaşdırılacaq.

Prezident İlham Əliyevin Çin Xalq Respublikasına səfəri çərçivəsində iki ölkə arasında bərpaolunan enerji



sahəsində geniş miqyaslı əməkdaşlığa dair 6 mühüm sənəd imzalandı. Bu sənədlər həm günəş, həm də külək enerjisi üzrə müxtəlif layihələrin reallaşdırılmasını nəzərdə tutur və Azərbaycanın yaşıl enerji keçidinə ciddi töhfə verəcək.

Görüş zamanı Azərbaycanın COP29-a ev sahibliyi və bu çərçivədə iqlim idarəçiliyində oynadığı mühüm rolu Çin tərəfindən yüksək qiymətləndirildi. İqlim üzrə qlobal öhdəliklərin yerinə yetirilməsi, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə dəstək məsələsində ortaq mövqe bildirildi.

İmzalanmış sənədlər arasında 260 meqavat gücündə günəş elektrik stansiyalarının tikintisi, 100 meqavatlıq üzən günəş stansiyası, 30 meqavat gücündə batareya enerji saxlanc sisteminin yaradılması, Xəzər dənizində minimum 2 qiqavat gücündə külək elektrik stansiyasının inşası və digər mühüm texniki-iqtisadi əməkdaşlıq layihələri yer alır. Bu layihələrin həyata keçirilməsi ölkənin enerji sektorunun şaxələndirilməsinə, təbii qaz istehlakının azaldılmasına və karbon emissiyalarının aşağı salınmasına şərait yaradacaq.

Energetika Nazirliyi ilə "Universal Solar Azerbaijan" MMC arasında imzalanmış investisiya müqaviləsinə əsasən, Qobustan rayonunda 100 meqavat gücündə günəş elektrik stansiyası tikiləcək və bu stansiyanın 2026-cı ildə istismara verilməsi planlaşdırılır. İllik 180 milyon kilovat-saat elektrik enerjisi istehsalı gözlənilən bu stansiya sayəsində ildə 39 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək, atmosferə atılan karbon emissiyaları 86 min ton azaldılacaq.

Digər tərəfdən, Energetika Nazirliyi ilə "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında imzalanmış icra müqaviləsi ilə Xəzər dənizində külək enerjisi potensialının qiymətləndirilməsi və burada mərhələli şəkildə azı 2 qiqavat gücündə külək elektrik stansiyasının yaradılması planlaşdırılır. Bu layihə dənizdə külək enerjisinin sənaye səviyyəsində istifadəsi baxımından Azərbaycan üçün strateji əhəmiyyət daşıyır.

Digər layihə isə Böyükşor gölündə həyata keçirilməsi planlaşdırılan 100 meqavatlıq üzən günəş elektrik stansiyası və 30 meqavatlıq batareya enerjisi saxlanc sistemini əhatə edir. Bu layihənin icrası üçün "China Datang Overseas Investment Co. Ltd." əsas investor kimi çıxış edəcək, texniki-iqtisadi əsaslandırmadan başlayaraq istismar və texniki xidmətə qədər bütün mərhələlər həyata keçiriləcək. Eyni zamanda, 160 meqavat gücündə günəş elektrik stansiyası üzrə layihə çərçivəsində də müvafiq tərəfdaşlar arasında razılaşma əldə olunub. Bu layihənin 2028-ci ildə istismara verilməsi gözlənilir və onun illik elektrik enerjisi istehsalı 332 milyon kilovat-saata çatacaq. Bu, öz növbəsində, 73 milyon kubmetr təbii qazın qənaət edilməsinə və atmosferə atılan



karbon tullantılarının 160 min ton azalmasına səbəb olacaq.

Prezident İlham Əliyev aprelin 24-də Pekində "China Energy Engineering Corporation Limited" ("Energy China") şirkətinin sədri ilə görüşdü. Söhbət zamanı bildirildi ki, "Energy China" hazırda Xəzər dənizində 1 qiqavatlıq külək enerjisi layihəsinin podratçısıdır, Füzuli rayonunda isə günəş enerjisi layihələrinə investisiya yatırır. Qeyd olundu ki, şirkət tərəfindən enerji dəhlizləri və uzunmüddətli enerji planlaşdırması ilə bağlı əməkdaşlıq təklifləri irəli sürülüb.



Görüş zamanı enerji tədqiqat mərkəzinin yaradılması və su resurslarının idarə olunması sahəsində birgə iş imkanları da müzakirə edildi. Bu səfər və imzalanan sənədlər Azərbaycanın enerji təhlükəsizliyi, iqlim məqsədləri və beynəlxalq tərəfdaşlıq strategiyası baxımından mühüm bir mərhələdir.

Sevindirici haldır ki, Çinlə parlament səviyyəsində uğurlu əməkdaşlıq qurulmuşdur. Milli Məclisdə Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Çin Xalq Nümayəndələri Ümumçin Yığıncağının Daimi Komitəsinin sədri Li Pen 2000-ci ilin iyun ayında, Çin Xalq Məclisinin sədri Li Janşu isə 2019-cu ilin sentyabrında Azərbaycana səfər etmişdir. Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova 2024-cü il iyulun 12-də Sankt-Peterburqda keçirilən BRİCS ölkələrinin Parlament Forumu çərçivəsində Çin Xalq Nümayəndələri Ümumçin Yığıncağının Daimi Komitəsinin hazırkı sədri Çjao Letsi ilə görüşmüşdür.

Azərbaycan Prezidentinin Çinə dövlət səfərinin gedişi Çin mediasının diqqət mərkəzində oldu. Çinin nüfuzlu media orqanları - Sinxua, "Jenmin Jibao", CGTN, "China Daily" və digərləri Prezident İlham Əliyevin səfərini geniş işıqlandırdı. Türkiyənin "Anadolu" agentliyi və "CNN Türk", eləcə də Rusiya, İran, Koreya, Ukrayna, Rumıniya, Bolqarıstan və Yunanıstanın media qurumları bu səfərin əhəmiyyətini və iki ölkə arasında dərinləşən əməkdaşlığı ön plana çəkdilər. Xüsusilə ticarət müharibələrinin zərərləri və gömrük prosedurlarının sadələşdirilməsinin əhəmiyyəti vurğulandı.

Prezident İlham Əliyevin səfəri ilə bağlı xəbərlər ümumilikdə 40-dan çox beynəlxalq və regional media orqanı tərəfindən işıqlandırıldı. Bu, Azərbaycan-Çin strateji tərəfdaşlığının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının mediada geniş əks olunduğunu göstərir.

Ümumilikdə, bu səfər Azərbaycan-Çin münasibətlərində yeni bir mərhələnin başlanğıcıdır, qlobal iqtisadi sabitliyə, ticarətə və yaşıl inkişaf gündəliyinə mühüm töhfə verəcək. İmzalanan sənədlər və görüşlər Azərbaycanın Çinlə əlaqələrinin yeni - daha strateji və praktik mərhələyə keçdiyini təsdiqləyir. Qlobal Cənubun üzvü olan ölkələrimiz ikitərəfli əlaqələri dərinləşdirməklə yanaşı, çoxtərəfli əməkdaşlıq vasitəsilə daha ədalətli və inklüziv qlobal idarəetmə sistemini birgə təbliğ edirlər.






# ADA Universiteti Siyasət Forumu:
## Qlobal düşüncə üçün regional platforma



**Fariz İsmayılzadə**
Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini

Son illərdə beynəlxalq münasibətlər sistemində müşahidə olunan dəyişikliklər, regional və qlobal aktorlar arasında artan strateji rəqabət yeni və innovativ əməkdaşlıq formatlarına və intellektual dialoqlara ehtiyacı aktuallaşdırır. ADA Universiteti Siyasət Forumu bu dəyişən tendensiyalar fonunda qlobal dialoqu təşviq etmək məqsədilə 2021-ci ildə təsis olunub. Forumun əsas məqsədi geosiyasi, iqtisadi və təhlükəsizlik sahələrində aktual çağırışlara dair akademik müzakirələr aparmaq, regionlararası əməkdaşlıq imkanlarını araşdırmaq və qlobal düşüncədə Azərbaycan yanaşmasını təqdim etməkdir.

Bugünədək ADA Universitetinin təşkilatçılığı ilə 7 dəfə keçirilən forumun hər birində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev şəxsən iştirak etmiş, geniş məzmunlu çıxışı və iştirakçıların suallarını cavablandırması ilə gündəmə strateji istiqamət vermişdir. Forumda indiyədək 60 ölkədən 218 iştirakçı təmsil olunmuşdur. Bu platformada ABŞ-ın The Heritage Foundation, Atlantic Council, The Jamestown Foundation, Hudson Institute və Wilson Center, Böyük Britaniyanın Chatham House, Royal United Services Institute (RUSI), The Foreign Policy Centre, İtaliyanın the European House - Ambrosetti, Almaniyanın German Institute for International and Security Affairs - SWP, Belçikanın European Policy Centre, Macarıstanın Hungarian Institute for International Affairs, Polşanın Centre for Eastern Studies - OSW, Səudiyyə Ərəbistanının King Faisal Center for Research and Islamic Studies kimi nüfuzlu beyin mərkəzlərinin nümayəndələri iştirak etmişlər.



Forumun keçirildiyi məkanlar da xüsusi diqqət çəkir. Əsasən iki gün davam edən forumlar yalnız paytaxt Bakıda deyil, işğaldan azad olunmuş ərazilərdə - Ağdamda (2021 və 2022-ci illər), Şuşada (2022 və 2023-cü illər), Zəngilanda (2023-cü il) və Laçında (2024-cü il) baş tutub. Bu yanaşma beynəlxalq iştirakçılara işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərini yerində görmək imkanı yaratmış, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü ilə bağlı mesajların daha aydın çatdırılması üçün önəmli olmuşdur.

ADA Universiteti Siyasət Forumunun məzmunu onun intellektual dəyərini daha da artırır. 2021-ci ildə keçirilmiş ilk forum "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" mövzusuna həsr edilmişdi. Konfransda regional əməkdaşlıq, nəqliyyat-logistika imkanları, sülh gündəliyinin təşviqi, infrastruktur layihələri, tranzit və enerji yollarının diversifikasiyası müzakirə olundu. 2022-ci ildə keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" və "Orta Dəhliz boyunca: Geopolitika, təhlükəsizlik və iqtisadiyyat" adlı toplantılarda regional sabitlik, dayanıqlı inkişaf və çoxtərəfli əməkdaşlıq, postmünaqişə dövründə yaranan yeni geosiyasi reallıqlar fonunda sülh təşəbbüsləri, regional inteqrasiya imkanları və kommunikasiyaların açılması məsələləri beynəlxalq ekspertlərlə birgə müzakirə edildi. 2023-cü ildə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusundakı forumun Şuşada keçirilən hissəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Böyük Avrasiya məkanında geosiyasi transformasiyalar, enerji təhlükəsizliyi, qlobal güc balansı və Azərbaycanın bu proseslərdə rolu ətrafında geniş fikir mübadiləsi aparıldı. İştirakçılar Şuşada keçirilən bu tədbirdə Qarabağın strateji, mədəni və siyasi əhəmiyyətini bir daha yerində qiymətləndirmək imkanı əldə etdilər.

Həmin il keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" adlı forum isə işğaldan azad edilmiş ərazilərdə reallaşan bərpa prosesi və burada dayanıqlı məskunlaşma məsələlərinə həsr olundu. 2024-cü ildə COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qlobal iqlim gündəminə fokuslanan "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" adlı forum bu silsilə fikir mübadiləsinin əhatə dairəsini daha da genişləndirdi. Burada yaşıl enerji, iqlim dəyişiklikliyi və ekoloji diplomatiya məsələləri müzakirə olundu, Azərbaycanın "yaşıl keçid" istiqamətindəki strateji baxışı beynəlxalq ictimaiyyətə təqdim edildi.

### Xankəndidə yeni dünya nizamı barədə müzakirələr

Son illər ərzində dünyada artan geosiyasi qeyri-müəyyənlik, iqtisadi sistemlərdəki dönüşlər və texnoloji inqilablar beynəlxalq münasibətlər sistemini dəyişməkdədir. Bu prosesin fəal iştirakçılarından biri kimi çıxış edən Azərbaycan isə intellektual platformalarda bu qlobal

dəyişikliklərin müzakirəsini davam etdirir. 7-ci ADA Universiteti Siyasət Forumu isə cari il aprelin 8-də ADA Universiteti və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə Xankəndidə Qarabağ Universitetinin ev sahibliyi ilə “Yeni dünya nizamına doğru” mövzusunda keçirildi. Forum təkcə müzakirə mövzusu ilə deyil, həm də təşkil edildiyi məkan baxımından xüsusi məna daşıyırdı. Forumda 44 ölkəni təmsil edən 80-dən çox tanınmış beynəlxalq ekspert, aparıcı beyin mərkəzlərinin nümayəndələri və elm adamları iştirak edirdilər. Əsas panel müzakirələrində diqqət çəkən məqamlar arasında geosiyasi dəyişikliklərin regional suverenliyə təsiri, yeni dünya nizamında iqtisadi transformasiyalar və rəqəmsal texnologiyaların yaratdığı çağırış və fürsətlər dayanırdı.




Xankəndidə ilk dəfə beynəlxalq intellektual tədbirin təşkil olunması bu torpaqların həm də mənəvi və elmi cəhətdən dirçəlməyə başladığını nümayiş etdirdi. Qarabağ Universiteti kimi yeni təsis olunmuş ali təhsil ocağının bu cür tədbirlərə ev sahibliyi etməsi gələcəkdə bu regionun akademik mərkəzə çevriləbiləcəyinin birbaşa göstəricisidir.

**Yeni dünya nizamında Azərbaycan söz sahibi və etibarlı tərəfdaş kimi**

Aprelin 9-da ADA Universitetində baş tutan “Yeni dünya nizamına doğru” adlı beynəlxalq forumda Prezident İlham Əliyev çıxışı zamanı Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqeyinə və xarici siyasətinə dair mühüm tezisləri gündəmə gətirdi. Dövlət başçısı həm regional, həm də qlobal miqyasda Azərbaycanın rolu ilə bağlı aktual və strateji məqamları vurğuladı.

Ölkə başçısı Ermənistanla sülh müqaviləsinin imzalanmasının vacibliyini və bu prosesin ləngiməsinin regionda yeni risklər yaratdığını bildirdi. O, Minsk qrupu adlı strukturun artıq mövcud olmadığını qətiyyətlə vurğuladı. Prezident İlham Əliyev həmçinin Ermənistan konstitusiyasında yer alan ərazi iddialarının aradan qaldırılmasının sülhün əsas şərtlərindən biri olduğunu bir daha bildirərək vurğuladı ki, Azərbaycanın mövqeyi aydındır, suverenliyə və ərazi bütövlüyünə hörmət edilmədikcə, davamlı sülh mümkün deyil.

Prezident həmçinin çıxışında Fransa və Hindistanın Ermənistana silah tədarükü ilə bağlı narahatlığını ifadə etdi. Bu fəaliyyətlərin regionda sülhə xidmət etmədiyini və sabitliyi pozduğunu bildirdi. Azərbaycanın öz təhlükəsizliyini qorumaq üçün bu kimi addımlara qarşı bütün diplomatik və hərbi imkanlarını səfərbər etməyə hazır olduğunu bir daha söylədi.

Prezident İlham Əliyev həmçinin Azərbaycanın Avropa Şurası ilə münasibətlərinə toxunaraq bəzi Avropa dairələrinin Azərbaycana qarşı qeyri-obyektiv mövqeyini tənqid etdi, ölkənin daxili siyasətinə müdaxilə cəhdlərinin yolverilməz olduğunu vurğuladı.

Forumda Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi ölkə başçısının xarici siyasət sahəsindəki təşəbbüslərinin bariz nümunəsi kimi dəyərləndirildi. Həm COVID-19 pandemiyası dövründə, həm də

ondan sonra Afrika ölkələrinə göstərilən yardımlar, kiçik ada dövlətləri üçün xüsusi dəstək proqramlarının icrası, COP29-a uğurlu ev sahibliyi və prosesin yekunu olaraq maliyyə vəsaitlərinin üçqat artırılması xüsusi olaraq qeyd edildi. Azərbaycanın bu təşəbbüsləri ölkənin qlobal siyasətdə balanslı və humanitar dəyərlərə əsaslanan yanaşmasının nümayişi kimi dilə gətirildi.

Müəyyən dövrlərdə siyasi dinamika dəyişsə də, Azərbaycan tərəfi daim fövqəl dövlət ilə qarşılıqlı maraqlara əsaslanan münasibətlərin davam etdirilməsində maraqlı olub. Hazırkı mərhələdə ikitərəfli əlaqələrdə yeni səhifə açılmaqdadır. Tramp administrasiyası ilə qurulan səmimi və açıq dialoq qarşılıqlı anlaşmaya əsaslanan əməkdaşlığın yenidən canlandığını göstərir. Enerji təhlükəsizliyi, nümayiş etdirdi. Azərbaycan bölgədə qarşılıqlı anlayışı və sabitliyi davamlı şəkildə dəstəkləyir.

Həmçinin görüşdə Prezident İlham Əliyev Azərbaycanla Şimali Kipr Türk Cümhuriyyəti arasında münasibətlərin inkişafına xüsusi önəm verdiyini qeyd etdi. O, Şimali Kipr məsələsində BMT və digər beynəlxalq institutların ikili standartlarını tənqid edərək Azərbaycanın




Azərbaycan və Amerika Birləşmiş Ştatları arasında əməkdaşlıq münasibətləri uzunmüddətli və strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin vurğuladığı kimi, ölkəmiz Corc Buş administrasiyası dövründən başlayaraq ABŞ ilə qarşılıqlı hörmətə və etimada əsaslanan bir tərəfdaşlıq münasibəti qurub. Bu illər ərzində Azərbaycan ABŞ-ın qlobal təşəbbüslərinə fəal şəkildə dəstək göstərib - Əfqanıstan və İraqda sülhməramlı əməliyyatlara ilk qoşulan qeyri-NATO ölkələrindən biri olaraq regional sabitlik və təhlükəsizlik sahəsində vacib rol oynayıb. Bu, Vaşinqton tərəfindən də yüksək dəyərləndirilib və iki ölkə arasında etibarlı dialoqun əsası qoyulub.

regional sabitlik, logistika və nəqliyyat imkanları baxımından Azərbaycan ABŞ üçün Cənubi Qafqazda mühüm strateji tərəfdaş olaraq qalır.

Azərbaycan həm Türkiyə, həm də İsrail ilə yaxın və etibarlı tərəfdaşlığa malikdir. Prezident İlham Əliyev bu iki dost ölkə arasında dialoqun təşviqi üçün Azərbaycanın dəstəyini vurğulayaraq bildirdi ki, sülh və əməkdaşlıq sahəsində hələ də geniş imkanlar mövcuddur.

Prezidentin bu açıqlamasından cəmi iki gün sonra Türkiyə və İsrailin xüsusi xidmət orqanlarının nümayəndələrinin Bakıda görüş keçirməsi Azərbaycanın bu prosesdə əlaqələndirici və təşviqedici rol oynadığını bir daha əyani surətdə

Şimali Kiprə dair prinsipial mövqeyini bir daha bildirdi.

2025-ci il aprelin 7-10-da keçirilən "Yeni dünya nizamına doğru" adlı forum isə qlobal güc münasibətlərinin dəyişməsi, beynəlxalq təşkilatların transformasiyası, geosiyasi və geoiqtisadi trendləri təhlil etməyə həsr olundu. Bu forum Azərbaycanı yalnız regional deyil, qlobal müzakirənin bir parçası kimi təqdim etdi.

ADA Universiteti Siyasət Forumu ölkənin strateji baxışını dünyaya çatdırmaq, beynəlxalq beyin mərkəzləri və ekspertləri ilə açıq dialoq qurmaq üçün yaradılmış unikal bir platformadır və universitetimiz diplomatiyanın intellektual mərkəzi kimi fəaliyyətini davam etdirir.




# Cənub Qaz Dəhlizi: Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində reallaşan qlobal layihə



**Vüqar Bayramov**
Milli Məclisin deputatı

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan enerji siyasəti cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilərək Azərbaycanın regiondakı geosiyasi rolunun daha da möhkəmlənməsinə töhfə verməkdədir. Artıq dünya enerji təhlükəsizliyinə dəstək olan ölkəmiz üçün bu resurslar yalnız dövlət gəlirlərinin artması mənbəyi deyil, eyni zamanda, regionda əməkdaşlığın və sülh təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Həmçinin bu sərvətlərimiz Azərbaycan iqtisadiyyatına və əhalinin sosial rifahına ciddi pozitiv təsir göstərir.

Ümummilli Liderin gərgin əməyinin nəticəsi olaraq reallaşan "Əsrin müqaviləsi" ilk olaraq ölkəmizin beynəlxalq etibarını ciddi şəkildə artırmaqla yanaşı, xarici investisiya axınını da sürətləndirdi. Bu investisiyaların böyük bir qismi enerji sektoruna yönəlsə belə, sözügedən sərmayələr ölkə iqtisadiyyatının digər sferalarına və işsizlik də daxil olmaqla müəyyən sosial problemlərə müsbət mənada təsir etdi.

Cənub Qaz Dəhlizi isə Azərbaycanın enerji strategiyasında xüsusi istiqamətlərdən biridir. Bu mavi qazın nəqli layihəsinin reallaşması Avropa İttifaqı da daxil olmaqla ölkəmizin qlobal miqyasda "orta güc" mərkəzlərindən birinə çevrilməsinə imkan yaratdı. "Əsrin müqaviləsi" Azərbaycanın neft hasilatının genişlənməsinə nə dərəcədə xidmət etmişdisə, Cənub Qaz Dəhlizi də regional təhlükəsizliyin formalaşmasındakı rolunu bir o qədər gücləndirdi.

2025-ci il aprelin 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məş-




vərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində 3-cü iclaslarında müzakirə edilən məsələlər də məhz ölkəmizin geosiyasi mövqeyini və gücünü təsdiq edən platforma hesab olunur. Bu mühüm tədbir Azərbaycanın enerji siyasətində strateji mərhələ olmaqla yanaşı, respublikamızın regional və qlobal enerji bazarlarında artan rolunu bir daha təsdiqləyir.

Cənub Qaz Dəhlizinin icrası tamamilə fərqli bir dönəmə təsadüf edirdi. Bir tərəfdən Rusiya-Ukrayna müharibəsi fonunda Avropada enerji böhranı daha da dərinləşmişdi, digər tərəfdən isə 2022-ci ildən başlayaraq Azərbaycanın Avropa bazarına daha böyük həcmdə enerji resursları ixrac etməsi müşahidə olunurdu. Cənub Qaz Dəhlizi, eləcə də Azərbaycanın dəstəyi ilə reallaşan digər enerji layihələri regionun təhlükəsizliyinə, iqtisadi inkişafına dəstək olmaqla yanaşı, ölkənin iqtisadi inkişafının artırılması baxımından çox əhəmiyyətlidir.

Sevindirici haldır ki, çoxtərəfli əməkdaşlıq formatına üstünlük verən və dayanıqlı inkişafı dəstəkləyən Azərbaycanın təşəbbüsü ilə reallaşan enerji layihələrindən yalnız Gürcüstan və Türkiyə deyil, bir sıra Avropa ölkələri də faydalana bilirlər. Cənub Qaz Dəhlizinin bütövlükdə ötürülmə qabiliyyəti 31,5 milyard kubmetrə qədər artırılacaq ki, bu da praktik olaraq Avropa üçün yeni alternativ mənbə rolunu oynayacaq.

Cənub Qaz Dəhlizinin reallaşması Azərbaycanın dövlət büdcəsi gəlirlərinin artması, ölkəyə valyutanın davamlı şəkildə daxil olması baxımından olduqca önəmli idi. Hazırda respublikamızın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Əsas mövzusu qaz ixracının şaxələndirilməsi olan Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclasında müzakirələrə təkan verən məsələlərdən biri də məhz bu oldu.

Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasında iştirak edən tərəflərin, o cümlədən Avropa İttifaqına üzv ölkələrin rəsmilərinin mövqeləri bir daha Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə xüsusi töhfə verən ölkə olduğunu təsdiqlədi. Bu isə o deməkdir ki, ölkəmiz həm Avropanın enerji təhlükəsizliyinin formalaşmasında xüsusi paya və rola malikdir, həm də Avropa hələ uzun müddət bizimlə bu sahədə əməkdaşlığını davam etdirəcək.

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi nəticəsində formalaşan Cənub Qaz Dəhlizi reallaşandan sonra Azərbaycan qazını almaq istəyən ölkələrin sayında da kəskin artım var. Respublikamız artıq Avropa qitəsinə, sadəcə, xam nefti ilə deyil, həmçinin 2020-ci ilin sonundan etibarən öz mavi qazı ilə çıxır. Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin formalaşmasında yeni alternativ mənbədir. Onun Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni göstərən əsas faktorlardan biri odur ki, mavi qaz ixrac etdiyi 12 ölkədən 10-u Avropa qitəsində yerləşir. Ölkəmizin mavi qaz hasilatının artmasının müşahidə olunması - 2024-cü ildə Azərbaycan tarixində ilk dəfə mavi qaz hasilatının 50 kubmetrdən çox olması da sevindirici haldır. Bu, ixrac imkanlarının da artması




deməkdir. Ötən il 25 milyard kubmetrdən artıq mavi qaz ixrac edilib ki, onun da əhəmiyyətli hissəsi Avropa bazarına ixrac olunub.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarının keçirilməsi Azərbaycanın regionun enerji təhlükəsizliyindəki rolunu xarakterizə edir. Digər tərəfdən bu, enerji əməkdaşlığının genişləndirilməsi baxımından yeni imkanlar deməkdir. Nəticə etibarı ilə burada görülən işlər, həyata keçiriləcək perspektiv layihələr müzakirə olunur.

Nəzərə alaq ki, Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə həm də daxili şəbəkələrdən istifadə etməklə Avropanın daha çox ölkəsinə mavi qaz nəql edir. Xüsusən Yunanıstan, Bolqarıstan Qaz İnterkonnektorunun istifadəyə verilməsi mavi qazın Avropada daha çox ölkəyə çatdırılmasına imkan yaratdı. Bu kontekstdə Bakıda keçirilən tədbirlərdə görülən işlərin qiymətləndirilməsi imkanlarının müzakirə olunması çox vacibdir. Bu da əsas mövzusu qaz ixracının şaxələndirilməsi olan Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasında müzakirələrə təkan verən məsələlərdən idi.

Hazırda Azərbaycanın regionda və Avropa İttifaqında geosiyasi və geoiqtisadi mövqeyinin daha da güclənməsi müşahidə olunur. Ölkəmiz qarşıdakı illərdə Avropa İttifaqına, eləcə də region ölkələrinə daha çox enerji resursları, o cümlədən alternativ mənbələrdən əldə edilən yaşıl enerji ixrac edəbiləcək. İqtisadi və strateji maraqlara cavab verən Cənub Qaz Dəhlizi bu gün Avropa üçün enerji təhlükəsizliyinin formalaşması baxımından yeni alternativ mənbədir və bu, onu göstərir ki, Azərbaycan öz tərəfdaşları ilə enerji sahəsində əməkdaşlığı daha da dərinləşdirəcək.



Cənub Qaz Dəhlizinə "Şahdəniz-2" qaz yatağı, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələri daxildir. 1,2 trilyon təbii qaz ehtiyatına malik "Şahdəniz" Azərbaycanın ən iri qaz-kondensat yatağı və Cənub Qaz Dəhlizinin hasilat mənbəyidir. Cənubi Qafqaz Boru Kəmərinin uzunluğu 691 kilometrdir. Gürcüstan sərhədindəki Türkgözü kəndində TANAP-a birləşən boru xəttinin 443 kilometri Azərbaycandan, 248 kilometri isə Gürcüstandan keçir. Layihə çərçivəsində Cənubi Qafqaz Boru Kəmərinin ötürücülük gücü ildə 7 milyard kubmetrdən 23 milyard kubmetrə qaldırılıb. Uzunluğu 1805 kilometr olan TANAP boru kəmərinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. Kəmərdən Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir. Layihənin ilkin mərhələsində illik ötürücülük qabiliyyəti 16 milyard kubmetr qaz təşkil edəcək.

İclasda müzakirə olunan məsələlərdən biri də yaşıl enerji hasilatı və ixracatı ilə bağlı idi. Azərbaycan yaşıl enerji sahəsində bir sıra aparıcı şirkətlərlə, o cümlədən beynəlxalq qurumlarla əməkdaşlıq edir və digər tərəfdən ölkəmizin yaşıl enerjinin istehlakda payı ilə bağlı bəlli hədəfləri var. Bu hədəflərin reallaşması istiqamətində intensiv addımlar atılır. Eyni zamanda, Azərbaycan həm də Gürcüstan və Qara dəniz vasitəsilə Avropaya öz yaşıl enerjisini ixrac etmək niyyətindədir. Bu da ondan xəbər verir ki, 2026-cı ildən sonra Azərbaycan Avropa İttifaqının yaşıl enerjiyə olan tələbatının ödənilməsində xüsusi paya malik olacaq. Bu istiqamətdə də çox sürətli işlər həyata keçirilməkdədir. Belə tədbirlər bir tərəfdən turizm-xidmət sektorunun dəstləklənməsi və inkişafına xidmət edir, digər tərəfdən isə ölkənin iqtisadi potensialı ilə daha yaxından tanış olmağa imkan yaradır.

Yaşıl iqtisadiyyat Azərbaycan üçün əsas prioritetlərdən hesab olunur. Xüsusilə işğaldan azad edilmiş ərazilərimizdə yaşıl enerjidən geniş istifadə olunmaqdadır. Artıq Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma-bərpa işləri aparılır, investisiya qoyuluşları həyata keçirilir, enerji şəbəkəsi yenilənir. Bu ərazilərin mövcud potensialı imkan verir ki, Azərbaycan orada yaşıl enerjiyə əsaslanan iqtisadiyyat formalaşdıra bilsin.

Digər ərazilərimizdə yaşıl enerji üzrə kifayət qədər potensial mövcuddur. Eləcə də paytaxt Bakıda külək enerjisi kimi alternativ enerji mənbələrindən istifadə üçün geniş imkanlar var. Artıq bununla bağlı bir sıra xarici ölkələri təmsil edən şirkətlərlə sazişlər imzalanıb. Avropa Yenidənqurma və İnkişaf Bankı ölkəmizdə yaşıl iqtisadiyyata investisiya qoyuluşunda maraqlıdır və bu istiqamətdə danışıqlar aparılır. Bütün bunlar yaxın illərdə Azərbaycanın yaşıl iqtisadiyyatın formalaşmasına daha çox investisiya cəlb edə biləcəyinin, alternativ enerjidən daha çox istifadə edilməsinə, ümumi istehlakda bu sektorun payının artırılmasına imkanların genişlənəcəyinin xəbərçisidir. Hədəf alternativ enerjinin ümumi istehlakdakı payının 30 faizə qədər artırılmasıdır ki, bu da bir tərəfdən ənənəvi enerji resurslarından istifadəyə qənaət edilməsinə, digər tərəfdən isə daha təmiz enerji mənbələrindən istifadəyə imkan yaradacaq.






# Qlobal Bakı Forumu əhəmiyyətli dialoq platformasıdır



**Azər Allahverənov**
Milli Məclisin deputatı

XII Qlobal Bakı Forumu dünyanın aparıcı liderlərini, nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrini açıq və məzmunlu diskussiyalar üçün bir araya gətirən mühüm platformadır. Diplomatiya və beynəlxalq əməkdaşlıq sahəsində olduqca əhəmiyyətli bir seqmenti təşkil edən bu forum Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə dahi şairimiz Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da təsis edilmişdir. O vaxtdan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə hər il keçirilən Qlobal Bakı Forumu beynəlxalq aləmdə öz sözünü demiş nüfuzlu dialoq platformalarından birinə çevrilib.

Cari il martın 13-15-də Bakı şəhərində "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda keçirilən XII Qlobal Bakı Forumunda dünyanın 60-dan çox ölkəsindən 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən 50-yə yaxın fəaliyyətdə olan və sabiq prezident, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri, alim və ekspertlər iştirak etdilər. Forumun bu toplantısında qlobal siyasət, təhlükəsizlik, texnologiya, diplomatiya və sülh məsələləri geniş müzakirə




olundu. Yeni dövrün çağırışları fonunda təşkil edilən toplantı çərçivəsində keçirilən çoxsaylı panel iclaslarında dünya siyasətinin əsas prioritetlərini təşkil edən çoxtərəfli diplomatiyanın rolu, çoxqütblü dünya nizamının formalaşması, BMT-nin gələcək paktı, postmünaqişə dövründə bərpa və quruculuq, həmçinin yeni dünya düzənində orta güclərin rolu və digər mühüm məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Forumun ən dinamik və maraqlı sessiyalarından biri “Gənclər danışsın, biz dinləyək” paneli idi. Burada dünyada gedən proseslərə həssaslıqla yanaşan gənc iştirakçılar öz baxışlarını bölüşərək qlobal problemlərin həllinə dair fikirlərini dilə gətirdi, hətta bir qədər iddialı təkliflərlə də çıxış etdilər. Bu cür performans imkanlarının yaradılması həm inklüzivlik baxımından olduqca vacib idi, həm də bu mötəbər tədbirin gənc nəslin nümayəndələrinə xüsusi yanaşmasının mövcudluğundan xəbər verirdi. Forumda “Geosiyasi dəyişmələr: Məsuliyyətli tərəfdaşlıq rəqabətə qarşı”, “Çoxqütblü dünya üçün multilateralizmə yenidən baxılması” və “Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması” mövzularında da panellər təşkil edilmişdi.

> “Bu gün bəzi Avropa bürokratları Ermənistanı sülh göyərçini kimi təqdim etməyə çalışırlar. Lakin onlar həmin hökumətin keçmişdə nəyi etdiyini yaddan çıxarırlar. Onlar yaddan çıxarırlar ki, İkinci Qarabağ müharibəsində ermənilər bizim şəhərlərimizi, kəndlərimizi atəşə tuturdu. Yüzdən artıq vətəndaşımızı həmin raketlərə, ixracı qadağan olunmuş “İsgəndər M” raketinə görə itirdik. Biz hələ də suala cavab almamışıq: Ermənistan ordusu “İsgəndər M” raketini necə əldə edib? Çünki Rusiyada bu raketin ixracı yasaqdır”.
>
> **İlham Əliyev**

Dünya nizamının çox təlatümlü dövrə daxil olduğu, xüsusilə də bəzi regionlar daxili və regionlararası münasibətlərdə gərginliyin, hərbi münaqişə və qarşıdurmaların mövcudluğu şəraitində sülh və təhlükəsizlik mövzusu ümumbəşəri mahiyyət daşıyan məsələlər sırasındadır. Dünyada gedən proseslərin hazırkı təhlili göstərir ki, mütərəqqi qüvvələr sülhün bərqərar olmasına öz töhfəsini verməlidir. Məhz bu səbəbdən forum sülhə töhfə verən ictimai xadimlərin bu səylərini və fəaliyyətini “Nizami Gəncəvi Beynəlxalq mükafatı” ilə qiymətləndirir. Forum çərçivəsində “Sülhə gedən yol”, “Yeni dünya nizamında orta güclər” və “Münaqişə sonrası yenidənqurma və regional sabitliyin bərpası” kimi panellərlə yanaşı, Yaxın Şərq və Ukrayna-Avropa Birliyi məsələlərinə həsr olunmuş sessiyalar da təşkil edilmişdi. Toplantıda yeni texnologiyaların tətbiqi, gender və təhlükəsizlik, iqlim dəyişikliyi və qlobal səhiyyə böhranlarının həlli yolları kimi məsələlər də diqqət mərkəzində olmuşdur. Bütün dünya üçün əhəmiyyətli olan bu mövzulara dair açıq və səmimi müzakirələr qlobal əməkdaşlığın gücləndirilməsi və birgə həll yollarının tapılması istiqamətində mühüm addımlar atılmasına imkan verir.




Ölkəmizin bir çox regionlar üçün mühüm əhəmiyyət kəsb edən mübariz və əzmli addımları Prezident İlham Əliyevin XII Qlobal Bakı Forumunun açılışında etdiyi proqram xarakterli çıxışında xüsusilə vurğulandı. Çıxışı zamanı müzəffər Ali Baş Komandan Azərbaycanın beynəlxalq əməkdaşlıq sahəsindəki güclü mövqeyi, COVID-19 pandemiyası zamanı 80-dən artıq ölkəyə göstərilən humanitar yardımlar, dünya üçün aktual olan iqlim dəyişikliyi ilə bağlı ən mötəbər tədbir olan COP29-a uğurla ev sahibliyi etməsi, son illərdə enerji təhlükəsizliyi sahəsində qazanılan nailiyyətlərə toxundu.

Bildirildi ki, 2024-cü ildə Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını təşkil etmək qərarı Azərbaycanın öz enerji sərvətlərinə çox məsuliyyətli yanaşmasından irəli gəlir. Təxminən 200 ölkənin yekdil qərarı ilə bu konfransın Bakıda keçirilməsi beynəlxalq ictimaiyyətin dövlətimizin "yaşıl keçid" sahəsində uğurlu fəaliyyətinə verdiyi yüksək dəyərin, böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir. Yeri gəlmişkən, on ildən artıq bir müddətdə tərəflərin razılığa gələ bilmədiyi Paris Sazişinin 6-cı maddəsi üzərində konsensus və bərpaolunan enerji layihələri üçün maliyyələşmənin əvvəlki 100 milyarddan 300 milyard dollara qədər artırılması barədə COP29 çərçivəsində razılığın əldə edilməsi məhz Azərbaycanın fəal dəstəyi və möhtəşəm vasitəçiliyi sayəsində olmuşdur ki, bu da ölkəmizin dünyadakı yüksək nüfuzundan xəbər verir.

Son geosiyasi dəyişikliklər nəticəsində Azərbaycandan keçən yüklərin daşınması həcminin kəskin şəkildə yüksəldiyini bildirən Prezident İlham Əliyev bu sahədə artan tələbatı qarşılamaq üçün dəniz limanları və dəmir yolu infrastrukturunun buraxılış qabiliyyətinin artırılmalı olduğunu dedi. Dövlət başçısı çıxışında Ermənistanın işğalı və təcavüzü nəticəsində Azərbaycan xalqının çəkdiyi əziyyətlərə, erməni işğalı zamanı törədilən çoxsaylı vandalizm aktlarına toxundu. 613 nəfərin, 60-dan çox uşağın və 100-dən artıq qadının ermənilər tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımının bəşər tarixinin ən qəddar cinayətlərindən biri olduğunu vurğuladı. Prezident Cənubi Qafqazda

sülhün bərqərar olunması üçün bütün səylərin səfərbər edilməsinin vacibliyini də söylədi.

Azərbaycan bir çox tərəfləri ilə yanaşı, həm də bu forum vasitəsilə özünün multikultural dəyərlərini dünyaya tanıtmaqda mühüm rol oynayır. Qürurverici haldır ki, ölkəmizin bu xüsusiyyəti dünya dövlətlərinin bir çox mühafizəkar rumları, dünya dini liderlərinin sammitləri, BMT Sivilizasiyalar Alyansının forumları və Bakı Humanitar Forumu kimi mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməklə multikulturalizm prinsiplərini qlobal arenada təşviq etməyə çalışır. Ölkəmiz bu müstəvidə də böyük uğurlara imza atıb, dünyanın aparıcı multikulturalizm Azərbaycandan Avropaya - Qara dənizin dibi ilə çəkilən yeni enerji kabelini də əlavə etsək, əminliklə demək olar ki, bu, bir çox ölkələrlə sıx tərəfdaşlıq münasibətlərimizin digər təzahürüdür.

XII Qlobal Bakı Forumu müasir dünyanın qarşılaşdığı mürəkkəb problemlərə qarşı beynəlxalq əməkdaşlıq və dialoqa, real nə-




qüvvələri, dünya liderləri tərəfindən xüsusilə yüksək dəyərləndirilir. Ümumbəşəri sistemin tərkib hissəsi hesab olunan Azərbaycan xalqının yeni multikultural dəyərlər modelinin formalaşmasına səbəb olmuşdur. Çünki ölkəmiz tarixən fərqli etnik və dini qrupların sülh və əmin-amanlıq şəraitində yaşadığı bir məkan olub. Xalqımızın bu ənənəyə necə sahib və sadiq olduğunu ölkənin müxtəlif bölgələrində görmək mümkündür. Bu yanaşma dünən də mövcud olub, bu gün də var, gələcəkdə də olacaq. Azərbaycan mədəniyyətlərarası dialoq fo-mərkəzlərindən birinə çevrilib.

Forumda çıxış edən dövlətimizin başçısı İlham Əliyev enerji layihələrinə xüsusilə toxunaraq bildirdi ki, bu gün Azərbaycan onlarla xarici ölkənin enerji təhlükəsizliyinə töhfə verir. 12 ölkə təbii qazı bizdən alır ki, bunlardan 10-u Avropa ölkəsidir. Avropa Komissiyası Azərbaycanı özünün etibarlı tərəfdaşı və Pan-Avropanın enerji təchizatçısı kimi tanıyır. Buradan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyinin möhkəmləndirilməsində böyük dəyişiklik yaradır. Buna yaşıl enerji mənbələrimizi, ticələrə imkan yaradan bir platformadır. Hesab edirəm ki, bu tədbirdə müzakirə olunan mövzular və əldə edilən razılaşmalar bir daha qlobal problemlərin həlli istiqamətində birgə fəaliyyətin vacibliyini göstərdi və praqmatik düşüncə üzərində ümumbəşəri tərəqqiyə xidmət edən milli strategiyaları nümayiş etdirdi. Azərbaycanın belə mötəbər tədbirlərə ev sahibliyi etməsi və burada dünyanı narahat edən problemlərin həlli yollarının müzakirə olunması isə beynəlxalq aləmdəki yüksək nüfuzunun göstəricisi kimi dəyərləndirilməlidir.



# Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı Milli Məclisdə qəbul olundu

Martın 14-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirildi. İclası açan Sahibə Qafarova əvvəlcə martın 10-11-də Milli Məclis sədrinin başçılığı ilə parlament nümayəndə heyətinin Gürcüstana rəsmi səfəri barədə qısa məlumat verdi. Sonra sədr bildirdi ki, qanunvericiliyə uyğun olaraq Milli Məclisin yaz sessiyasının beşinci iclasında Nazirlər Kabineti ötən ildəki fəaliyyəti barədə hesabat verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasından danışan spiker əldə olunan uğurlar barədə geniş məlumat verdi. O, diqqətə çatdırdı ki, 2024-cü ildə ümumi daxili məhsulun artımı həm neft, həm də qeyri-neft-qaz sahələri hesabına əldə edilib. İqtisadiyyatın şaxələndirilməsi, xüsusilə də nəqliyyat-tranzit potensialının reallaşdırılması, kənd təsərrüfatının, turizmin, rəqəmsal və yaşıl iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Hökumətin bu istiqamətdə gördüyü işlər iqtisadiyyatın dayanıqlı olmasına xidmət edir.

Milli Məclisin sədri söylədi ki, ötən il ölkədə ümumi daxili məhsul 126 milyard manat təşkil edib. Valyuta ehtiyatlarımız il ərzində 5 milyard dollardan çox artaraq 72 milyarda çatıb. Böyük Qayıdış, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası üçün 2024-cü ildə büdcədən 5,4 milyard manata qədər vəsait ayrılıb, il ərzində 5500-ə yaxın insanın doğma yurdlarına köçürülməsi təmin edilib.

Spiker Sahibə Qafarova bildirdi ki, dövlət büdcəsinin gəlirləri proqnozdan 774 milyon manat və ya 5,5 faiz çox icra olunub. O, dövlət büdcəsi ilə əlaqədar ölkə Prezidenti İlham Əliyevin fikirlərini diqqətə çatdırdı: “Azərbaycan tarixində bu qədər böyük büdcə olmayıb. Biz yalnız daxili resurslar hesabına, şəffaflıq, idarəetmə və düzgün iqtisadi siyasət sayəsində bu nəticələrə çatmışıq. Mən dəfələrlə bildirmişdim və artıq hesab

edirəm ki, bunu hər kəs görür, hər bir ölkənin siyasi müstəqilliyi onun iqtisadi müstəqilliyindən asılıdır".

Daha sonra sədr bildirdi ki, Nazirlər Kabinetinin illik hesabatlarının Milli Məclisdə dinlənilməsi parlamentlə hökumət arasında təmasların artmasına, sosial-iqtisadi inkişaf məsələlərinin obyektiv araşdırılmasında və həllində deputatların iştirakına şərait yaradır. Spiker qeyd etdi ki, ötən il Milli Məclisdə Nazirlər Kabinetinin hesabatının müzakirəsi zamanı irəli sürülmüş təkliflər, həmişə olduğu kimi, yenə də hökumət tərəfindən diqqətlə araşdırılıb və bu təkliflərin icra vəziyyətinə dair ətraflı məlumat deputatlara təqdim edilib. Spiker artıq 5 ildir hesabata ayrıca olaraq sosial və infrastruktur obyektlərinin əsaslı təmiri və tikintisi, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması barədə deputatların təkliflərinin icrasına dair məlumatın da daxil edildiyini söylədi.

Daha sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı təqdim etdi. O bildirdi ki, 2024-cü il Azərbaycanın müasir tarixinə əlamətdar siyasi hadisələrin baş verdiyi, möhtəşəm nailiyyətlərin əldə edildiyi il kimi yazıldı. Belə ki, ötən il vətənimizin müstəqillik tarixində ilk dəfə olaraq bütün suveren ərazimizdə növbədənkənar prezident və parlament seçkiləri keçirildi. Prezident seçkilərinin nəticələri Ulu Öndərin layiqli davamçısı cənab İlham Əliyevin Prezident kimi vətənə, xalqa və dövlətçiliyə həsr edilmiş 20 illik misilsiz xidmətlərinə xalq tərəfindən verilən yüksək qiymətin bariz nümunəsi oldu. Tam suveren Azərbaycanın ilk parlament seçkiləri də çox uğurla keçdi və xalqımız Yeni Azərbaycan Partiyasına inamını növbəti dəfə də nümayiş etdirdi.

Baş nazir nəzərə çatdırdı ki, "Yaşıl dünya naminə həmrəylik ili" elan edilən 2024-cü ildə ölkəmizin həyatında mühüm hadisələrdən biri də dünyada ən irimiqyaslı və mötəbər tədbirlərdən olan COP29-un keçirilməsi oldu. Önəmli qərarların qəbul edildiyi bu beynəlxalq tədbir Azərbaycanın liderlik qabiliyyətini və beynəlxalq nüfuzunu bir daha bütün dünyaya nümayiş etdirdi. Bununla yanaşı, 2024-cü ildə yaddaqalan hadisələrdən biri də Azərbaycanın D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv seçilməsi idi. Bu da beynəlxalq aləmdə ölkəmizin artan nüfuzundan xəbər verir.

2024-cü ilin iqtisadi inkişaf baxımından da uğurlu il olduğunu deyən Əli Əsədov bildirdi ki, hesabat ilində ölkədə 126,3 milyard manatlıq və ya 2023-cü illə müqayisədə real ifadədə 4,1 faiz çox ümumi daxili məhsul istehsal olunub. ÜDM istehsalı neft-qaz sektorunda 0,3 faiz, qeyri-neft-qaz sektorunda 6,2 faiz, qeyri-neft-qaz sənayesində isə 7,3 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 3,6 faiz artaraq 12,4 min manat təşkil edib. Ötən il ölkənin xarici ticarət dövriyyəsi 474 milyard ABŞ dollarına çatıb, müsbət ticarət saldosu 5,3 milyard dollar olub, qeyri-neft ixracı 3,3 milyard dolları üstələyib, strateji valyuta ehtiyatları 2,5 milyard dollar artaraq 71 milyard dollar təşkil edib. İlin sonuna xarici dövlət borcunun məbləği 20,6 faiz azalaraq 5,1 milyard dollar olub. İllik inflyasiya hədəf diapazonu daxilində - 12 aylıq inflyasiya





4,9 faiz, orta illik inflyasiya isə 2,2 faiz olub.

Baş nazir 2024-cü ildə dövlət büdcəsi gəlirlərinin təxminən 37,2 milyard manat, xərclərinin isə 37,7 milyard manat təşkil etdiyini söylədi.

Əli Əsədov ötən il əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsi xərclərinin 39 faizinin və ya 14,6 milyard manatının sosial yönümlü xərclərin maliyyələşdirilməsinə yönəldildiyini bildirdi. Orta pensiya məbləğinin 12 faiz, yaşa görə pensiyanın 11,3 faiz artdığını, yaşayış minimumunun ölkə üzrə 270 manat müəyyən edildiyini, bir ailəyə düşən sosial yardımın orta aylıq məbləğinin 475 manat olduğunu qeyd etdi. Ümumiyyətlə, son bir neçə il ərzində 4 sosial paketin həyata keçirildiyini və bu məqsədlər üçün 7 milyard manatdan çox vəsaitin xərcləndiyini söylədi.

Baş nazir Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın göstərdiyi diqqət və qayğının nəticəsi olaraq ötən il 800 mənzilin şəhid ailələrinə, müharibə əlillərinə və həssas təbəqədən olan digər şəxslərə verildiyini, 93 avtomobilin müharibə əlillərinə təqdim edildiyini vurğuladı. Həmçinin hərbi qulluqçuların mənzillə təmin olunması ilə bağlı xərclər üçün 35 milyon manat, əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi ilə bağlı 100 milyon manat vəsait ayrıldığını dedi.

Əli Əsədov bildirdi ki, hesabat ilində səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması və əlçatanlığın təmin olunması məqsədilə əhalinin icbari tibbi sığortalanması və bu sahədə bir sıra dövlət proqramlarının icrası üçün büdcədən 1 milyard 368 milyon manat vəsait ayrılıb. Hökumət tərəfindən qarşıdakı dövrdə tibbi xidmətlər zərfinin genişləndirilməsi nəzərdən keçirilir.

O, qeyd etdi ki, təhsilin inkişafı ilə bağlı qəbul olunan mühüm strategiya və proqramlar nəticəsində dövlət büdcəsindən təhsil xərclərinə 4 milyard 550 milyon manat vəsait ayrılıb. Ötən il investisiya xərcləri hesabına 57 təhsil müəssisəsində tikinti işləri aparılıb. İşğaldan azad olunmuş ərazilərdə ilk ali təhsil müəssisəsi - Qarabağ Universiteti fəaliyyətə başlayıb.

Baş nazir ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı məhsullarının istehsalının artırılması və qiymətlərin stabil saxlanılması məqsədilə çoxsaylı müvafiq dəstək tədbirlərinin həyata keçirildiyini dedi. Ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 487,4 milyon manat, su ehtiyatlarından səmərəli istifadə edilməsi, fermerlərin suvarma suyu ilə təchizatı, suvarma sahələrinin genişləndirilməsi və torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin maliyyə təminatına isə 540 milyon manat vəsait yönəldildiyini söylədi.

Əli Əsədov diqqətə çatdırdı ki, işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri uğurla davam etdirilir. Hesabat ilinin sonunadək bu ərazilərdə 10,2 mindən çox keçmiş məcburi köçkün evlərlə təmin olunub. Bununla

yanaşı, keçmiş qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi məqsədilə dövlət büdcəsindən 329 milyon manat yönəldilib. Qeyd olundu ki, ümumilikdə 2021-2024-cü illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5 milyard 347 milyon manat vəsait ayrılıb.

Həmçinin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində Naxçıvan ərazisində kənd təsərrüfatı məhsulları istehsalı və emalının, elektrik enerjisi istehsalının, ticarətin və sənayenin inkişafı, infrastruktur təminatının yaxşılaşdırılması, nəqliyyat-tranzit potensialının artırılması istiqamətində layihələrin həyata keçirildiyi vurğulandı.

Ötən ilin dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik xərclərinə 6 milyard 562 milyon manat vəsait ayrıldığı, işğaldan azad olunmuş ərazilərdə 62 min hektar, ümumilikdə isə 180 min hektara yaxın ərazinin minalardan və partlamamış hərbi sursatlardan təmizləndiyi bildirildi.

Baş nazir vurğuladı ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu enerji siyasəti nəticəsində son illərdə Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində rolu daha da güclənib. O, 2024-cü ildə enerji istehsalının 28,4 milyard kVts təşkil etdiyini, istehlak həcminin isə 24,2 milyard kVts-a yüksəldiyini söylədi. Qeyd edildi ki, COP29 çərçivəsində Azərbaycanda İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi yaradılıb və enerji sahəsində həyata keçirilən layihələr üzrə beynəlxalq sazişlər imzalanıb.

O, qeyd etdi ki, hökumət qarşısında mühüm vəzifələrdən biri də Cənub Qaz Dəhlizi vasitəsilə qaz təchizatının ixrac coğrafiyasının genişləndirilməsidir və hazırda bu kəmər vasitəsilə qazımızı alan ölkələrin sayı 12-yə bərabərdir. Hesabat ili ərzində 29,1 milyon ton neft, 50,6 milyard kubmetr qaz hasil edilib. Neftin 24,4 milyon tonu, qazın isə 25,5 milyard kubmetri ixrac edilib.

Baş nazir söylədi ki, 2024-cü ildə həmçinin Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin ötürmə qabiliyyətinin və tranzit potensialının artırılması üçün bir çox layihələr reallaşdırılıb. Nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi 33 milyon ton təşkil edib. Bakı-Tbilisi-Qars xətti 2024-cü ilin may ayında tamamlanaraq istismara verilib. Xəttin illik yükaşırma həcmi 1 milyondan 5 milyon tona çatdırılıb. Ötən il ölkədə avtomobil və dəmir yollarının, həmçinin yol infrastrukturunun tikintisi, yenidən qurulması və bərpası davam etdirilib.

> "Hesabat ilində ölkədə 126,3 milyard manatlıq və ya 2023-cü illə müqayisədə real ifadədə 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. ÜDM istehsalı neft-qaz sektorunda 0,3 faiz, qeyri-neft-qaz sektorunda 6,2 faiz, qeyri-neft-qaz sənayesində isə 7,3 faiz artıb. Əhalinin hər nəfərinə düşən ÜDM 3,6 faiz artaraq 12,4 min manat təşkil edib. Ötən il ölkənin xarici ticarət dövriyyəsi 474 milyard ABŞ dollarına çatıb, müsbət ticarət saldosu 5,3 milyard dollar olub, qeyri-neft ixracı 3,3 milyard dolları üstələyib, strateji valyuta ehtiyatları 2,5 milyard dollar artaraq 71 milyard dollar təşkil edib".
>
> **Əli Əsədov**

Əli Əsədov ötən il hökumətin hesabatı təqdim edildikdən sonra ümumilikdə deputatlar tərəfindən müxtəlif məsələlər üzrə 151 müraciətin daxil olduğunu, humanitar, iqtisadi, sosial, nəqliyyat və yol infrastrukturu, tikinti, kommunal, qanunvericilik, təhlükəsizlik məsələlərini əhatə edən bu müraciətlərdən 57-nin tam, 48-nin qismən icra edildiyini, digər 46 məsələnin icrası istiqamətində işlərin hazırda davam etdirildiyini diqqətə çatdırdı.

Baş nazir çıxışının sonunda müsbət inkişaf dinamikasının saxlanılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi altında hökumətin daha da əzmlə çalışacağına əminliyini bildirdi.

Sonra iclasda Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı ətrafında müzakirələr aparıldı. Müzakirələrdə Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov, sədr müavinləri Ziyafət Əsgərov, Musa Qasımlı, komitə sədrləri və millət vəkilləri çıxış edərək təqdim edilən hesabata dair fikirlərini səsləndirdilər. Hökumətin 2024-cü ildəki fəaliyyətini qənaətbəxş hesab edən deputatlar bildirdilər ki, əhalinin sosial rifahı yaxşılaşdırılıb, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı təmin edilib, dövlət sosial proqramları, regionların inkişafı ilə bağlı tədbirlər uğurla icra olunub.

Çıxışlarda hesabat ilində müdafiə və milli təhlükəsizliyin möhkəmləndirilməsi işləri də yüksək qiymətləndirildi. Habelə, energetika, ekoloji təhlükəsizliyin təmin olunması sahəsində məqsədyönlü tədbirlərin görüldüyü qeyd edildi. Millət vəkilləri seçicilərin üzləşdiyi bəzi problemləri hökumət üzvlərinin diqqətinə çatdırdılar və bir sıra aktual məsələlərlə bağlı təkliflərini səsləndirdilər.

Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı nəzərə alındı.

İclasın sonunda parlamentin sədri Sahibə Qafarova Baş nazirə və hökumət üzvlərinə gələcək fəaliyyətlərində uğurlar arzuladı.



# Milli Məclisin sədri MDB PA-nın faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş iclasında çıxış etdi

Aprelin 17-18-də Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının (MDB PA) tədbirlərində iştirak etmək üçün Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfər etdi.

Səfər çərçivəsində aprelin 17-də Milli Məclisin sədri Sahibə Qafarova Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə görüşdü. Özbəkistan spikeri cari ilin aprel ayında Daşkənddə təşkil olunan Parlamentlərarası İttifaqın 150-ci Assambleyasında iştirakına görə Sahibə Qafarovaya minnətdarlığını bildirdi, öz ölkəsində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin konfransının uğurla təşkil olunması münasibətilə təbriklərini çatdırdı.

Öz növbəsində spiker Sahibə Qafarova da PAİ-nin 150-ci Assambleyasında iştirak etmək məqsədilə Özbəkistana səfərini və orada keçirdiyi görüşləri məmnunluqla xatırlatdı və dost ölkədə Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək səviyyəli qonaqpərvərliyə görə təşəkkürünü bildirdi. O, Azərbaycan və Özbəkistan parlamentləri səviyyəsində qarşılıqlı səfərlərin mütəmadi xarakter daşıdığını, bu səfərlərin və yüksək səviyyəli təmasların qanunvericilik orqanlarımız arasında əməkdaşlığın daha da dərinləşməsinə xidmət etdiyini söylədi.

Görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin dinamik inkişafından məmnunluq ifadə olundu, əlaqələrimizin dərinləşməsində ölkə başçılarının rolu xüsusi vurğulandı.

Söhbət zamanı Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında parlamentlərin roluna da diqqət yetirilərək qanunvericilik orqanlarımız arasında sıx təmasların mövcud olduğu bildirildi. “Azərbaycan Milli Məclisi ilə Özbəkistan Ali Məclisinin Senatı



arasında parlamentlərarası əməkdaşlığın inkişafına dair 2024-2025-ci illər üçün praktiki tədbirlər planı"nda (Yol xəritəsi) cari il üçün nəzərdə tutulan tədbirlər haqqında geniş fikir mübadiləsi aparıldı.

Həmin gün spiker Sahibə Qafarova Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlətlərin Parlamentlərarası Assambleyasının Şura iclasında iştirak etdi. İclasda ötən dövr ərzində Assambleya çərçivəsində görülən işlər, həyata keçirilən tədbirlər və digər təşkilati məsələlər nəzərdən keçirildi. Azərbaycan parlamentinin spikeri Sahibə Qafarova müzakirə olunan mövzular haqqında öz fikirlərini bildirdi.

Milli Məclisin sədri işgüzar səfər çərçivəsində Müstəqil Dövlətlər Birliyinə üzv olan dövlətlərin Parlamentlərarası Assambleyasının Şura və 58-ci plenar iclaslarında iştirak etdi. O, Şura iclasında müzakirə olunan mövzular barədə fikirlərini bölüşdü.

Aprelin 18-də Milli Məclisin sədri Sahibə Qafarova qurumun



1941-1945-ci illərdə faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş təntənəli iclasında çıxış etdi. Toplantıda Azərbaycan xalqının faşizm üzərində tarixi Qələbədə böyük rolunu xüsusi qeyd edən spiker diqqətə çatdırdı ki, xalqımız cəbhəyə 600 mindən artıq oğul və qızını göndərmişdi. Onlardan 300 mindən çoxu döyüşlərdə həlak oldu. Bu dəhşətli müharibədə göstərdikləri igidliyə görə 130-dan artıq azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif olunub. Azərbaycanlı çağırışçılar və könüllülərdən formalaşdırılmış 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyalar döyüşlərdə görünməmiş igidlik və qəhrəmanlıq nümayiş etdirərək öz adlarını





tarixə qızıl hərflərlə yazıblar. Azərbaycan diviziyaları Qafqazdan Berlinə qədər şanlı döyüş yolu keçiblər. Onlar Moskva, Leninqrad, Brest, Kiyev, Stalinqrad, Simferopol, Odessa və yüzlərlə digər yaşayış məntəqələri uğrunda rəşadətlə döyüşüblər. Həmvətənlərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında fəal iştirak edərək partizan hərəkatında saysız-hesabsız qəhrəmanlıq nümunələri göstəriblər. Faşizmə qarşı mübarizədə xalqımız yalnız döyüş meydanlarında deyil, həm də arxa cəbhədə ordunun ehtiyacları üçün gecə-gündüz çalışaraq fədakarlıq nümayiş etdirib. Həmin dövrdə Azərbaycanın sənaye müəssisələrində 130 adda silah və sursat istehsal olunurdu. Bu tarixi Qələbədə Azərbaycan neftinin böyük rolundan danışan spiker Sahibə Qafarova bildirdi ki, müharibə illərində Sovet İttifaqında hasil edilən neftin dörddə üçü, aviasiya benzininin və yüksək keyfiyyətli motor yağlarının isə 85-90 faizi Azərbaycanın payına düşürdü. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında həlledici rol oynamış ordunun tank və təyyarələrinin əksəriyyəti məhz Bakı neftçilərinin göndərdiyi yanacaqla işləyirdi.

Spiker onu da vurğuladı ki, ölkəmizdə İkinci Dünya müharibəsi veteranlarına diqqət və qayğı bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qalır. Bu istiqamətdə ölkə başçısı tərəfindən imzalanmış çoxsaylı sərəncamlar, müharibə veteranlarına göstərilən qayğının artırılması və onların sosial müdafiəsinin gücləndirilməsi bunun bariz sübutudur. Sahibə Qafarova çıxışı zamanı Ümummilli



Lider Heydər Əliyevin "Veteranlar xalqımızın "qızıl fondu"dur" fikrini xatırlatdı.

Milli Məclisin sədri bildirdi ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılmış Qələbə sayəsində Azərbaycan torpaqlarının 30 illik işğaldan azad edilməsi, ölkənin ərazi bütövlüyünün və suverenliyinin bərpası, bu torpaqlarda həyatın bu gün yenidən canlandırılması xalqımızın - həm keçmiş, həm də indiki nəsillərin ədalətin zəfərinə olan sarsılmaz inamını və onu bərpa etmək əzmini təcəssüm etdirir.

Spiker qeyd etdi ki, xalqlarımızın İkinci Dünya müharibəsində göstərdikləri rəşadət və şücaət gənc nəsillər üçün əsl vətənpərvərlik nümunəsi, dəyərli bir irsdir. Faşizm üzərində Qələbənin sülh, rifah və parlaq gələcək naminə misilsiz qəhrəmanlıq və cəsarət nümayiş etdirən bütün xalqlarımızın ortaq zəfəri olduğunu deyən Sahibə Qafarova qeyd etdi ki, bu zəfər müxtəlif millətlərin nümayəndələrinin çiyin-çiyinə verərək haqq işini müdafiə etməsinin, xalqlarımızın misli görünməmiş həmrəyliyinin və birliyinin nəticəsidir.



Həmin gün MDB PA çərçivəsində 1941-1945-ci illərdə faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş tədbirlər keçirildi.

Milli Məclisin sədri Sahibə Qafarova və MDB-yə üzv dövlətlərin parlament sədrləri Piskaryov memorial məzarlığını ziyarət etdilər və orada yerləşən "Ana vətən" abidəsi qarşısına gül çələngləri qoydular. Sonra Tavriya sarayında faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş konsert təşkil olundu.




# Parlamentlərarası İttifaqın Özbəkistanda keçirilən 150-ci Assambleyası mühüm çıxışlarla yadda qaldı

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti aprelin 4-də Özbəkistan Respublikasına işgüzar səfər etdi.

Səfərin ilk günü Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Daşkənddə Mirabad rayonunda yerləşən Heydər Əliyev meydanında oldu, orada ucaldılan Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzdü.

Səfər çərçivəsində Milli Məclisin spikerinin iştirakçı ölkələrin parlament sədrləri, nümayəndə heyətlərinin və beynəlxalq təşkilatların rəhbərləri, həmçinin Özbəkistanın dövlət rəsmiləri ilə bir sıra görüşləri keçirildi.

Milli Məclisin sədri Sahibə Qafarova əvvəlcə  Parlamentlərarası İttifaqın (PAİ) Baş katibi Martin Çunqonq






ilə görüşdü. Görüşdə Azərbaycan Respublikasının Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında əməkdaşlıq məsələləri nəzərdən keçirildi. Bildirildi ki, Milli Məclis beynəlxalq parlament qurumları ilə ikitərəfli və çoxtərəfli əsasda əlaqələrin genişləndirilməsinə mühüm əhəmiyyət verir və PAİ bu baxımdan səmərəli platformadır. Söhbət zamanı Azərbaycanın təşkilatda yüksək səviyyədə və fəal şəkildə təmsil olunması müsbət qiymətləndirildi. Milli Məclisin deputatlarının təşkilatın rəhbər orqanlarında təmsil olunmasından məmnunluq ifadə edildi. Regionda mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə də fikir mübadiləsi aparıldı.

Sülh sazişinin mətni ilə bağlı danışıqlar prosesinin yekunlaşdığını bildirən parlamentin sədri Sahibə Qafarova söylədi ki, əgər Ermənistan sülh müqaviləsinin imzalanmasını istəyirsə, Azərbaycanın iki legitim şərtini qəbul etməlidir: öz konstitusiyasında dəyişiklik etməli və ölkəmizə qarşı ərazi iddialarını əks etdirən müddəaları öz konstitusiyasından çıxarmalıdır. Eyni zamanda, Azərbaycanın torpaqlarını öz gücü hesabına işğaldan azad etməsindən sonra faktiki olaraq fəaliyyətinə heç bir əsas qalmayan Minsk qrupu ləğv edilməlidir.

## Milli Məclisin sədri APA-nın Koordinasiya iclasında çıxış etdi

Aprelin 5-də Milli Məclisin sədri Sahibə Qafarova Özbəkistanda Parlamentlərarası İttifaqın 150-ci Assambleyası çərçivəsində keçirilən Asiya Parlament Assambleyasının (APA) Koordinasiya iclasında çıxış edərək bildirdi ki, bu, APA-nın PAİ çərçivəsində Azərbaycanın sədrliyi ilə keçirilən üçüncü əlaqələndirmə iclasıdır. Bu kimi tədbirlər qarşılıqlı maraqlarımıza aid vacib beynəlxalq məsələlərdə əməkdaşlıq və koordinasiyanın dərinləşməsinə böyük töhfə verir. Milli Məclisin sədri 2025-ci il fevralın 18-20-də Bakı şəhərində "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş APA-nın 15-ci plenar iclasının keçirildiyini xatırlatdı.

Sahibə Qafarova çıxışında Azərbaycanın sədrliyi dövründə irəli sürdüyü prioritetlər barədə də danışdı. Bu prioritetlərin APA-nın institusional imkanlarının inkişafı, sıralarımızın genişləndirilməsi və mövcud orqanların effektivliyinin artırılması ilə bağlı olduğunu deyən spiker 15-ci iclas nəticəsində təşkilatın sıralarının genişləndiyini vurğuladı. Söylədi ki, Oman Sultanlığının Şura Məclisi APA-nın tamhüquqlu üzvü oldu, Belarus Respublikası Milli Məclisinin Respublika Şurası isə müşahidəçi statusu qazandı.

Sədrin sözlərinə görə, APA Bürosunun fəallaşması və daimi komitələrin hər bir yığıncağında onun iclaslarının çağırılması təşkilatın ehtiyaclarına sürətli cavab verməyə kömək edir. Komitələrimizin işləri nəticəsində siyasi, iqtisadi, mədəni, sosial, ətraf mühit və digər məsələləri əhatə edən 29 qətnamə qəbul edilib.

Sahibə Qafarova onu da diqqətə çatdırdı ki, 15-ci iclas çərçivəsində həmçinin Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu barədə intensiv müzakirələr aparıldı. Hamımız razılaşdıq ki, beynəlxalq









normalara və prinsiplərə riayət etmək, effektiv və inklüziv çoxsahəli sistem vacibdir. Çünki bu gün qarşılaşdığımız bütün çətinliklərə, ziddiyyətlərə və gərginliklərə qarşı mübarizə aparmaq üçün məhz buna ehtiyacımız var.

Milli Məclisin sədri çıxışının yekununda bəyan etdi ki, PAİ Assambleyası çərçivəsində APA Koordinasiya iclasının keçirilməsi parlamentarilərimizin diqqətini qarşılıqlı maraq doğuran məsələlərə yönəltməyə və ümumi məqsədlərə nail olmaq üçün resurslarımızı səfərbər etməyə imkan verəcəkdir.

## Azərbaycanın Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinə uğurlu sədrliyi müzakirə olundu

Milli Məclisin sədri Sahibə Qafarova işgüzar səfər çərçivəsində Daşkənd şəhərində Pakistan İslam Respublikası Senatının sədri Seyid Yusuf Rza Gilani, Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) Daimi Komitəsinin sədri Çunq Eui-yong, Bəhreyn Krallığı Nümayəndələr Şurasının sədri Əhməd bin Salman Əl-Musalam, İsrail Knessetinin sədri Amir Ohana, Mərakeş Krallığı Müşavirlər Palatasının sədri Sidi Mohamed Ould Ər-Rəşid ilə də ayrı-ayrılıqda görüşlər keçirdi. Bu görüşlərdə dostluq prinsipləri əsasında qurulan strateji münasibətlərə, uğurlu əməkdaşlıq əlaqələrinə, beynəlxalq platformalarda əməkdaşlığa dair qarşılıqlı fikirlər səsləndirildi. Milli Məclisin sədri Senatın sədri ilə cari ilin fevralında Bakıda keçirdiyi görüşü məmnunluqla xatırladaraq vurğuladı ki, sıx təmaslar və müsbət dialoq parlamentlərimizin daha geniş əməkdaşlığına xidmət edir.

Görüşlərdə Sahibə Qafarova Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyəti, təşkilatın institusional inkişafı istiqamətində atılan addımlar barədə məlumat verdi.

Aparılan söhbətlərdə ölkəmizin Parlament Şəbəkəsinə sədrliyi ilə görülən işlər yüksək qiymətləndirildi, Azərbaycanla münasibətlərə çox böyük önəm verildiyi, beynəlxalq təşkilatlarda qarşılıqlı əməkdaşlığın əhəmiyyəti, İCAPP-ın Asiya regionunda sülh, təhlükəsizlik və əməkdaşlığı təşviq edən mühüm bir platforma kimi çıxış etdiyi qeyd olundu. Azərbaycanın hakim partiyası Yeni Azərbaycan Partiyasının İCAAP-da çox fəal təmsil olunduğu da diqqətə çatdırıldı.

Bütün görüşlərdə ölkəmizin digər dövlətlərlə iqtisadi-ticari, enerji sahələrində geniş əməkdaşlığının mövcud olduğu bildirildi, ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin və görüşlərin müstəsna rolu qeyd edildi. Eyni zamanda, aparılan söhbətlərdə qanunvericilik orqanları arasında əlaqələrin ölkələrimiz arasında münasibətlərin inkişafına töhfələri, səmərəli dialoqun beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da dərinləşməsinə xidmət etdiyi barədə fikirlər səsləndirildi.




## Azərbaycan parlamentinin sədri PAİ-nin 150-ci Assambleyasının açılış mərasimində çıxış etdi

Aprelin 6-da Parlamentlərarası İttifaqın 150-ci Assambleyasının açılış mərasimi keçirildi. Milli Məclisin sədri "Sosial inkişaf və ədalət naminə parlament fəaliyyətləri" mövzusuna həsr olunmuş toplantıda çıxış etdi. O, bu əlamətdar hadisə - PAİ-nin 150-ci yubiley Assambleyası münasibətilə təbriklərini çatdırdı, bu tarixi tədbirin qardaş Özbəkistanda yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə dost ölkənin hökumətinə və Senatına təşəkkürünü bildirdi.

Spiker Sahibə Qafarova ümumi müzakirələr üçün seçilən mövzunun günün vacib məsələlərindən olduğunu, dünyada baş verən münaqişələr və geosiyasi gərginliklərin, iqtisadi bərabərsizliklərin, ekoloji və digər çağırışların sosial inkişafa ciddi maneələr yaratdığını söylədi.

Sosial inkişaf məsələsinin bütün parlamentlər üçün aktual olduğunu deyən spiker Sahibə Qafarova qeyd etdi ki, əslində, insanlar sosial inkişafın mərkəzində durduğuna görə, xalqın seçilmiş nümayəndəsi olan parlamentarilər də bu sahəyə diqqət yetirməlidirlər. Son qiymətləndirmələr göstərir ki, Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq istiqamətində irəliləyiş çox zəifdir - hədəf üzrə cəmi 17 faiz irəliləyiş müşahidə olunur.

Milli Məclisin sədri bildirdi ki, bu ilin noyabrında Sosial İnkişaf üzrə İkinci Dünya Sammitinin keçiriləcəyini nəzərə alaraq cari ümumi müzakirələr təcrübə mübadiləsi, uğurlu nümunələrin paylaşılması və mövqelərimizin ifadə olunması baxımından yaxşı fürsətdir. O, qeyd etdi ki, sosial inkişafa nail olmaq üçün DİM-lərin həyata keçirilməsi zamanı yalnız iqtisadi sütuna üstünlük verilmədən kompleks yanaşmanın tətbiq olunması, sosial dövlətin və onun qoruyucu rolunun müvafiq qanunvericiliyin qəbulu və dəyişiklikləri ilə gücləndirilməsi, sosial inkişaf üzrə dövlət siyasətinin daha da möhkəmləndirilməsi, həmçinin sosial inkişafa yalnız milli məsələ kimi baxmamaq və beynəlxalq səviyyədə birgə səyləri artırmaq mühüm əhəmiyyətə malikdir.

Sahibə Qafarova çıxışında Azərbaycanın təcrübə və nailiyyətləri haqqında geniş məlumat verdi, sosial inkişafın ümumi çərçivəsinin Konstitusiyamızla müəyyən olunduğunu, parlamentin sosial inkişafın müxtəlif sahələrini əhatə edən əsas qanunları qəbul etdiyini nəzərə çatdırdı.

Milli Məclisin sədri onu da vurğuladı ki, hökumətimizin yanaşmasına əsasən, güclü iqtisadi baza sosial siyasətin daha effektiv həyata keçirilməsinə imkan verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və sosial ədalət prinsipləri bizim üçün hər zaman önəmli olub". Sədrin sözlərinə görə, bu siyasətin




mühüm nailiyyətləri sırasında işsizlik və yoxsulluq səviyyəsinin 5,5 faizə endirilməsi, son beş ildə qəbul olunmuş dörd sosial islahat paketinin əhalinin 40 faizini əhatə etməsi, minimum əməkhaqqının 2,7 dəfə, əməkhaqqı fondunun 2,6 dəfə, sosial müavinət və pensiya ödənişlərinin isə 5 dəfə artırılması da var. Bu gün hökumətimiz milli inkişaf strategiyalarını Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırıb. "Azərbaycan 2030: sosial-iqtisadi inkişaf üzrə Milli Prioritetlər" sənədi sosial ədalətə əsaslanan dinamik və inklüziv cəmiyyətin yaradılmasını beş milli inkişaf istiqamətlərindən biri kimi təsbit edib.

Parlamentin sədri çıxışında onu da bildirdi ki, son 30 il ərzində qaçqın və məcburi köçkünlərin sosial inteqrasiyası ölkəmizin əsas prioritetlərindən biri olmuşdur. Ermənistanın Azərbaycan ərazisinin 20 faizini 30 il ərzində işğal altında saxlaması nəticəsində bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Onlardan 250 mindən çoxu Ermənistandan qovulmuş insanlardır. İşğal nəticəsində 9 şəhər və yüzlərlə kənd, tarixi, mədəni və dini abidələr, infrastruktur tamamilə dağıdılıb. İşğalın yaratdığı ağır sosial-iqtisadi yüklərə baxmayaraq, hökumətimiz qaçqın və məcburi köçkünlərin ehtiyaclarını qarşılamaq üçün bütün zəruri tədbirləri görüb. 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsindən sonra hökumət bu ərazilərin bərpası, minalardan təmizlənməsi, iqtisadi fəaliyyətin yenidən qurulması və yaşıl enerji layihələrinin həyata keçirilməsi sahəsində çox fəal olub. İndiyə qədər təxminən on min nəfər keçmiş məcburi köçkün artıq doğma yurdlarına qayıdıb. 2026-cı ilin sonuna qədər bu rəqəmin 140 minə çatacağı gözlənilir. Bu, insan mərkəzli və dayanıqlı inkişafa yönəlmiş yanaşmamızın daha bir göstəricisidir.

Spiker Sahibə Qafarova çıxışının sonunda onu da diqqətə çatdırdı ki, sosial inkişafı yalnız milli məsələ kimi qiymətləndirmək olmaz. Kopenhagen Bəyannaməsi beynəlxalq ictimaiyyətin birgə öhdəlik və səylərinin həlledici əhəmiyyətini tanıyır. Bu baxımdan son 5 ildə Azərbaycan 140-dan çox ölkəyə 330 milyon ABŞ dolları həcmində humanitar, maliyyə və texniki yardım göstərməklə sosial inkişafın dəstəklənməsi istiqamətində beynəlxalq birgə səylərə sadiqliyini aydın şəkildə nümayiş etdirib.

## Parlament Şəbəkəsi ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında memorandum imzalandı

Aprelin 6-da Milli Məclisin sədri Sahibə Qafarova işgüzar səfər çərçivəsində Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri Aktoti Raimkulova ilə görüşdü. Görüş zamanı Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında memorandum imzalandı. Sənədi Milli Məclisin spikeri, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədri Sahibə Qafarova və Türk Mədəniyyəti və İrsi Fondunun rəhbəri Aktoti Raimkulova imzaladılar.

Milli Məclisin sədri Sahibə Qafarova sənədin əhəmiyyətini qeyd




edərək vurğuladı ki, memorandum Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcək.

## Parlament Şəbəkəsinin 4-cü Konfransında Daşkənd Bəyannaməsi qəbul edildi

Daşkənddə Milli Məclisin və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədri Sahibə Qafarovanın sədrliyi ilə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin "Bandunq Ruhunun 70 İlliyinin qeyd olunması: Bandunq prinsiplərinin dəstəklənməsində parlamentlərin rolu" mövzusuna həsr olunmuş 4-cü Konfransı keçirildi. Sahibə Qafarova konfransın açılışındakı çıxışında tədbirin təşkilinə göstərdikləri həmrəylik və dəstəyə görə Parlamentlərarası İttifaqın prezidenti Tulia Aksona, təşkilatın Baş katibi Martin Çunqonqa və Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayevaya təşəkkürünü bildirdi.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 4-cü Konfransının Bandunq Bəyannaməsinin qəbulunun ildönümünə təsadüf etməsi baxımından da əlamətdar olduğunu deyən spiker Sahibə Qafarova vurğuladı ki, bu ay Qoşulmama Hərəkatının yaradılmasının əsasını qoyan Bandunq prinsiplərinin 70 illiyi qeyd olunur. Ötən illər göstərir ki, bu prinsiplər heç vaxt öz etibarlılığını itirmədi və bu gün üzləşdiyimiz mürəkkəb çağırışlarla mübarizədə hərəkətverici qüvvə kimi qəbul edilir. Suverenlik, ərazi bütövlüyü, bərabərlik, daxili işlərə qarışmamaq, ədalətə hörmət və beynəlxalq öhdəliklər kimi prinsiplərə ciddi əməl olunması bütün xalqların dinc yanaşı yaşaması və daha yaxşı gələcək naminə səmərəli əməkdaşlığı üçün vacibdir.

Milli Məclisin sədri vurğuladı ki, ölkələrimiz Qoşulmama Hərəkatının işinə cəlb olunmaqla bu prinsipləri mənimsəməkdə və onlara sadiq qalmaqda əzmkar olublar. Digər tərəfdən, parlamentlərimiz Bandunq prinsiplərində təsbit olunmuş idealların və məqsədlərin həyata keçirilməsində mühüm rol oynamaq arzusu ilə çıxış ediblər. Bu yanaşma təkcə bu prinsiplərin irəliləyişində hökumətlərimizə dəstək verməyə hazır olduğumuzu deyil, həm də sülh, ədalət və davamlı inkişaf naminə parlamentlərarası əməkdaşlığın potensialına möhkəm inamı göstərir. Bu mənada, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi bizim ümumi baxışımızı əks etdirir.

2019-2024-cü illərdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik etdiyini xatırladan spiker Sahibə Qafarova dedi ki, 2019-cu ildə Qoşulmama Hərəkatının Bakıda keçirilən 18-ci Zirvə Toplantısında Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin sədrlik prioritetlərini və fəaliyyətini Bandunq prinsipləri əsasında quracağını, ədaləti və beynəlxalq hüquq normalarını qətiyyətlə müdafiə edəcəyini, Qoşulmama Hərəkatının rolunu və nüfuzunu daha da artırmaq üçün çalışacağını vurğulayıb. Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin bir sıra təşəbbüsləri Hərəkat üzvləri arasın-



Sahibə Qafarova Azərbaycan Milli Məclisində Hərəkata üzv dövlətlərin parlamentləri ilə əməkdaşlıq üzrə əlavə 20 parlament dostluq qrupu yaradıldığını, bu dostluq qruplarının üzv parlamentlərlə əlaqələrimizi daha da genişləndirmək məqsədini əks etdirdiyini söylədi. Ümumilikdə Milli Məclisdə fəaliyyət göstərən 104 dostluq qrupundan 49-u Şəbəkənin parlamentlərini əhatə edir.

Çıxışının sonunda Milli Məclisin sədri qeyd etdi ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsini daha da inkişaf etdirmək və əməkdaşlığımızı dərinləşdirmək üçün yaxşı imkanlar var. O, üzv parlamentləri bu prosesdə fəal iştirak etməyə və ümumi məqsədlərin təşviqi istiqamətində birgə işi davam etdirməyə çağırdı.

Sonra konfransda çıxış edən Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson, təşkilatın Baş katibi Martin Çunqonq, Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş, Pakistan İslam Respublikası Senatının sədri Seyid Yusuf Rza Gilani, Belarus Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanova, Misir Nümayəndələr Palatasının sədri Hanafi Gebali, Mərakeş Krallığı Müşavirlər Palatasının sədri Sidi Mohamed Ould Ər-Rəşid, Nepal Federal Parlamentinin Nümayəndələr Palatasının sədri Dev Raj Gimire, Maldiv Xalq Məclisinin sədri Abdulrahem Abdulla və digərləri konfransın mövzusunun aktuallığı, müasir beynəlxalq münasibətlərdə Bandunq prinsiplərinin dəstəklənməsinin vacibliyi ilə bağlı fikirlərini səsləndirdilər. Çıxışçılar Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması və institusional inkişafı, təşkilatın beynəlxalq rolunun artırılması istiqamətində görülən işləri yüksək qiymətləndirərək ölkəmizə bu sahədəki geniş fəaliyyətinə görə minnətdarlıqlarını bildirdilər.

da həmrəyliyin, qarşılıqlı dəstəyin və çoxşaxəli əməkdaşlığın gücləndirilməsi, habelə onun institusional inkişafı üçün həyati əhəmiyyət kəsb edib.

Milli Məclisin sədri Parlament Şəbəkəsinin yaradılmasını da Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin mühüm nailiyyətlərindən biri kimi qiymətləndirdi. Parlament Şəbəkəsinin 2021-ci ilin noyabrında Madriddə Parlamentlərarası İttifaqın 143-cü Assambleyası çərçivəsində keçirilən konfransda yaradıldığını xatırladan spiker Sahibə Qafarovanın sözlərinə görə, həmin vaxtdan bu günədək Parlament Şəbəkəsinin üç konfransı keçirilib. Bu tədbirlərdə 70 ölkənin, 15 beynəlxalq təşkilatın 1000 nəfərdən artıq nümayəndəsi iştirak edib. Sahibə Qafarova bildirdi ki, hər bir konfransda iştirakçıların sayı əvvəlki ilə müqayisədə daha da artır və bu da Parlament Şəbəkəsinə olan marağın nəticəsidir. Bu gün isə Parlament Şəbəkəsi Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentlərinin yarısından çoxunu təmsil edir.

Azərbaycan parlamentinin sədri həmçinin söylədi ki, hər bir konfrans Şəbəkənin institusional inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edib. Belə ki, Bakı Konfransı təşkilatın Əsasnaməsini, rəsmi loqosunu və bayrağını qəbul edib, sədr və 3 sədr müavini seçilib. Manama Konfransı Şəbəkənin iş üsullarını daha da inkişaf etdirib və təkmilləşdirib. Cenevrə Konfransı Büronun və 4 daimi komitənin yaradılması haqqında qərarlar qəbul edib. Digər təşkilatlarla institusional dialoqun inkişaf etdirilməsi də qurumun əsas diqqət mərkəzində olan məsələlərdən biri olub. Hazırda Parlament Şəbəkəsi 6 təşkilatda müşahidəçi statusuna malikdir, 7 təşkilat isə Şəbəkədə müşahidəçi statusu alıb. Həmçinin 7 təşkilatla Anlaşma Memorandumu imzalamaqla Şəbəkə beynəlxalq əməkdaşlıqda iştirakını daha da genişləndirib.

Parlament Şəbəkəsinin Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentləri arasında ikitərəfli əlaqələrin inkişafı üçün də çox mühüm və faydalı platforma olduğunu deyən

Həmçinin təşkilati məsələlərlə bağlı müxtəlif təkliflər irəli sürüldü.

Sonra konfransın gündəliyində olan bir sıra təşkilati məsələlərə baxıldı. Milli Məclisin sədri Sahibə Qafarovanın Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə sədrliyinin növbəti 3 illik dövr üçün yenilənməsi, həmçinin sədr müavinlərinin də səlahiyyət müddətinin növbəti dövr üçün artırılmasına dair qərar qəbul olundu.

Konfransda Şəbəkəyə üzv parlamentlərin yekdil mövqeyini ifadə edən və bir sıra mühüm müddəaların əks olunduğu Daşkənd Bəyannaməsi qəbul edildi. Bəyannamədə digər məsələlərlə yanaşı, Parlament Şəbəkəsinin institusional çərçivəsinin daha da inkişaf etdirilməsi, o cümlədən Büro və daimi komitələrin fəaliyyətlərinin təmin olunması, qurumun mənzil qərargahının yaradılması istiqamətində müzakirələrin əhəmiyyəti vurğulandı. Sənəddə həmçinin Bakı İqlim Birliyi Paktına və COP29-un mühüm nəticələrinə, Qoşulmama Hərəkatına üzv dövlətlərdə öz yaşayış yerlərini zor gücü ilə dəyişməyə məcbur qalmış insanların, o cümlədən Qərbi Azərbaycan İcmasının öz evlərinə sülh yolu ilə təhlükəsiz şəraitdə və ləyaqətlə geri qayıdışı hüququna dəstək ifadə edildi.




## Özbəkistan Prezidenti ilə görüş

Milli Məclisin sədri Sahibə Qafarova Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə görüşdü. Parlamentlərarası İttifaqın 150-ci Assambleyası çərçivəsində baş tutan görüşdə ölkələrimiz arasında münasibətlərin hazırkı yüksək səviyyəsindən məmnunluq ifadə olundu. Əlaqələrimizin inkişafında hər iki ölkə prezidentlərinin xüsusi rolu vurğulandı. Ali və yüksək səviyyəli səfərlərin ölkələrimiz arasında münasibətlərin daha da inkişafında xüsusi əhəmiyyət kəsb etdiyi qeyd olundu. Bildirildi ki, bu səfərlər və sıx təmaslar iki dost və qardaş ölkə arasında münasibətlərin daha da möhkəmləndirilməsi üçün geniş imkanlar yaradır.

Söhbət zamanı parlamentlərimizin də ölkələrimiz və xalqlarımız arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin ruhuna uyğun olaraq geniş əməkdaşlıq əlaqələrinə malik olmasından məmnunluq ifadə edildi. Milli Məclisin sədri Özbəkistanın Parlamentlərarası İttifaqın 150-ci Assambleyasına yüksək səviyyədə ev sahibliyi etdiyini söylədi. O, həmçinin dost və qardaş ölkənin Prezidentinə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 4-cü Konfransı haqqında ətraflı məlumat verdi.

## PAİ-nin 150-ci Assambleyasında səmərəli müzakirələr keçirildi

Milli Məclisin sədri Sahibə Qafarova aprelin 7-də Parlamentlərarası İttifaqın “Sosial inkişaf və ədalət naminə parlament fəaliyyətləri” mövzusuna həsr olunmuş 150-ci Assambleyasının müzakirələrində iştirak etdi.

Assambleyanın iclasında çıxış edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev müzakirə olunan mövzunun aktuallığı, sosial inkişaf məqsədlərinə nail olunmasında qanunvericilik orqanlarının rolu, həmçinin parlamentlər arasında əməkdaşlığın, beynəlxalq parlament təşkilatlarının qlobal çağırışların aradan qaldırılmasına töhfələri haqqında fikirlərini səsləndirdi.

## Parlament Şəbəkəsi ilə Tolerantlıq və Sülh Təşkilatı arasında memorandum imzalandı

Aprelin 7-də Milli Məclisin sədri Sahibə Qafarova Tolerantlıq və Sülh Təşkilatının rəhbəri Ahmed Aljarvan ilə də görüşdü. Görüş zamanı Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Tolerantlıq və Sülh Təşkilatı arasında memorandum imzalandı. Sənədi Milli Məclisin spikeri, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin sədri Sahibə Qafarova və Tolerantlıq və Sülh Təşkilatının rəhbəri Ahmed Aljarvan imzaladılar.

Sənədin əhəmiyyətindən danışan Milli Məclisin sədri bildirdi ki, memorandum Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə Tolerantlıq və Sülh Təşkilatı arasında əməkdaşlığın gücləndirilməsinə xidmət edəcək.



# Azərbaycan-Gürcüstan dostluğu xalqlarımızın iradəsindən qaynaqlanır

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti martın 10-da Gürcüstana rəsmi səfər etdi.

Gürcüstanda nümayəndə heyətimizin üzvləri səfər proqramına Tbilisinin mərkəzi hissəsində ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etməklə başladı. Spiker Sahibə Qafarova abidənin önünə əklil qoyaraq dahi şəxsiyyətin xatirəsini ehtiramla yad etdi. Sonra Tbilisinin Qəhrəmanlar meydanındakı Memorial kompleksi ziyarət edilərək Gürcüstanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanların xatirəsi anıldı.

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarovanın Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşü keçirildi. Azərbaycanlı həmkarını səmimiyyətlə salamlayan Gürcüstan spikeri belə görüşləri ölkələrimiz arasında yüksək səviyyəli dostluq münasibətlərinin göstəricisi kimi qiymətləndirdi. O, Gürcüstana verdiyi dəstəyə görə Azərbaycan hökumətinə təşəkkür etdi.

Öz növbəsində Milli Məclisin sədri Sahibə Qafarova da yenidən Gürcüstan parlamentinin spikeri seçilməsi münasibətilə Şalva Papuaşviliyə təbriklərini çatdırdı və səfər çərçivəsində keçirilən görüşlərin əlaqələrin daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə etdi. O söylədi ki, Azərbaycan və Gürcüstanın dostluq münasibətləri ilk növbədə xalqlarımızın iradəsindən qaynaqlanır və Azərbaycan Prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, ölkələrimiz arasındakı siyasi əlaqələr bütün qonşular üçün nümunə ola bilər. Həmçinin Azərbaycanla Gürcüstanın mehriban münasibətləri və strateji tərəfdaşlığı xalqlarımızın mənafeyinə, eyni zamanda, Cənubi Qafqazın sabitliyinə, inkişafına töhfə verən böyük enerji və nəqliy-



yat layihələrinin həyata keçirilməsinə imkan yaradıb və daha geniş regionda - Avrasiya məkanında mühüm amilə çevrilib.

Söhbət zamanı ölkələrimizin və xalqlarımızın bir-birinə qarşılıqlı dəstəyi, həmrəyliyi, xüsusilə də ərazi bütövlüyü və suverenlik məsələlərinə münasibətdə tərəflərin birmənalı mövqe ortaya qoyduğu vurğulandı.

Görüşdə dost və qonşu ölkələrimiz arasında yüksək səviyyəli münasibətlərin parlamentlər müstəvisində də uğurla davam etdirildiyi qeyd olundu və bu gün qanunvericilik orqanlarımız arasında, həqiqətən, çox səmərəli əməkdaşlığın qurulduğu vurğulandı. Qeyd edildi ki, parlamentlərarası əlaqələr üzrə işçi qrupları və komitələr arasında da intensiv təcrübələr mövcuddur.

Söhbət zamanı regionda vəziyyət, sülh və sabitliyin təmin olunmasının vacibliyi ilə bağlı da fikir mübadiləsi aparıldı. Milli Məclisin sədri Sahibə Qafarova beynəlxalq münasibətlər sistemində mövcud olan ikili standartların, ölkələrə qarşı qərəzli, ədalətsiz yanaşmaların yolverilməz olduğu ilə bağlı fikirlərini səsləndirdi.

Sonra hər iki ölkənin qanunvericilik orqanları arasında əməkdaşlıq haqqında memorandumun imzalanması mərasimi keçirildi. Milli Məclisin sədri Sahibə Qafarova və Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili tərəfindən imzalanan sənədin hər iki ölkənin qanunvericilik orqanları arasında münasibətlərin dərinləşməsinə, əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyi bildirildi. Görüşdən sonra spiker Sahibə Qafarova Xatirə kitabını imzaladı.

Martın 11-də Milli Məclisin sədri Gürcüstana rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Mixeil Kavelaşvili ilə görüşdü. Söhbət zamanı Azərbaycan-Gürcüstan münasibətlərinin inkişafında parlamentlərin xüsusi rolu qeyd olundu, qanunvericilik orqanları arasında əlaqələrin bu münasibətlərin ruhuna uyğun olaraq genişlənməsindən məmnunluq ifadə edildi. Spiker Sahibə Qafarova iki ölkənin parlamentləri arasında imzalanan əməkdaşlıq memorandumunun əhəmiyyətini qeyd edərək bu sənədin əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə etdi.

Söhbət zamanı beynəlxalq və regional formatda uğurlu əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirildi. Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ölkəsinə hər zaman göstərilən dəstəyə görə Azərbaycana öz minnətdarlığını bildirdi. Sonra Cənubi Qafqaz regionundakı ümumi vəziyyət barədə fikir mübadiləsi aparıldı və Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlıq formatının həm ölkələrimizə, həm də regiona qazandırdığı faydalardan söhbət açıldı. Tərəflər regionda sülh və sabitliyin təmin olunmasının əhəmiyyətini vurğuladılar. Görüşdə dost ölkələrimiz arasında strateji tərəfdaşlığın müxtəlif aspektləri





haqqında danışıldı, tarixi əsaslara malik olan münasibətlərin dinamik inkişafından razılıq ifadə olundu.

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Tbilisidə Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə də görüşdü. Baş nazir dost və qonşu ölkələrimiz arasında belə qarşılıqlı səfərlərin mütəmadi hal almasından məmnunluğunu bildirdi. O, son bir il ərzində Azərbaycana üç dəfə səfər etdiyini söylədi və müsbət təəssüratlarını bölüşdü.

İrakli Kobaxidze Milli Məclis sədrinin bu səfərinin də ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin daha da genişlənəcəyinə, töhfə verəcəyinə inamını ifadə etdi.

Görüşdə Gürcüstan-Azərbaycan əlaqələrinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi bildirildi, bu münasibətlərin qarşılıqlı hörmət və etimada əsaslandığı, strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi diqqətə çatdırıldı. Vurğulandı ki, xalqlarımız əsrlər boyu mehriban qonşuluq, qardaşlıq şəraitində yaşayıblar və bu ənənələr bu gün də uğurla davam etdirilir.

Gürcüstanın Baş naziri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurlu inkişafının bir çox ölkələr üçün nümunə olduğunu söylədi. Spiker Sahibə Qafarova qanunvericilik orqanları arasında mövcud olan geniş əməkdaşlıq münasibətləri barədə Baş nazirə ətraflı məlumat verərək bildirdi ki, bu, onun Milli Məclisin sədri kimi dost ölkəyə ikinci rəsmi

səfəridir. Gürcüstan parlamentinin sədri də Azərbaycana iki dəfə səfər edib. Bununla yanaşı, dostluq qruplarının üzvləri tərəfindən də qarşılıqlı səfərlər həyata keçirilir. Spiker parlamentlərimizin üçtərəfli formatda da uğurlu əməkdaşlığından söz açdı.

Söhbət zamanı bir daha parlamentlərimiz arasında imzalanan əməkdaşlıq haqqında memorandumun önəmi vurğulandı və sənəd yeni yol xəritəsi kimi qiymətləndirildi.

Görüşdə regionun gələcək inkişafı üçün daimi sülh və sabitliyin təmin olunmasının vacibliyi, ikili standartların, ölkələrə qarşı təzyiq cəhdlərinin, ədalətsiz və qərəzli yanaşmaların yolverilməzliyi barədə geniş fikir mübadiləsi aparıldı.

Milli Məclis sədrinin dost ölkə olan Gürcüstana rəsmi səfəri uğurla başa çatdı.







# Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Milli Məclisdə oldu

Martın 17-də Milli Məclisin sədri Sahibə Qafarova ilə ölkəmizdə səfərdə olan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirildi. Əvvəlcə tərəflər təkbətək görüşdülər. Daha sonra Valentina Matviyenko Milli Məclisin sədri Sahibə Qafarovaya Rusiya Federasiyasının "Dostluq" ordenini təqdim etdi. Nümayəndə heyətlərinin iştirakı ilə davam etdirilən görüşdə Azərbaycan ilə Rusiya arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu.

Söhbət zamanı spiker Sahibə Qafarova parlamentlərarası əlaqələrin rolunu qeyd edərək ikitərəfli və çoxtərəfli əməkdaşlığın müxtəlif aspektlərinə dair fikirlərini bildirdi, bu kontekstdə parlament üzvlərinin fəaliyyətinin əhəmiyyətinə toxundu. Azərbaycan Respublikasının Milli Məclisi ilə Rusiya Federasiyasının Federal Məclisinin Parlamentlərarası Əməkdaşlıq Komissiyasının rolu vurğulandı.

Öz növbəsində Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ölkəmizə səfəri və paytaxt Bakının sürətli inkişafı haqqında müsbət təəssüratlarını bölüşdü. O, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə keçirilən görüşlərindən, əlaqələrin bütün istiqamətləri üzrə aparılan fikir mübadilələrindən məmnunluqla söhbət açdı.

Federasiya Şurasının sədri görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinin Rusiyada da geniş qeyd olunduğunu bildirdi, bu dahi şəxsiyyətin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərini vurğuladı.

Qonaq həmçinin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq səviyyədə artan rolunu qeyd etdi. Söylədi ki, Azərbaycan beynəlxalq tədbirləri,



mədəniyyətlərarası dialoqu təşviq edən forumları, həmçinin nəhəng iqtisadi layihələri uğurla həyata keçirir. Valentina Matviyenko bütün təzyiqlərə baxmayaraq, böyük iştirakçı sayının təmin olunduğu və mühüm nəticələrin əldə edildiyi COP29-un uğurla reallaşdırıldığını vurğuladı, bu münasibətlə öz təbriklərini çatdırdı. O, həmçinin COP29 çərçivəsində təşkil olunmuş Parlament Toplantısının əhəmiyyətindən danışdı. Görüşdə qarşılıqlı maraq doğuran digər mövzularda da fikir mübadiləsi aparıldı.



Həmin gün Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi Parlamentlərarası Əməkdaşlıq Komissiyasının 22-ci iclası keçirildi. İclasın açılış mərasimində Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova və Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko iştirak etdilər. Hər iki ölkənin parlament rəhbərlərinin salamlama nitqlərində parlamentlərarası əlaqələrin əhəmiyyətindən danışıldı. Spikerlər deputatların əməkdaşlıq komissiyası çərçivəsində fəaliyyəti barədə öz fikirlərini bölüşdülər.

Tədbirdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğluya Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının "Parlamentarizmin inkişafındakı xidmətlərinə görə" fəxri nişanı təqdim edildi.

Sonra komissiyanın həmsədrləri - Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov  və Rusiya Federasiya Şurası sədrinin birinci müavini  Andrey Yatskin gündəlikdəki məsələlər barədə məlumat verdilər. İclas iştirakçıları təqdim edilən məsələlər barədə öz fikir və qeydlərini açıqladılar. Tədbirdə parlamentlərarası komissiyanın Azərbaycan və Rusiya tərəfindən üzvləri, aidiyyəti dövlət qurumlarının nümayəndələri də iştirak etdilər.

Sonra Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matvienkonun başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad etdi, məzarı önünə əklil qoyub, tər çiçəklər düzdü. Görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın da məzarı ziyarət edildi.

Qonaqlar Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzdülər, "Əbədi məşəl" abidəsi önünə əklil qoydular.



Aprelin 16-da Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ilə görüşdü. Spiker Mixeil Kavelaşvilinin Gürcüstan Prezidenti kimi ilk xarici səfərini Azərbaycan Respublikasına etməsini xalqlarımız arasında dostluğun, qardaşlığın növbəti təzahürü kimi dəyərləndirdi, bunun Azərbaycan-Gürcüstan arasında əlaqələrin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.

Parlamentin sədri diqqətə çatdırdı ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin də qeyd etdiyi kimi, ölkələrimiz arasındakı siyasi əlaqələr bütün qonşular üçün nümunə ola bilər. İkitərəfli əməkdaşlıqla yanaşı, Azərbaycan, Gürcüstan və Türkiyə arasında bir sıra sahələri əhatə edən çox uğurlu üçtərəfli əməkdaşlıq formatı mövcuddur.

Milli Məclisin sədri iki ölkə arasında parlamentlərarası əlaqələrin yüksək səviyyədə olduğunu söylədi, bu sahədə dostluq qruplarının rolunu xüsusi vurğuladı. Parlament komitələri arasında əməkdaşlığın vacibliyindən söz açan spiker bəzi beynəlxalq qurumların ölkələrimizə qarşı qərəzli münasibəti fonunda parlamentlərimizin beynəlxalq səviyyədə əlaqələrinin xüsusilə aktual olduğunu dilə gətirdi. Söhbətdə spiker Azərbaycanın sülh gündəliyinə sadiq olduğunu diqqətə çatdıraraq Ermənistanla sülh müqaviləsinin imzalanmasının region üçün böyük perspektivlər açacağına inamını ifadə etdi.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Prezident kimi ilk xarici səfəri çərçivəsində Azərbaycanın dövlət başçısı İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşdü. Qonaq vurğuladı ki, son illər ölkələrimiz bir sıra çağırışlarla üzləşib, kənar qüvvələrin daxili işlərimizə qarışmaq cəhdlərinə baxmayaraq, hər iki xalq öz milli və ailə dəyərlərini, tarixini, ənənələrini cəsarətlə müdafiə etməyi bacarıb.

Prezident Mixeil Kavelaşvili Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin mətni üzrə razılaşmanın əldə olunmasını alqışladıqlarını və tezliklə sülh müqaviləsinin imzalanacağına inandıqlarını diqqətə çatdırdı. O, bu müqavilənin imzalanması ilə regionda sülh və sabitliyin təmin olunacağına inamını ifadə etdi.

Görüşdə iki ölkənin gəncləri arasında əlaqələrin gücləndirilməsinin gələcəyimiz üçün böyük önəm daşıdığı bildirildi.

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Sloveniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Boyan Çebelanın başçılıq etdiyi nümayəndə heyəti ilə də görüşdü. Söhbət zamanı ölkəmizin Sloveniya ilə dostluq, qarşılıqlı hörmət və faydalı əməkdaşlığa əsaslanan ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafına önəm verdiyi diqqətə çatdırıldı, tərəflər arasında müxtəlif sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi. Bu baxımdan yüksək səviyyəli qarşılıqlı səfərlərin, daimi siyasi dialoqun böyük əhəmiyyət kəsb etdiyi qeyd olundu.

Görüşdə ikitərəfli əlaqələrin inkişafında parlamentlərin qarşılıqlı fəaliyyətinin mühüm amillərdən biri olduğu bildirildi və parla-



mentarilərin qarşılıqlı səfərlərinin parlamentlərarası əməkdaşlığın inkişafı baxımından əhəmiyyəti vurğulandı. Spiker Sahibə Qafarova parlamentlərarası əlaqələrin inkişafında dostluq qruplarının oynadığı mühüm rolu qeyd etdi. O, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqla yanaşı, iqtisadi əlaqələrin inkişafı, qarşılıqlı ticarətin genişləndirilməsi, nəqliyyat, yaşıl enerji və digər sahələrdə əməkdaşlıq üçün potensialın olduğunu, təhsil, elm, mədəniyyət sahələrində də əməkdaşlığın xalqlarımızı daha da yaxınlaşdırdığını vurğuladı.

Parlamentlərarası dostluq qrupunun rəhbəri Boyan Çebela Sloveniya parlamentinin sədri Urşka Klakoçar-Zupançiçin salamlarını Sahibə Qafarovaya çatdıraraq ölkəmizə səfəri ilə bağlı xoş təəssüratlarını bölüşdü. Qonaq Azərbaycanın COP29-a yüksək səviyyədə ev sahibliyi etdiyini vurğulayaraq ölkəmizin uğurlu təşkilatçılığı ilə bağlı təbriklərini çatdırdı. Konfrans çərçivəsində keçirilən parlament görüşündə ölkəsinin də təmsil olunduğunu bildirən qonaq söylədi ki, Sloveniya xalqı ölkəsinin faşizmdən azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına həlak olmuş Mehdi Hüseynzadə-Mixaylonun xatirəsini daim ehtiramla yad edir.

Milli Məclisin sədri Sahibə Qafarova aprelin 15-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) Milli müdafiə komitəsinin sədri Hulusi Akar ilə görüşdü. Görüş zamanı Azərbaycan-Türkiyə münasibətlərinin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin “bir millət, iki dövlət” kəlamına uyğun olaraq uğurla inkişaf etdiyi qeyd olundu, qardaş ölkələrimizin bütün məsələlərdə bir-birini dəstəklədiyi vurğulandı. Bildirildi ki, dövlət başçılarımızın davamlı təmasları strateji müttəfiqliyimizin hər gün yeni amillərlə zənginləşdiyini göstərir. 2021-ci ilin iyununda imzalanmış Şuşa Bəyannaməsi ardıcıl şəkildə həyata keçirilir.

Qeyd olundu ki, qardaş ölkələrimiz arasında yüksək səviyyəli münasibətlərin ruhuna uyğun olaraq parlamentlərimiz arasında da əlaqələr uğurla inkişaf edir. Qanunvericilik orqanlarının rəhbərləri səviyyəsində qarşılıqlı səfərlər, beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşlər, deputatların davamlı təmasları bunu bir daha sübut edir.

Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə komitəsinin sədri Hulusi Akar Şuşa və Xankəndiyə səfəri haqqında təəssüratlarını bölüşərək Azərbaycan torpaqlarının 30 ilə yaxın işğal altında qalmasının bölgədə çox ağır fəsadlar yaratmasından təəssüfləndiyini bildirdi. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunmasının regionda yeni reallıqlar yaratdığını söyləyən qonaq Ermənistanın sülh sazişini imzalamaq üçün lazımi iradə göstərməsini, Azərbaycanın və Türkiyənin uzatdığı sülh əlini tutmasını arzuladığını bildirdi. O, eyni zamanda, hazırda işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərindən məmnun qaldıqlarını qeyd etdi.

Hulusi Akar Azərbaycan Prezidenti İlham Əliyevin Şimali Kipr



Türk Cümhuriyyəti ilə bağlı mövqeyini çox yüksək qiymətləndirdiklərini vurğulayaraq bu məsələdə də Azərbaycanın dövlət başçısının qəti iradəsinin şahidi olduqlarını dedi.

Spiker Sahibə Qafarova TBMM-in komitə sədrinin Şuşa və Xankəndiyə səfəri zamanı səsləndirdiyi fikirləri məmnunluqla xatırladaraq bildirdi ki, Şuşa, həqiqətən, təkcə Azərbaycan üçün deyil, bütün türk dünyası üçün bir simvoldur. Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi bütün türk dünyasının qələbəsidir və qardaş ölkələrimizin birliyinin daha da gücləndirilməsində mühüm amildir.

Görüşdə Milli Məclisin sədri Sahibə Qafarova bu gün dünyada baş verən olduqca gərgin proseslər fonunda qardaş ölkələrimizin müxtəlif təzyiqlərlə və ikili standartlarla üzləşdiyini, bu baxımdan Azərbaycan-Türkiyə birliyinin regional sabitlik, təhlükəsizlik üçün olduqca mühüm amil olduğunu qeyd etdi. Spiker bu məsələlərdə müdafiə və təhlükəsizlik sahəsində birgə əməkdaşlığın böyük əhəmiyyətindən söz açdı və bu mənada, TÜRKPA-ya üzv ölkələrin parlamentlərinin müdafiə və təhlükəsizlik üzrə komitə sədrlərinin ikinci iclasının həm qurumun fəaliyyətinin daha da genişləndirilməsinə, həm də ölkələrimizin bu sahədə birgə fəaliyyətinin dərinləşdirilməsinə töhfə verəcəyinə inamını ifadə etdi.

Aprelin 14-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Rumıniya Parlamenti Senatı sədrinin vəzifəsini müvəqqəti icra edən Mirça Abrudeanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdü. Spiker Azərbaycan və Rumıniyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini, dost ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qalxdığını söylədi. O, ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli səfərlərin və görüşlərin əhəmiyyətindən danışdı.

Söhbət zamanı Milli Məclisin sədri Vətən müharibəsindən sonra regionda mövcud vəziyyət, Azərbaycanın BMT qətnamələrinin icrasını öz gücü ilə təmin edərək ərazi bütövlüyünü və müstəqilliyini bərpa etdikdən sonra bəzi Avropa ölkələri tərəfindən qarşılaşdığı təzyiqlərə, məqsədli şəkildə yayılan saxta informasiyalara qarşı apardığı mübarizə barədə qonağa ətraflı məlumat verdi. Spiker bildirdi ki, hazırda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin mətni razılaşdırılıb. Lakin iki məsələ onun imzalanmasına mane olur. Bunlar Ermənistan konstitusiyasının preambulasında Azərbaycana qarşı olan ərazi iddiası və uzun illər problemin həlli ilə məşğul olmuş ATƏT-in Minsk qrupunun fəaliyyətinə ehtiyac qalmadığı üçün onun ləğv edilməsidir. Bu məsələlər də öz həllini tapdıqdan sonra iki ölkə arasında sülh müqaviləsinin imzalanmasına heç bir maneə qalmayacaq.

Rumıniya Parlamenti Senatı sədrinin vəzifəsini müvəqqəti icra edən Mirça Abrudean ölkələrimiz arasında bir çox sahələrdə əməkdaşlığın daha da inkişafı üçün böyük potensial olduğunu bildirdi. Qonaq ölkəsinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, beynəlxalq təşkilatlarda, xüsusilə də AŞPA-da ölkəmizi müdafiə etdiyini və Ermənistanla sülh planını dəstəklədiyini diqqətə çatdırdı.

Azərbaycanla enerji və nəqliyyat sahələrində uğurlu əməkdaşlığın olduğunu bildirən qonaq ölkəmizin ASAN xidmət təcrübəsinin Rumıniyada da tətbiqi üçün Anlaşma Memorandumu imzalandığını və bu təcrübəni öyrəndiklərini söylədi.

Görüşdə dövlətlərimiz arasında olan münasibətlərin qanunvericilik

orqanları arasında əməkdaşlığın daha da inkişafı üçün yaxşı imkanlar yaratdığı, bu sahədə parlament dostluq qruplarının mühüm rolu və parlament komitələri arasında birbaşa əlaqələrin yaradılmasının vacibliyi qeyd edildi.

Aprelin 3-də Milli Məclisin sədri Sahibə Qafarova Venesuela Bolivar Respublikası Milli Assambleyası sədrinin müavini, Venesuela-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri Amerika Valentina Peres Davila ilə görüşdü. Spiker Azərbaycan ilə Venesuela arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün qeyd edildiyini, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələrinin mövcud olduğunu diqqətə çatdırdı. O, əlaqələrimizin daha da dərinləşməsi üçün qarşılıqlı səfərlərin müstəsna rolundan söz açdı.

Milli Məclisin sədri ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlığından məmnunluğunu ifadə etdi. Sahibə Qafarova Qoşulmama Hərəkatına ölkəmizin sədrliyi dövründə Azərbaycan hökuməti tərəfindən irəli sürülən bütün təşəbbüslərin Venesuela tərəfindən dəstəkləndiyini vurğuladı. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan qurumun Parlament Şəbəkəsinin institusional inkişafı, təşkilatın məqsədlərinin həyata keçirilməsi istiqamətində görülən işlər barədə məlumat verdi.

Görüşdə Venesuela Milli Assambleyasının sədri Xorxe Rodrigez Qomezin salamlarını Milli Məclisin sədrinə çatdıran Amerika Valentina Peres Davila ölkəsinin Azərbaycanla münasibətlərə önəm verdiyini qeyd etdi. Qonaq ölkələrimiz arasında əlaqələrin genişlənməsində ali qanunvericilik orqanlarının müsbət rolundan, hər iki ölkənin parlamentində fəaliyyət göstərən dostluq qrupları arasında xoş münasibətlərin mövcudluğundan söhbət açdı. O, Azərbaycanın COP29-a uğurlu ev sahibliyi ilə bağlı təbriklərini çatdırdı.

Görüşdə qlobal iqlim dəyişiklikləri və onun yaratdığı problemlərin inkişaf etməkdə olan ölkələrə böyük təsirləri barədə fikirlər səsləndirildi.

Aprelin 2-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Mərkəzi Komitənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lu Tzançaunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdü. Qonaqları salamlayan parlamentin sədri Sahibə Qafarova ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından, bir çox sahələrdə uğurlu əməkdaşlıqdan məmnunluğunu bildirdi. Spiker Azərbaycanın hər zaman "Vahid Çin" siyasətini və Çinin də ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyini yüksək qiymətləndirdi, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birinin maraqlarını müdafiə etdiklərini vurğuladı. Sahibə Qafarova Azərbaycan və Çin arasında parlamentlərarası əməkdaşlığın əhəmiyyətindən danışdı.

Söhbət zamanı ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dərinləşməsində və inkişafında yüksək səviyyədə həyata keçirilən səfərlərin və dövlət başçıları arasında keçirilən görüşlərin mühüm rolu qeyd edildi. Bildirildi ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan əlaqələrimiz Prezident İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən uğurla davam etdirilir.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığın yaradılmasına dair Birgə Bəyannamənin, qarşılıqlı etimada əsaslanan yüksək səviyyəli siyasi dialoqun əhəmiyyəti, Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında qurulan müntəzəm təmasların ikitərəfli münasibətlərin inkişafında rolu, iqtisadi, ticari, bərpa olunan enerji və digər sahələrdə əməkdaşlığın perspektivləri, Azərbaycanın Çin Xalq Respublikası Sədrinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkə kimi bu istiqamətdə həyata keçirdiyi layihələr barədə fikir mübadiləsi aparıldı. Qeyd edildi ki, eyni zamanda, "Orta Dəhliz"in inkişafı istiqamətində birgə əməkdaşlıq həyata keçirilir və regionda kommunikasiyaların açılması, "Zəngəzur dəhlizi" təşəbbüsünün həyata keçirilməsi Azərbaycanın "Bir kəmər, bir yol" layihəsinə növbəti töhfəsi olacaq.

Söhbət zamanı humanitar, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi, iki ölkə arasında mədəni və humanitar mübadilənin əsas hərəkətverici qüvvəsi olan Heydər Əliyev Fondu və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında əlaqələrin inkişafının ölkələrimizə verdiyi töhfələr vurğulandı.

Görüş üçün təşəkkürünü bildirən Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Mərkəzi Komitənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri  Lu Tzançau Azərbaycana səfər etmək arzusunun həyata keçməsindən məmnunluğunu bildirdi. Qonaq ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlığın inkişafı, diplomatik münasibətlərimizin yaradılmasından ötən müddət ərzində görülmüş işlər, bu sahədə Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri, "Bir kəmər, bir yol" layihəsinin həyata keçirilməsində birgə fəaliyyət, yaşıl iqtisadiyyata keçid  və ikitərəfli münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini bölüşdü.



Martın 12-də Milli Məclisin sədri Sahibə Qafarova Çinin Xarici Siyasət üzrə Xalq İnstitutunun nümayəndə heyətinin rəhbəri, Çin hökumətinin Avropa məsələləri üzrə keçmiş xüsusi nümayəndəsi Vu Honqbo ilə görüşdü. Parlamentin sədri Çinlə əməkdaşlığın ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb etdiyini söyləyərək bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirdi. Onun sözlərinə görə, hazırda Azərbaycan və Çin bir çox sahələrdə uğurla əməkdaşlıq edir. Ölkələrimiz arasında yüksək səviyyədə münasibətlərin qurulmasında dövlət başçılarının, qarşılıqlı etimada əsaslanan yüksək səviyyəli siyasi dialoqun xüsusi rolu qeyd olundu. Söhbət zamanı Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamənin önəmi vurğulandı.

Görüşdə ölkələrimizin qanunvericilik orqanları arasında da münasibətlərə diqqət yönəldilərək iki ölkənin parlamentlərarası səmərəli əməkdaşlığının mövcud olduğu bildirildi. Milli Məclisin sədri parlament təmsilçiləri arasında da təmasların, qarşılıqlı səfərlərin əlaqələrin daha da genişlənməsinə töhfə verdiyini söylədi.

Vu Honqbo XII Bakı Qlobal Forumunda iştirak etməkdən məmnunluğunu bildirərək tədbirin yüksək səviyyədə təşkil olunduğunu söylədi. Hazırda dünyada dəyişən geosiyasi vəziyyət, mövcud çağırışlar fonunda baş verən bir sıra proseslərin ciddi narahatlıq doğurduğunu qeyd edən qonaq çoxtərəfli əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırdı.

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkovanın başçılıq etdiyi nümayəndə heyəti ilə də görüşdü. Spiker Sahibə Qafarova diqqətə çatdırdı ki, bu səfər Azərbaycan və Şimali Makedoniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illik yubileyi ilə üst-üstə düşür. Parlamentin sədri ötən illər ərzində ölkələrimiz arasında dostluq, qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli əlaqələrin qurulmasından məmnunluğunu bildirdi. Sahibə Qafarova ikitərəfli və çoxtərəfli əlaqələrə müsbət və əhəmiyyətli təsir göstərən amillərdən birinin parlamentlər arasındakı qarşılıqlı əlaqələr olduğunu diqqətə çatdırdı. O, qanunvericilik orqanları arasında münasibətlərin daha da genişləndirilməsinin, o cümlədən beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd etdi.

Söhbət zamanı Milli Məclisin sədri qonağa Azərbaycanın öz torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, Ermənistanla sülh prosesinin gedişi, ölkəmizin Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasındakı rolu barədə məlumat verdi.

Öz növbəsində Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova ölkəsinin dost Azərbaycanla əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdırdı. Qonaq səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirdiyi görüş barədə təəssüratlarını bölüşdü. O, yaşıl enerjiyə keçidin perspektivləri, Azərbaycanın bu sahədə gördüyü işlər, COP29 konfransının və XII Qlobal Bakı Forumunun bu sahəyə verəcəyi mühüm töhfələr barədə fikirlərini açıqladı. Qonaq Azərbaycanın zəngin mədəni irsə malik olduğunu söylədi.

Söhbət zamanı vurğulandı ki, humanitar sahədə əməkdaşlıq ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə mühüm töhfə verir. Bu gün iqtisadiyyat, ticarət, enerji, nəqliyyat, kənd təsərrüfatı sahələrində əlaqələri gücləndirmək və əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı perspektivlər mövcuddur.



# Milli Məclisin sədri Roma Papasının dəfn mərasimində iştirak etdi

Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti Roma Papası Fransiskin dəfn mərasimində iştirak etmək üçün Vatikana səfər etdi.

Aprelin 26-da Vatikanda Müqəddəs Pyotr meydanında keçirilən dəfn mərasimində dünya ölkələrinin dövlət və hökumət başçıları, parlament sədrləri, görkəmli ruhani və ictimai xadimləri iştirak edirdilər. Mərasimdə ölkəmizi Milli Məclisin sədri Sahibə Qafarova təmsil edirdi.

Spiker Sahibə Qafarova Müqəddəs Taxt-Tacın Dövlət katibi, kardinal Pietro Parolin və Müqəddəs Taxt-Tacın xarici işlər naziri, arxiyepiskop Paul Qalager ilə görüşərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından başsağlığını çatdırdı.





# Azərbaycan Respublikasının dövlət əsasları onun Konstitusiyası və suverenliyidir



**Fərhad Abdullayev**
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri

2025-ci il Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan 2024-cü il 28 dekabr tarixli Sərəncam ilə ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilib. Bu il, eyni zamanda, Azərbaycan Respublikasının Əsas Qanunu olan ilk Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qazanılan böyük Zəfərimizin 5-ci ildönümüdür.

Adıçəkilən sərəncamın dövlətçilik tariximizin bir daha ətraflı şəkildə öyrənilməsi baxımından olduqca vacib əhəmiyyəti var. Şübhəsiz ki, dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan bu sərəncam ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edərək hüquqi dövlətçilik və suverenlik dəyərlərinin daha da möhkəmləndirilməsi cəhətdən zəruridir. Bununla da, "Konstitusiya və Suverenlik İli"nin elan edilməsi dövlətin hüquqi əsaslarının möhkəmləndirilməsi, dövlət suverenliyinin daha da gücləndirilməsi məqsədi daşıyır.

İstənilən xalq üçün müstəqil, suveren dövlətini yaratmaq və onu inkişaf etdirmək ən böyük nailiyyətdir. Ərazi, əhali və siyasi hakimiyyət kimi əsas atributları özündə ehtiva edən hər hansı siyasi varlığın dövlət kimi mövcudluğunda suverenlik, müstəqillik xüsusiyyətinə malik olması ən mühüm şərtdir.

Dövlətin suverenliyi üçün ilk növbədə hüquqi-siyasi, sosial-iqtisadi təməl olmalıdır. Bu baxımdan qeyd etməliyəm ki, ötən əsrin 60-cı illərinin sonunda Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkənin gələcək müstəqilliyinə etibarlı zəmin formalaşdırmağa başladı. Məhz həmin dövrdə yaradılmış iqtisadi potensial müstəqillik illərində ölkəmiz üçün çox vacib rol oynadı. Dahi şəxsiyyət Heydər Əliyevin həyata keçirdiyi düşünülmüş daxili siyasət sayəsində ölkəmizdə milli özünüdərk, vətənpərvərliyin gücləndirilməsi istiqamətində də olduqca mühüm addımlar atıldı. 1969-cu ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ilə ölkə intibah dövrünə qədəm qoydu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamında bu vacib məqamlarla bağlı qeyd edilir: "Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir".

Məlum olduğu kimi, ölkəmiz ötən əsrin 90-cı illərinin əvvəllərindən beynəlxalq ictimaiyyət tərəfindən tanınan ərazilərinin 20 faizinin işğal edilməsi ilə qarşı-qarşıya qaldı. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti apardı, işğal olunmuş torpaqlarımızda insanlıq əleyhinə hərbi cinayətlər törətdi, təbii resurslarımız, milli-mənəvi abidələrimiz

dağıdıldı, şəhər və kəndlərimiz viran edildi.

Həmin dövrdə ölkə daxilində cərəyan edən mürəkkəb proseslər, vətəndaş qarşıdurması, anarxiya mühitinin dərinləşməsi, ölkənin müstəqilliyi üçün təhdidlərin meydana çıxması bir daha onu sübut etdi ki, respublikanı yaranmış ağır vəziyyətdən yalnız Ulu Öndər Heydər Əliyev kimi güclü, prinsipial və iradəli lider xilas edə bilər. Xalqın təkidli tələbi və istəyi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev dövlətimizin fəlakətlərlə üz-üzə olduğu bir dövrdə tariximizə milli dövlətçiliyin xilaskarı kimi daxil oldu.

Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən müdrik və uzaqgörən siyasət nəticəsində milli dövlətçilik ideyası realizə olundu, müasir müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Dövlət və cəmiyyət həyatının bir çox sahələrini əhatə edən hərtərəfli islahatların həyata keçirilməsinə başlandı.

Ümummilli Lider Heydər Əliyev ölkə daxilində siyasi sabitliyin təmin edilməsi, sosial-iqtisadi quruculuq sahəsində əsas prioritetlərin müəyyən olunması, qanunvericilik bazasının yenidən hazırlanması və digər bir sıra mühüm vəzifələrin öhdəsindən məharətlə gəldi. Ölkənin ictimai-siyasi həyatının bir çox sahələrində müşahidə olunan dərin tənəzzülün qarşısı alındı, dövlətimizin davamlı inkişaf yolu müəyyən edildi.

İstənilən dövlətin mövcudluğu və inkişafı dövlət hakimiyyətinin təşkilinə dair əsas konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir. Belə ki, hər bir hüquqi dövlətin Konstitusiyası bu təməl prinsipləri müəyyən edərək, insan haqlarının müdafiəsi, hakimiyyətlərin bölgüsü kimi bir sıra mühüm hüquqi başlanğıcları nəzərdə tutur.

Məlum olduğu kimi, SSRİ-dən miras qalmış hüquq sistemi və qanunvericilik bazası hüquqi dövlət quruculuğuna, o cümlədən qanunun aliliyinin təmin olunmasına, insan haqlarının səmərəli şəkildə müdafiəsinə kifayət qədər təminat vermirdi. Məhz bu baxımdan Azərbaycanda dövlət müstəqilliyi bərpa edildikdən sonra hüquqi dövlət quruculuğu ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsi və ilk növbədə ölkənin yeni Konstitusiyasının qəbul olunması mütləq idi. 1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə mövcud olan xaos və ziddiyyətli proseslər, siyasi qeyri-sabitlik, eyni zamanda, vahid siyasi iradənin olmaması, dövlət müstəqilliyi üçün təhdidlərin mövcud olması bu mühüm vəzifənin həyata keçirilməsini qeyri-mümkün etmişdi.




Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkənin Əsas Qanununun qəbulu reallaşdı. Azərbaycan parlamentinin 1995-ci il 2 may tarixli 1048 saylı qərarı ilə Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi təsdiq olundu. Dahi şəxsiyyət komissiyanın fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini verdi, Konstitusiyanın hər bir müddəasını şəxsən nəzərdən keçirərək bu ali sənədin ən yetkin formada qəbul olunması üçün gərgin əmək sərf etdi.

1995-ci il iyunun 5-də yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın ilk iclası keçirildi. Həmin iclasda geniş nitq ilə çıxış edən Ulu Öndər Heydər Əliyev dövlətimizin konstitusiya quruculuğu tarixinə geniş şəkildə toxunaraq müstəqil dövlətimizin ilk Konstitusiya layihəsinin hazırlanmasının tarixi nöqteyi-nəzərdən olduqca böyük və mühüm bir hadisə olduğunu vurğuladı: “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Ona görə də mən dedim ki, üzərimizə düşən vəzifə həm şərəflidir, həm də çox məsuliyyətlidir”.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası pream-




bula, 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olmaqla 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi - referendum yolu ilə qəbul edildi, 1995-ci il noyabrın 27-də isə qüvvəyə mindi.

Əsas Qanunun qəbul edilməsi müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olaraq milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi nöqteyi-nəzərindən çox vacib ictimai-siyasi hadisə idi. 12 noyabr - Konstitusiya Günü münasibətilə Azərbaycan xalqına təbrikində Ümummilli Lider Heydər Əliyev deyirdi: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya qanunvericilik sisteminin əsasında durur, eyni zamanda, ölkədə hüquqi və siyasi sabitliyin təminatı qismində çıxış edir. Ölkə Konstitusiyası dövlət quruluşunun əsaslarını, hakimiyyətlərin bölünməsi prinsipini, hakimiyyət orqanlarının təşkili, səlahiyyətləri və fəaliyyət qaydalarını, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin hüquqi çərçivələrini müəyyən edir, insan hüquq və azadlıqlarının müdafiəsi, təminatı ilə bağlı mexanizmləri tənzimləyir.

Əsas Qanunun preambulasında Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi olaraq qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlər bəyan edilmişdir. Bu ülvi niyyətlər ümumilikdə Konstitusiyanın mütərəqqi dəyərlərini əks etdirir.

Əsas Qanun Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqının hakimiyyətini elan edir, sərbəst və müstəqil şəkildə öz müqəddəratını həll etməyi və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Həmçinin Əsas Qanun Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi,

unitar respublika elan edir, dövlət hakimiyyətinin daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşdığını bəyan edir.

Əsas Qanun sosial-iqtisadi, ictimai-siyasi sistemlərin əsasını təşkil edir, insan və vətəndaş hüquq və azadlıqlarına əsaslı təminat yaradır. Konstitusiyada Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olaraq müəyyən olunması, təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarını qorumağın qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi olmasının nəzərdə tutulması vacib əhəmiyyət kəsb edir. Bu, öz vətəndaşına dövlət tərəfindən verilən dəyərin ən bariz göstəricisidir.

Əsas Qanunda insan və vətəndaş hüquq və azadlıqları, onların reallaşdırılmasının ümumi mexanizmləri, bu sahədə etibarlı və davamlı təminat yaradan prinsiplər olduqca geniş şəkildə öz əksini tapır. Hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquq və azadlıqlar, onların həyata keçirilməsi mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulur.

Məlum olduğu kimi, konstitusiyaların hüquqi əlamətlərindən biri onların sabitliyidir. Konstitusiyanın sabitliyi ölkədə qanunçuluğun, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin, şəxs, dövlət və cəmiyyət arasındakı münasibətlərin əsas şərtlərindən biridir. Əsas Qanun uzunmüddətli fəaliyyət üçün nəzərdə tutulan normativ hüquqi aktdır. Bununla belə, Konstitusiyanın qəbulu zamanı onun tənzimetmə predmetini təşkil edən ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişir, cəmiyyət elm və texnologiyaların inkişafı baxımından keyfiyyətcə yeni dövrə qədəm qoyur.

Məhz bu cür zərurətdən irəli gələrək 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumlar nəticəsində ölkə Konstitusiyasına bir sıra mühüm əlavələr və dəyişikliklər edildi. Dövrün çağırışlarını özündə ehtiva edən bu islahatlar hüquqi dövlət dəyərlərinin daha da möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı və səmərəli müdafiəsi məqsədlərinə xidmət edir. Konstitusiyaya edilmiş bu əlavə və dəyişikliklər hüquqi dövlət prinsip və dəyərlərinin bərqərar olmasının, insan hüquq və azadlıqlarının müdafiəsi və təminatına ən yüksək səviyyədə göstərilən diqqətin bariz təzahürüdür.

1995-ci ildə qəbul olunan Azərbaycan Respublikası Konstitusiyasının "Keçid müddəaları"nın 11-ci bəndində Konstitusiya Məhkəməsinin yaradılması nəzərdə tutulurdu. Bu müddəaya əsasən 1998-ci il iyulun 14-də Azərbaycan Respublikasında konstitusiya nəzarətini həyata keçirən orqan kimi Konstitusiya Məhkəməsi rəsmi fəaliyyətə başladı. Konstitusiya mühakiməsi hüququn aliliyinin təmin olunmasının mühüm və səmərəli mexanizmlərindən biri olmaqla, eyni zamanda, hüquqi dövlətin ayrılmaz atributlarından biri kimi qəbul edilir. Bu ali ədalət mühakiməsi orqanının fəaliyyətə başlaması və ümumilikdə konstitusionalizm ideyalarının inkişaf etdirilməsi də bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan Prezidenti İlham Əliyevin Konstitusiya Məhkəməsinin 25 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına, həmçinin Konstitusiya Məhkəməsinin hakimləri və əməkdaşlarına müraciətində qeyd edilir: "Ötən illər ərzində Konstitusiya Məhkəməsi səmərəli fəaliyyəti ilə və qəbul etdiyi qərarlarla Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, insan hüquq və azadlıqlarının müdafiəsinə, milli qanunvericiliyin, dinamik dəyişən ictimai münasibətlərə uyğun olaraq, Konstitusiyanın müddəaları nəzərə alınmaqla təkmilləşdirilməsinə, cəmiyyətdə hüquq mədəniyyətinin və müxtəlif sahələrdə hüququn tətbiqi təcrübəsinin daha da inkişaf etməsinə dəyərli töhfə vermişdir. Əminəm ki, Konstitusiya Məhkəməsi bundan sonra da ölkəmizdə hüquqi dövlət və konstitusionalizm ideya və prinsiplərinin həyata keçirilməsində səylərini əsirgəməyəcəkdir".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Konstitusiya Məhkəməsinin fəaliyyətinə bu cür yüksək qiymət verilməsi və etimadın göstərilməsi olduqca əhəmiyyətli və qürurverici olmaqla yanaşı, həmçinin böyük məsuliyyət deməkdir.

Fəaliyyət göstərdiyi ötən illər ərzində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ümumilikdə 591 qərar və 172 qərardad qəbul edilib. Bu qərar və qərardadlarda formalaşdırılmış hüquqi mövqelər ilk növbədə Konstitusiyanın aliliyinin təmin olunmasına, əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiə edilməsinə xidmət göstərir.

Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən sorğu, müraciət və şikayətlər əsasında qəbul olunan qərar və qərardadlarda, formalaşdırılan hüquqi mövqelərdə ilk öncə Əsas Qanunun müvafiq müddəalarına istinadlar edilir. Konstitusiya Məhkəməsi Plenumunun bir sıra qərarlarında məhz Konstitusiyanın aliliyi və birbaşa hüquqi qüvvəsi əsas götürülərək müvafiq hüquq normalarına hüquqi qiymət verilir.

Konstitusiya Məhkəməsinin əsas məqsədləri Əsas Qanunun aliliyini təmin etmək, vətəndaşların hüquq və azadlıqlarını müdafiə etməkdir. Bu məqsədlərə nail olmaq üçün Konstitusiya Məhkəməsi digər dövlət hakimiyyəti orqanları ilə səmərəli əməkdaşlıq münasibətlərinin qurulmasına və bu münasibətlərin inkişaf etdirilməsinə xüsusi önəm verir. Belə ki, dövlət hakimiyyəti orqanlarının, həmçinin müxtəlif instansiya məhkəmələrinin fəaliyyətini bir-birindən təcrid olunmuş şəkildə təsəvvür etmək qeyri-mümkündür. Fikrimcə, birgə fəaliyyət, əməkdaşlıq effektiv nəticələrin əldə olunmasının vacib faktorlarından biridir.

Xüsusilə vurğulanmalıdır ki, Konstitusiya Məhkəməsi ilə Azərbaycan Respublikasının Milli Məclisi arasında artıq illərdir ki, səmərəli əməkdaşlıq münasibətləri mövcuddur. Bu iki ali dövlət orqanı arasındakı qarşılıqlı fəaliyyət olduqca mühüm əhəmiyyət kəsb edir.

Konstitusiya Məhkəməsinin Əsas Qanunla ehtiva edilən başlıca vəzifələrindən biri müvafiq səlahiyyətli subyektlərin sorğu və müraciətləri əsasında normativ hüquqi aktların Konstitusiyaya uyğunluğunun yoxlanılması, eləcə də qanunvericilik normalarının şərh edilməsidir. Konstitusiya Məhkəməsinin Plenumu bu vəzifələrin icrası ilə əlaqədar qəbul etdiyi bir sıra qərarlarda Konstitusiyada təsbit edilmiş prinsiplərin təmin edilməsinin vacibliyini nəzərə alaraq müvafiq hakimiyyət orqanlarına, o cümlədən Milli Məclisə qanunvericiliyin bu və ya digər normalarının təkmilləşdirilməsi ilə bağlı bir sıra tövsiyələrlə çıxış edib. Mövcud olan bu təcrübə öz müsbət nəticələrini verməkdədir. Belə ki, Konstitusiya Məhkəməsi Plenumunun xeyli sayda qərarında verilmiş tövsiyələrin müəyyən hissəsi artıq Milli Məclis tərəfindən qanunvericilikdə müvafiq əlavə və dəyişikliklər edilməklə öz həllini tapmışdır.

Konstitusiya Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsası olmaqla, digər normativ hüquqi aktlara nisbətən ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir. Konstitusiya Məhkəməsi öz növbəsində Konstitusiyanın öyrənilməsinə, burada əks olunan müddəaların, prinsip və dəyərlərin cəmiyyətdə geniş şəkildə təbliğ edilməsinə daim xüsusi diqqət yetirir. Belə ki, hüquqi maarifləndirilmə sivil dövlətin və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinin mühüm amillərindən biri hesab olunur. Xüsusilə gənclər arasında hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, hüquqi maarifləndirmə işinin həyata keçirilməsi məhkəmənin fəaliyyətində mühüm yerlərdən birini tutur. Bu məqsədlə ənənəvi olaraq hər il ölkəmizin müxtəlif bölgələrində ali təhsil müəssisələrinin tələbələri və orta məktəb şagirdləri arasında hüquq olimpiadaları keçirilir. 2024-cü ildə keçirilən olimpiada Məhkəməmiz üçün xüsusi məna daşıyırdı. Çünki həmin yarışma 2024-cü ilin oktyabr ayında Xankəndi şəhərində yerləşən Qarabağ Universitetinin tələbələri, habelə Xankəndi və Şuşa şəhərləri, Füzuli, Laçın, Zəngilan və Xocalı rayonlarının orta təhsil müəssisələrinin yuxarı sinif şagirdləri arasında "Zəfər çalmış dövlətin Əsas Qanunu" mövzusunda keçirildi. İşğaldan azad edilmiş şəhər və rayonlarda, tamamilə yenidən bərpa olunmuş təhsil müəssisələrində bu cür hüquq olimpiadasının keçirilməsi Konstitusiya Məhkəməsinin bütün kollektivi üçün unudulmaz və əlamətdar oldu.

Əminliklə deyə bilərik ki, dövlətimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin liderliyi ilə öz tarixinin yüksəlişlə müşayiət olunan şərəfli dövrünü yaşayır. Əzəli Azərbaycan torpaqlarının işğaldan azad edilməsi isə müstəqil dövlətçilik tariximizin ən mühüm hadisəsi və xalqımızın qürur mənbəyidir. 2025-ci il aprelin 9-da ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda dövlət başçısı cənab İlham Əliyev qeyd etdi ki, bütün işğal illəri ərzində bizim əsas xarici siyasət prioritetimiz ərazi bütövlüyünün bərpası olub. Bütün səylərimizin yekun hədəfi var idi - suverenliyin və ərazi bütövlüyünün bərpası. Bu, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli ideyası idi.

2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən İkinci Qarabağ müharibəsi müasir tariximizin ən şanlı səhifəsidir. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qeyd etdiyi kimi: "44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib, yumruq kimi birləşərək düşməni doğma torpaqlarımızdan qovdu. Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda, fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq".

Prezident İlham Əliyevin qətiyyəti, tarixi ədalətə və beynəlxalq hüquqa söykənən siyasəti dövlətimizin zəfərlərinin davamlılığını təmin edir. 30 ilə yaxın işğal altında qalan əzəli Azərbaycan torpaqlarını addım-addım geri qaytaran müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Zəfər müjdələri hər bir azərbaycanlını qürurlandırır, xalqımızın yenilməzliyini bir daha bütün dünyaya nümayiş etdirir.



2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyi nəzərə alınaraq dövlət başçısının 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə hər il sentyabrın 20-nin Dövlət Suverenliyi Günü kimi qeyd edilməsi qərara alındı. Sərəncamda deyilir: "Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilmədi. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir".

Torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam təmin olunması nəticəsində Əsas Qanunda ehtiva edilən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də tam reallaşıb. Konstitusiyanın 11-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır, bölünməzdir və özgəninkiləşdirilə bilməz.

Dövlət başçısının uzaqgörən və uğurlu siyasəti nəticəsində Konstitusiyada təsbit edilən bu prinsiplər tam şəkildə təmin olunub.

İlham Əliyevin 2024-cü il dekabrın 28-də verdiyi sərəncama əsasən ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan olundu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı bu sərəncam xüsusi əhəmiyyət kəsb edir. Bu, dövlətimiz üçün yeni inkişaf mərhələsinin başlaması istiqamətində önəmli addım olmaqla Azərbaycanın hərtərəfli və davamlı inkişafında mühüm rol oynayacaq. Sərəncam dövlətimizin gələcək inkişafı və eyni zamanda, dövlətçilik ənənələrinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan üçün "Konstitusiya və Suverenlik İli", sadəcə, keçmişin təhlil edilməsi deyil, həm də qarşıdan gələn parlaq gələcəyin qurulmasına istiqamətlənmiş vacib bir addımdır. Əminəm ki, bu il çərçivəsində həyata keçiriləcək tədbirlər ölkəmizin dayanıqlı inkişafını daha da möhkəmləndirəcək.




# Antalya Diplomatiya Forumu - qlobal dünya üçün mühüm platforma

*2021-ci ildə qardaş Türkiyənin təşəbbüsü ilə yaradılan Antalya Diplomatiya Forumu Türkiyə Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə hər il Antalya şəhərində keçirilir. Diplomatiya, beynəlxalq əlaqələr və qlobal çağırışlar üzrə fikir mübadiləsi üçün önəmli platforma olan forumun əsas məqsədi diplomatik dialoqa töhfə verməκ, qlobal problemlərin həlli ilə bağlı müzakirələr aparmaq, çoxtərəfli əməkdaşlıq formatını təşviq etməkdir.*



**Əhliman Əmiraslanov**
Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik

Qlobal çağırışlarla bağlı təşəbbüslərin tanıdılması sahəsində dünyanın aparıcı platformalarından biri olan Antalya Diplomatiya Forumunun aprelin 4-də keçirilən 4-cü toplantısında 20-dən çox dövlətin başçısı, ümumilikdə 140 ölkənin və 60 nüfuzlu beynəlxalq təşkilatın 500-dən artıq nümayəndəsi iştirak edirdi. Tədbirdə ölkəmiz də ən ali səviyyədə və böyük heyətlə təmsil olunurdu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın xüsusi dəvəti ilə foruma qatıldılar.

Həm Milli Məclisin Səhiyyə komitəsinin sədri, həm də Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi mən, parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputat həmkarlarım Nigar Arpadarai, Əziz Ələkbərli tədbirdə iştirak etdik. Üç gün davam edən forumda müxtəlif coğrafiyaları əhatə edən məsələlər - iqlim dəyişikliyi, terrorizmlə mübarizə, humanitar yardım, rəqəmsallaşma, ərzaq təhlükəsizliyi




və süni intellekt kimi qlobal gündəm mövzularının müzakirə olunduğu 50-dən çox sessiyanın iclası keçirildi. Toplantıda "Geosiyasi bloklaşma və yeni güc mərkəzləri", "Qlobal ədalət və beynəlxalq hüququn bərpası", "İqlim böhranı və humanitar fəlakətlər", "Süni intellektin diplomatiyaya və qərarverməyə təsiri", "Qəzza, Ukrayna, Sudan kimi münaqişə ocaqları", "Diplomatiyada qadınların və gənclərin rolu", "Parlament diplomatiyası" mövzuları əsas müzakirə obyekti oldu.

Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən, praqmatik və ardıcıl siyasət nəticəsində Azərbaycan son illərdə regionda və dünyada mühüm siyasi, iqtisadi, humanitar mərkəzlərdən birinə çevrilib. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi qələbə ölkəmizin suverenliyini və ərazi bütövlüyünü bərpa etməklə yanaşı, Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini daha da gücləndirib, onu etibarlı tərəfdaş, qlobal proseslərə təsir göstərən dövlət kimi tanıdıb. Bu gün Azərbaycan dünya birliyində sabitlik, inkişaf və əməkdaşlıq simvolu kimi çıxış edir. Ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin və beynəlxalq təşkilatların sayı durmadan artır. Xarici siyasətdə balanslaşdırılmış yanaşmaya, qarşılıqlı hörmətə və faydaya əsaslanan münasibətlər Azərbaycanın dünyada nüfuzunun artmasına şərait yaradıb. Dövlət başçısının beynəlxalq və regional tədbirlərdə iştirakı, habelə Azərbaycanın ev sahibliyi etdiyi yüksək səviyyəli zirvə görüşləri ölkəmizə olan marağın və etimadın bariz göstəricisidir.

Azərbaycan və Türkiyə arasında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş "bir millət, iki dövlət" prinsipinə əsaslanan münasibətlər bu gün hər iki ölkənin rəhbərlərinin siyasi iradəsi və şəxsi dostluğu sayəsində ən yüksək zirvəyə çatıb. Bu münasibətlər təkcə iki qardaş ölkə arasında deyil, həm də regionun təhlükəsizliyi və inkişafı baxımından strateji əhəmiyyət daşıyır. Prezident İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı qarşılıqlı etimada əsaslanan əməkdaşlıq bu birliyin davamlılığını və gücünü təmin edən əsas amillərdəndir. Türkiyə-Azərbaycan münasibətlərinin unikal xarakteri və bu əlaqələrin sabitliyi regional inteqrasiya və ortaq inkişaf baxımından nümunəvi model kimi çıxış edir.

Heç şübhəsiz, Prezident İlham Əliyevin Antalya Diplomatiya Forumunda iştirakı təkcə iki ölkə arasında strateji münasibətlərin daha da möhkəmləndirilməsi baxımından deyil, həm də Azərbaycanın beynəlxalq mövqelərinin gücləndirilməsi və sülh təşəbbüslərinin irəlilədilməsi baxımından mühüm hadisə olacaqdır.

Forum çərçivəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan ilə görüşərək Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə olan uğurlu inkişafı və əlaqələrimizin perspektivləri barədə müzakirə aparmışdır. O cümlədən möhtərəm Prezidentimiz Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə, Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə, Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə, Avropa



Şurasının Baş katibi Alen Berse ilə, digər rəsmi dövlət və hökumət nümayəndələri, beynəlxalq təşkilatların təmsilçiləri ilə də görüşlər keçirərək ölkəmizin ikitərəfli və çoxtərəfli əlaqələrinin perspektiv imkanlarını müzakirə etmişdir.

Forum zamanı deputat həmkarlarımla birlikdə Azərbaycan, Ermənistan və Gürcüstanın xarici işlər nazirlərinin təmsil olunduğu "Cənubi Qafqazda regional əməkdaşlıq: Gərginliklər və imkanlar" panelində iştirak etdik. Tədbirdə nazirlər bir araya gələrək Cənubi Qafqazdakı cari prosesləri müzakirə etdilər, regional əməkdaşlıq yolunda mövcud maneələr haqqında danışdılar. Burada Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın erməni tərəfinin standart üslubunda Azərbaycan Konstitusiyasında erməni torpaqlarına iddiaların da olduğunu deməyə çalışdığı məqamı xüsusi qeyd etmək istəyirəm. Lakin o, fikrini, bu iddiaların nədən ibarət olduğunu izah edə bilmədi. Erməni nazirin tam əksinə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bu məsələyə çox gözəl aydınlıq gətirdi.

Acınacaqlı hal ondan ibarətdir ki, çox vaxt Qərb platformalarında heç kim erməni arqumentlərinin doğruluğunu yoxlamır. Bu isə yalan məlumatların ictimai dezinformasiyasını yaradır. Lakin Antalya forumunda Ermənistan tərəfinin bu cəhdləri uğursuz oldu.

Antalya Diplomatiya Forumu çərçivəsində "Parlament diplomatiyası" mövzusunda keçirilən dəyirmi masada ölkəmiz geniş tərkibdə təmsil olundu. Çıxışlarda ənənəvi diplomatiyanı tamamlayan parlament diplomatiyası haqqında mühüm fikir mübadilələri aparıldı. Parlamentlər arasında ikitərəfli və çoxistiqamətli əməkdaşlıq münasibətləri parlament diplomatiyasının inkişafı baxımından mühüm amil kimi dəyərləndirildi. Mən Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri və Qərbi Azərbaycan Ağsaqqallar Şurasının sədri kimi 4-cü Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən "Qlobal idarəçilikdə parlament diplomatiyası" mövzusunda paneldəki çıxışımda bildirdim ki, bu gün qlobal sülh, təhlükəsizlik və əməkdaşlıq üzrə müzakirələr hər zaman olduğundan daha aktualdır. Parlament diplomatiyası bu məqsədlərə çatmaq yolunda böyük potensiala malikdir. Parlamentlər xalqların iradəsini təmsil edərək xarici siyasətin formalaşmasında, dövlətlər arasında dialoqun qurulmasında, beynəlxalq problemlərin həllində mühüm iştirakçıya çevrilir. Bu format həm də bizim regionda haqq-ədalət, insan hüquqları və sülhə xidmət edən mühüm bir məsələni - Qərbi Azərbaycana qayıdış məsələsini təqdim etmək, onun beynəlxalq aləm üçün əhəmiyyətini izah etmək və parlament diplomatiyasının bu məsələnin həllindəki potensialı barədə söz açmaq üçün imkan yaradır.

Ermənistan öz ərazisindən 300 min olmaqla ümumilikdə bir milyondan artıq azərbaycanlını etnik təmizləməyə məruz qoyub. Azərbaycan türkləri öz dədə-baba yurdlarından didərgin salınıb, xalqımızın maddi-mənəvi irsi, qədim tarixi abidələri məhv edilib. Bu vandalizm artıq bəşəri problemdir. Çıxışımda Azərbaycan Prezidenti cənab İlham Əliyevin Qərbi azərbaycanlıların

hüquqlarını müdafiə edən Qərbi Azərbaycan İcmasının yaranmasına, təşkilatın geniş fəaliyyət göstərməsinə böyük dəstək verdiyini, Ermənistandan qovulmuş azərbaycanlıların geri qayıtmasına şərait yaradılmasının beynəlxalq insan hüquqlarının tələbi olmaqla bərabər, bölgədə dayanıqlı inkişaf və sülhə xidmət edən mühüm amal olduğunu bildirdim və dünya ictimaiyyətini, diplomatları, parlamentariləri bu məsələyə dəstək verməyə çağırdım. Həmçinin TÜRKPA-nın beynəlxalq parlament diplomatiyasında rolunun güclənməsinin labüdlüyündən və müxtəlif istiqamətlər üzrə uğurlu layihələrinin əhəmiyyətindən danışdım. Eyni zamanda, vurğuladım ki, Özbəkistan və Türkmənistan dövlətlərinin də TÜRKPA da tamhüquqlu üzv kimi təmsilçiliyinin sürətlənməsi bu uğurları daha da genişləndirər.

Çıxışımda Şimali Kipr Türk Cümhuriyyəti ilə Azərbaycan parlamenti arasında dostluq qruplarının yaradıldığı və bu əməkdaşlığın uğurlu nəticələri barədə məlumat verdim, o cümlədən tezliklə Şimali Kipr Türk Cümhuriyyətinin TÜRKPA-da da tamhüquqlu üzv kimi təmsil olunacağını arzuladığımızı bildirdim. O cümlədən deputat həmkarlarım Səməd Seyidov, Nigar Arpadarai, Əziz Ələkbərli forum çərçivəsində çıxış etdilər, Qərbi Azərbaycana qayıdış konsepsiyasının müddəaları ilə bağlı ətraflı məlumat verdilər.

Forum çərçivəsində Milli Məclisin nümayəndə heyəti ilə birlikdə Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komitəsinin sədri Fuad Oktayla, bir çox millət vəkilləri, o cümlədən qardaş ölkənin keçmiş xarici işlər naziri Mövlud Çavuşoğlu ilə, Türkiyə Böyük Millət Məclisinin Hüquq siyasəti komitəsinin sədri Cüneyd Yüksəllə, Türkiyə Cümhuriyyətinin keçmiş Baş naziri, Türkiyə Ağsaqqallar Şurasının rəhbəri Binəli Yıldırımla görüşlərimizdə qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadilələri apardıq. Binəli Yıldırım bizi Şuranın Şimali Kiprdə keçiriləcək qurultayına dəvət etdi.

Deputat həmkarlarım ilə birlikdə Şimali Kipr Türk Cümhuriyyəti Prezidentinin müşaviri Hüseyn İşıksalla, millət vəkilləri ilə də görüşlərimiz oldu. Onlar Azərbaycan Prezidentinə Şimali Kipr Türk Cümhuriyyətinə verdiyi iqtisadi, ticari və siyasi dəstəyə görə minnətdarlıqlarını bildirdilər. O cümlədən Azərbaycan və Şimali Kipr Türk Cümhuriyyəti parlamentləri arasında dostluq qruplarının yaradılmasının əhəmiyyəti xüsusi olaraq vurğulandı. Forum çərçivəsində bir çox ölkələrin təmsilçiləri ilə də səmərəli görüşlərimiz və söhbətlərimiz oldu.

Hesab edirəm ki, Antalya Diplomatiya Forumu yalnız beynəlxalq tədbir deyil, Azərbaycanın diplomatik strateji xəttinin nümayiş platforması idi. Toplantı gələcək dövr üçün sülhün və təhlükəsizliyin təmini, eləcə də problemlərin danışıqlar yolu ilə həllinin tapılması nöqteyi-nəzərindən mühüm əhəmiyyət daşıyırdı. Bir sözlə, forumda qlobal liderlər, siyasətçilər, alimlər, biznes ekspertləri, eləcə də vətəndaş cəmiyyətinin nümayəndələri ilə müxtəlif mövzular ətrafında müzakirələr apardıq. Tədbirin əsas mövzusu bu dəfə daha geniş spektri əhatə edərək dünyadakı vacib geosiyasi məsələləri gündəmə gətirdi. Bunlar arasında regional təhlükəsizlik, iqtisadi əməkdaşlıq, Afrikanın dünya siyasətində artan rolu, Türk Dövlətləri Təşkilatının unikal modeli, təhsil, iqlim diplomatiyası, yeni dövrdə enerji təhlükəsizliyi, eləcə də Cənubi Qafqaz üçün çağırışlar və əməkdaşlıq imkanları kimi günümüzün aktual mövzuları diqqət mərkəzində oldu.






# Antalya çağdaş dünyanın diplomatik cazibə mərkəzinə çevrildi

Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da qatıldığı Antalya Diplomatiya Forumu  bu gün qlobal çağırışlarla bağlı müzakirələrin aparılması, onların həlli yollarının tapılması kimi məsələlərdə dünyanın aparıcı platformalarından birinə çevrilib. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri **Səməd Seyidov** forumun sonuncu toplantısı ilə əlaqədar suallarımızı cavablandırdı.



**- Səməd müəllim, sizcə, Antalya Diplomatiya Forumu Türkiyənin beynəlxalq siyasətdəki mövqeyini hansı yöndə dəyişdirir?**

- Antalya Diplomatiya Forumu bu gün beynəlxalq münasibətlər səhnəsində Münxen Təhlükəsizlik Konfransından sonra ən mühüm platformalardan biri kimi tanınır. Hətta bəzi məqamlarda forumun birinci sıraya yüksəldiyini də söyləmək mümkündür. Xüsusilə diplomatiya sahəsində, qlobal arenada getdikcə daha önəmli bir mövqe tutmağa başlaması bu platformanın nə qədər ciddi nüfuz qazandığını göstərir. Bu isə Türkiyənin beynəlxalq siyasətdə, geosiyasi dinamikalarda və regional hadisələrin istiqamətinin müəyyən olunmasında artan rolunun bariz göstəricisidir.

Forumun diqqətçəkən cəhətlərindən biri də ondan ibarətdir ki, burada tez-tez qarşı-qarşıya gələn, fərqli mövqelərdə dayanan ölkələrin diplomatları iştirak edirlər. Bu məqam Türkiyənin qütblərdən uzaq, neytral mövqeyini qoruyaraq vasitəçi rolunu oynamaq qabiliyyətini bir daha təsdiqləyir. Müasir dünyanın gərgin və tərəflərə bölünmüş siyasi mənzərəsində vasitəçilik missiyasını daşıya biləcək ölkələrin sayı artıq barmaqla sayılacaq qədər azdır. Bu kontekstdə artıq bu rolu icra etməkdə çətinlik çəkən Fransa nümunəsini göstərmək yerinə düşər. Təəssüflə qeyd olunmalıdır ki, ABŞ-ın əvvəlki rəhbərliyi - Bayden və Blinken tandemi Azərbaycanla münasibətlərin ciddi şəkildə soyumasına, hətta tamamilə pozulmasına gətirib çıxardı. Burada Türkiyənin balanslaşdırılmış və çoxşaxəli siyasət yürütmə bacarığı xüsusi vurğulanmalıdır. Antalya forumunun məhz Ukrayna və Rusiya, Azərbaycan və Ermənistan, eləcə də Yaxın Şərqin bir çox gərgin münasibətlər içində olan ölkələrinin nümayəndələrini bir araya gətirməsi bunun bariz sübutudur. Toplantının əhəmiyyəti hər ötən il daha da artacaq. Bu inkişaf Azərbaycan üçün, xüsusilə də Türkiyə ilə strateji tərəfdaşlıq kontekstində əvəzsiz əhəmiyyət daşıyır.

**- Artıq bu forum, sadəcə, bir diplomatik tədbir yox, eyni zamanda, real təsir gücünə malik bir platformadır. Forumda müzakirə olunan regional və qlobal məsələlər bölgəmizdəki siyasi proseslərə hansı təsiri göstərə bilər?**

- Antalya Diplomatiya Forumu bu il bir daha sübut etdi ki, o, artıq təkcə diplomatik debatlar üçün məkan deyil, eyni zamanda, qlobal düşüncə və strateji baxışların formalaşdığı nüfuzlu beynəlxalq tribunadır. Bu mötəbər tədbirin əhəmiyyətini daha da artıran əsas məqamlardan biri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və ailə üzvlərinin forumda iştirakı oldu. Cənab  Prezidentin forumda bu səviyyədə iştirakı Azərbaycan ilə Türkiyə arasında strateji müttəfiqlik münasibətlərinin təkcə ikitərəfli müstəvidə deyil, beynəlxalq miqyasda da də-




rinləşdiyini və yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirdi.

Forumda iştirak edən dövlət və hökumət başçıları arasında Macarıstanın Baş naziri Viktor Orban və Suriyanın yeni siyasi rəhbərliyinin nümayəndələrinin yer alması isə tədbirin geosiyasi spektrini daha da genişləndirdi. Müxtəlif qütbləri təmsil edən bu fiqurların bir masa arxasında əyləşməsi Antalyanı çağdaş dünyanın diplomatik cazibə mərkəzinə çevirdi.

Forum çərçivəsində olduqca geniş spektrli məsələlər müzakirəyə çıxarıldı. Sevindirici və qürurverici haldır ki, demək olar, hər paneldə Azərbaycanla bağlı məsələlərə xüsusi diqqət ayrıldı. Daha  əlamətdar məqam ondan ibarətdir ki, üç ayrıca panel tamamilə və ya qismən ölkəmizə həsr olunmuşdu. Bu panellərdən biri parlament diplomatiyasını əhatə edirdi.

Azərbaycan nümayəndə heyəti tədbirdə son dərəcə fəal iştirak etdi. Mən və Əhliman Əmiraslanov komitə sədrləri, Nigar Arpadarai komitə sədrinin müavini, deputat Əziz Ələkbərli isə Qərbi Azərbaycan İcmasının rəhbəri kimi ölkəmizin mövqeyini sərrast və əsaslı şəkildə təqdim etdik. Sessiyada parlament diplomatiyasının müasir beynəlxalq münasibətlər sistemindəki rolu, bu sahədə institusional inkişaf və gələcək çağırışlar geniş müzakirə olundu.

Forumun ikinci paneli türk dünyasına həsr olunmuşdu. Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov burada Azərbaycanın türk dövlətləri ilə strateji əməkdaşlıq baxışlarını, bu sahədə Qərblə əlaqələrə təsirini dərin təhlil və aydın diplomatik dillə təqdim etdi. Onun çıxışı yalnız rasional təhlil deyil, eyni zamanda, ortaq kimlik və tarixi bağlılıq ruhu ilə yadda qaldı.

Ən əlamətdar sessiyalardan biri də Azərbaycan, Ermənistan və Gürcüstan xarici işlər nazirlərinin iştirakı ilə keçirilən panel oldu. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov  burada sülh sazişinin imzalanması üçün vacib olan əsas şərtləri, regionda sabitlik və əməkdaşlığın təminində Azərbaycanın və Türkiyənin mühüm rolunu, həmçinin Cənubi Qafqazın gələcək geosiyasi arxitekturasını prinsipiallıq və uzaqgörənliklə izah etdi. Bu çıxış diplomatik çevikliyin və milli maraqlara sadiqliyin bariz nümunəsi kimi yadda qaldı.

Forumun müzakirə dairəsi yalnız regionla məhdudlaşmadı. İsrail-Fələstin münaqişəsi, Yaxın Şərqdəki mürəkkəb proseslər, İran ətrafında formalaşan yeni reallıqlar, ABŞ-ın dəyişən xarici siyasət xətti və Avropa İttifaqının yeni geostrateji yanaşmaları kimi qlobal əhəmiyyətli məsələlər də tədbirin gündəmində geniş yer aldı.

Bütün bu məqamlar bir daha sübut etdi ki, Antalya Diplomatiya Forumu artıq təkcə regional deyil, beynəlxalq siyasətin əsas impulslarının verildiyi bir mərkəzə çevrilib. Bu platformada Azərbaycanın fəal iştirakı isə ölkəmizin artan nüfuzunun, balanslı və prinsipial xarici siyasət xəttinin, regionda və dünyada sülhə, dialoqa verdiyi töhfənin parlaq göstəricisidir.

**- Gənc diplomatlar və siyasətçilər üçün bu cür beynəlxalq platformalar hansı imkan və təcrübələri qazandırır?**

- Əlbəttə, gənclərin belə bir forumda iştirakı çox önəmlidir. Lakin qeyd etmək lazımdır ki, Antalya Diplomatiya Forumu əsasən peşəkar diplomatlar, xarici siyasət üzrə yüksək vəzifəli şəxslər və beynəlxalq əlaqələr sahəsində tanınmış ekspertlər üçün nəzərdə tutulmuş bir platformadır.

Əsas iştirakçılar sırasına nazirlər, beynəlxalq təşkilatların təmsilçiləri və uzun illər diplomatiya sahəsində çalışan nüfuzlu şəxslər daxil idi. Məsələn, forumda iştirak edən tanınmış ekspertlərdən biri də dünya miqyasında məşhur iqtisadçı Cefri Saks idi.

Bununla belə, gənclər də forumun müəyyən hissələrində müzakirələri izləyir, fikir mübadiləsində iştirak edir, gənc diplomatlar üçün nəzərdə tutulmuş xüsusi sessiyalarda təcrübə qazanırdılar. Bu sessiyalar gənclərə bir nümunə kimi beynəlxalq münasibətlər sahəsində uğur qazanmaq üçün hansı istiqamətdə irəliləmək lazım olduğunu göstərir.

# Azərbaycanda qadın hərəkatı çoxillik tarixə söykənir

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri **Hicran Hüseynova** ilə ölkəmizdə qadın hüquqlarının müdafiəsinə dair qanunvericilik bazası, qadınlarımızın cəmiyyətdəki rolu və bu sahədəki mövcud problemlər barədə söhbət etdik.



**- Hicran xanım, ölkəmizdə qadın hüquqlarının müdafiəsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bununla bağlı ən önəmli qanun və normativ sənədlər hansılardır?**

- İlk növbədə onu deyim ki, hər bir cəmiyyətin inkişafında qadının özünəməxsus rolu var. Hazırda dünya ölkələrinin qarşısında dayanan əsas məqsədlərdən biri qadınların daha səmərəli fəaliyyəti üçün imkanların yaradılmasıdır. Bu məsələ respublikamız üçün də əsas prioritetdir. Azərbaycan müsəlman Şərqində qadına seçki hüququ verən ilk ölkədir. 107 il əvvəl belə bir hüquq əldə etməklə biz bir sıra qabaqcıl Avropa ölkələri ilə eyni sırada dayanırıq. Müsəlman dünyasında qızlar üçün ilk dünyəvi məktəb 124 il bundan əvvəl məhz Bakıda yaradılmışdır. Elə o dövrdən Azərbaycan qadını maarifçilik və xeyriyyəçilik ideyalarının carçısı olmaqla bərabər, ictimai, siyasi, sosial proseslərin fəal iştirakçısına çevrildi. Bu gün əminliklə demək olar ki, Azərbaycanda qadın hərəkatının çoxillik tarixi var.

Ölkəmizdə qadın hüquqlarının müdafiəsinin dövlət siyasəti səviyyəsinə yüksəlməsi isə məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin bu sahəyə olan xüsusi diqqəti, imzaladığı fərman və sərəncamlar qadın hüquqlarının təminatı istiqamətində mühüm tarixi addımlara çevrilib. Ulu Öndər hər zaman vurğulayırdı ki, dövlət quruculuğunun bütün mərhələlərində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunmasında, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsində hər zaman var qüvvələri ilə çalışmışlar. Bunun istər sovet hakimiyyəti dövründə, istərsə də müstəqillik illərində şahidi olmuşuq.

Bu gün Azərbaycan ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının müdafiəsi istiqamətində güclü qanunvericilik bazasına malik olan ölkələr sırasındadır. Respublikamızın ali hüquqi sənədi olan Konstitusiyaya əsasən dövlət hər bir insanın irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, hansı siyasi partiyaya, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hüquq və azadlıqların bərabərliyinə təminat verir. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Konstitusiyamızda qadınların kişilərlə bərabərhüquqlu olması təsdiq edilmişdir. Qadın hüquqlarının qorunması üçün bir çox normativ hüquqi aktlar, qanunlar, mühüm sərəncam və fərmanlar imzalanmışdır. Bu isə öz növbəsində ictimai-siyasi həyatımızın bütün sferalarında gender siyasətinin güclənməsinə rəvac verir. Qadın



**Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva "Günəş" körpələr evi-uşaq bağçasının açılışında**

hüquqları həm qanunlarla, həm də bir sıra məcəllələrlə (Ailə, Mülki, Əmək, Cinayət, İnzibati Xətalar və digərləri) təsbit olunmuşdur.

Xalqımız Ümummilli Liderin layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir. Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların daha da genişləndirilməsi daim ölkə başçımızın dövlət siyasətində müəyyən etdiyi prioritet istiqamətlərdəndir. Hüquqi bazanın təkmilləşdirilməsi və bərabər hüquqların təmin edilməsi üçün "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Bu qanunların qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan vermiş, bir çox stereotiplərin qırılmasına səbəb olmuşdur.

Azərbaycan qadınının bugünkü yüksəlişində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın danılmaz rolu vurğulanmalıdır. Vaxtilə millət vəkili olduğu dövrdə Mehriban xanım bir çox mühüm qanunların qəbul olunması üçün təşəbbüslər göstərir, əsaslı çıxışlar edirdi. O, öz geniş spektrli fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırdı. Xüsusilə qeyd etməliyəm ki, Milli Məclisdə Ailə, qadın və uşaq məsələləri komitəsinin yaradılması ideyası da məhz onun təklifi ilə oldu.

Parlamentin spikeri hörmətli Sahibə xanım Qafarova da bu sahəyə xüsusi diqqət göstərir. Onun dəstəyi ilə davamlı olaraq qadınların hüquqlarının müdafiəsi ilə bağlı müxtəlif aspektlərdə ictimai dinləmələr keçirir, yeni layihələr və təkliflər hazırlayırıq.

Yəni ki, proses dayanmır, gender bərabərliyinin təmin olunması istiqamətində qanunvericiliyin daha da gücləndirilməsi sahəsində işlər davam etdirilir. Çünki uğurlarımızla yanaşı, qarşımızda dayanan mühüm vəzifələr də var. Qəbul edilmiş qanunların icrası, onların implementasiyası, hüquqi təcrübələrin artırılması istiqamətində səylərimizi birləşdirməliyik.

**- Məlumdur ki, bu gün məişət zorakılığı, eləcə də qadınlara qarşı ayrı-seçkilik halları ilə bağlı kifayət qədər faktlar aşkarlanır. Bunların qarşısının alınması üçün hansı addımlar atılır?**

- Təəssüf ki, zorakılıq, xüsusən də qadınlara qarşı zorakılıq halları müasir dövrün ən qlobal problemlərindən biri olaraq qalmaqdadır. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, dünyada hər 3 qadından biri nə vaxtsa zorakılığa məruz qalmışdır, hər 3 dəqiqədən bir ən azı bir qadının ölümü qeydə alınır.

Gender əsaslı zorakılığın qarşısının alınmasında bütün ölkələr dövlət səviyyəsində iş aparır, mü-



**Birinci vitse-prezident Mehriban Əliyeva Gəncə Şəhər Birləşmiş Xəstəxanasının Perinatal Mərkəzində**

hüm qərarlar qəbul edirlər. Əfsuslar olsun ki, Azərbaycanda də belə hallar var. Düzdür, digər ölkələrlə müqayisədə bizdə məişət zorakılığı ilə bağlı cinayət hadisələri çox azdır. Əlbəttə ki, qadınların kişilərlə bərabər iştirakçılığı üçün həm evdə, həm də iş yerlərində təhlükəsiz şərait olmalıdır.

Qadınların gender əsaslı zorakılığa və məişət zorakılığına məruz qalmaması üçün müvafiq normativ hüquqi aktlar qəbul edilmiş, Fəaliyyət Planı və qaydalar təsdiqlənmişdir. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununa və digər müvafiq qanunlara edilən son əlavə və dəyişikliklər bir daha göstərir ki, dövlətimiz insan hüquq və azadlıqlarının qorunması istiqamətində mühüm addımlar atır. Nəticədə, zorakılığın bu və ya digər formasından zərər çəkmiş şəxsin hüquqlarının müdafiəsi gücləndirilib; zərər çəkmiş şəxsin tələbi ilə o, dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilib; zərər törədən şəxsin hərəkətlərinə dair sanksiyalar sərtləşdirilib; qısamüddətli və uzunmüddətli mühafizə orderlərinin müddəti artırılıb; məişət zorakılığından zərər çəkmiş şəxslər üçün qurumlararası əlaqələndirmə mexanizmi yaradılıb; zorakılıq hallarının şahidi və qurbanı olmuş uşaqların hüquqlarının müdafiəsi artırılıb.

Bir çox hallarda biz görürük ki, qadınlar öz hüquqlarını bilmir, hər hansı vəziyyətdə hara müraciət edəcəklərini anlamırlar. Baxmayaraq ki, müvafiq dövlət qurumlarının qaynar xətləri var, hüquq mühafizə orqanları var, hər bir millət vəkilinin qəbul günləri var, yenə də biz daha çox çalışmalıyıq ki, insanları maarifləndirək.

**- Sevindirici haldır ki, ölkəmizdə rəhbər vəzifələrdə olan qadınların sayı gündən-günə artır. Deputatlar, nazirlər, nüfuzlu şirkət və komitə rəhbərləri arasında çoxsaylı qadınlarımız var. Zərif cinsin nümayəndələrinin siyasətdəki və dövlət idarəçiliyindəki rolunu necə qiymətləndirirsiniz?**

- Sualınıza mən də sualla cavab vermək istəyirəm. Yeni dövrün Azərbaycan qadınının qarşısına qoyduğu missiya nədən ibarətdir? Necə etməliyik ki, qadın dünyadakı tərəqqi ilə ayaqlaşa, müasir rəqabətə davam gətirə bilsin? Bu gün dövlətimiz qadınlara hər cür diqqət göstərir, qızlarımız sərbəst təhsil alır, ictimai-siyasi proseslərdə fəal iştirak edirlər. Qadınlarımız çox güclüdür, amma bəzən öz güclərinin fərqinə varmırlar. Biz onlara kömək etməliyik ki, öz güclərinə inansınlar. Əgər bir qız "mən qadınam" deyərək öz arzularından, gələcək xəyallarından imtina etməzsə, "mən bacararam" prinsipi ilə hərəkət edərsə, mütləq şəkildə o, həm cəmiyyətdə öz layiqli yerini tutacaq, həm də ailədə uğur qazanacaq. Bu gün respublikamızda elə bir sahə yoxdur ki, orada qadın əməyi olmasın.

Bu yaxınlarda keçirilən bələdiyyə seçkilərində ona şahid

olduq ki, qadınların xüsusi çəkisi 4 faizdən 39 faizə yüksəlmişdir. Bu gün Milli Məclisdə 26 qadın millət vəkili var ki, bu da qadınların təmsilçilik faizinin 4,3 faizdən 20,8 faizə yüksəlməsi deməkdir. Qadınlarımız ölkə rəhbərliyində təmsil olunurlar. Respublikanın Birinci vitse-prezidenti, Milli Məclisin sədri qadındır. Qadın təmsilçiliyi adekvat olaraq icra və biznes strukturlarında, təhsil, səhiyyə, incəsənət, idman sahələrində özünü daha bariz şəkildə göstərir. Onlar elmin, texnikanın, informasiya və texnologiyaların müxtəlif istiqamətlərində akademik səviyyədə çalışırlar. Hazırda Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası, Azərbaycan Kənd Qadınları Assosiasiyası da daxil olmaqla ölkəmizdə 200-dən çox qadın qeyri-hökumət təşkilatı fəaliyyət göstərir.

**- Azərbaycanda erkən nikah və məcburi evlilik halları ilə bağlı fikirlərinizi də bilmək istərdik.**

- Cənab Prezidentin Sərəncamı ilə bu il ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olundu. 30 il əvvəl - 1995-ci il noyabrın 12-də ilk dəfə olaraq müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. 2020-ci ildə isə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 30 ilə yaxın erməni işğalında olan torpaqlarımızı azad etdi, ərazi bütövlüyümüz və suveren hüquqlarımız bərpa olundu. Hər iki tarixi hadisənin hər bir Azərbaycan vətəndaşı üçün böyük əhəmiyyəti var. Əlbəttə, ölkədə hüquqi, siyasi, iqtisadi və sosial vəziyyət dəyişdikcə, ictimai münasibətlər inkişaf etdikcə Konstitusiyanın da müəyyən müddəalarının təkmilləşdirilməsi, ona müvafiq əlavələrin və dəyişikliklərin edilməsi zərurəti meydana çıxır. Məhz bu zərurətdən irəli gələrək Konstitusiyaya 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də, 2016-cı il sentyabrın 26-da referendum nəticəsində bir sıra mühüm əlavə və dəyişikliklər edilib.

Müasir çağırışları və yenilikləri özündə ehtiva edən Konstitusiya islahatları demokratik dəyərlərin bərqərar olması, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, ölkəmizdə gedən demokratikləşmə proseslərinin daha da dərinləşməsi kimi məqsədlərə xidmət edir. 2009-cu ildə ümumxalq səsverməsi yolu ilə Konstitusiyamıza edilən əlavə və dəyişikliklərdə uşaq hüquqlarının müdafiəsi ilə bağlı çox vacib məqamlar öz əksini tapdı. Belə ki, Konstitusiyanın 17-ci maddəsinin adı dəyişdirilərək “Ailə, uşaqlar və dövlət” adlandırıldı. Həmçinin maddəyə aşağıdakı məzmunda hissələr əlavə edildi: Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.

2011-ci ildə Ailə Məcəlləsinə dəyişiklik edilərək qadın və kişilər üçün nikah yaşı 18 yaş müəyyən olundu. Yalnız obyektiv səbəblər zamanı müvafiq icra hakimiyyətinin icazəsi ilə bu rəqəm bir yaş azaldıla bilərdi. Biz gördük ki, çox sayda sui-istifadə halları baş verir və vəziyyət getdikcə ağırlaşır. Bu, erkən nikaha girən gənc qızların fiziki, psixoloji və reproduktiv





Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində ictimai dinləmə

sağlamlığında, sosial həyatında, özünü bir şəxsiyyət kimi ailə və cəmiyyətdə ifadə etməsində çoxsaylı problemlər yaradır, fəsadlar üzə çıxır. 2024-cü ildə Ailə, Cinayət və İnzibati Xətalar məcəllələrində dəyişikliklər olundu. Nikah yaşının azaldılması ilə bağlı istisna ləğv edildi, 16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə, həmin yaşda olan şəxs barəsində evliliyə dair sövdələşməyə daxil olmağa, erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və dini kəbin kəsməyə görə məsuliyyət müəyyən edildi. Cinayət Məcəlləsinin 176-1-ci maddəsinin adı dəyişdirilərək "Nikaha və ya erkən evliliyə daxil olmağa məcbur etmə" kimi müəyyən edilməsi cinayətdən zərər çəkmiş şəxslərin dairəsini genişləndirir. Məcəlləyə təklif olunan digər bir dəyişikliyə görə 16 yaşına çatmayan şəxsin erkən evliliyinin təşkilinə görə valideynlər, yetkinlik yaşına çatmayanları tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya erkən evliliyə daxil olan yetkinlik yaşına çatmış şəxsin özü üçün məsuliyyət müəyyən edilir.

Dəfələrlə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi olaraq mövzu ilə bağlı ictimai dinləmələr keçirmişik, müzakirələr aparmışıq, yeni təkliflər vermişik. Bir çox hallarda yetkinlik yaşına çatmayanlar barəsində keçirilən təntənəli elçilik, nişan mərasimlərinin şahidi oluruq. Faktiki ailənin qurulması halı olmasa da, bu cür sövdələşməli mərasimlər uşaq hüquqlarının məhdudlaşdırılmasına, onların təhsildən yayınmasına, psixologiyasında ciddi fəsadlara səbəb olur. Bu əməllərin qarşısının alınması üçün İnzibati Xətalar Məcəlləsinə ictimai iaşə obyektlərini idarə edən şəxslər tərəfindən erkən evliliklə bağlı mərasimlərin keçirilməsinə və yetkinlik yaşına çatmayan şəxslər barəsində dini kəbin kəsməyə görə inzibati tənbeh nəzərdə tutan yeni maddələr daxil edilmişdir. Bu dəyişikliklər cari ilin iyul ayında qüvvəyə minəcək. Düşünürük ki, bu, həm valideynləri, həm də erkən yaşda qız uşaqları ilə evlənməyə cəhd edən insanları bir qədər dərindən düşünməyə vadar edəcək.

Cəmiyyət də belə məsələlərə qarşı duyarlı olmalı, heç kəs bu kimi faktlara biganə qalmamalıdır. Möhtərəm Prezidentimiz dəfələrlə bu fikri səsləndirir: "İctimai qınaq". Əgər qonşu ailədə bir problem varsa, biz "bu, bizim problemimiz deyil" deməməliyik. Çünki həmin ailədə olan problem bir gün bizim ailəmizə də mənfi təsir göstərə bilər. Bu səbəbdən mütləq şəkildə cəmiyyətdə ictimai qınaq olmalıdır. Biz narahat olmalıyıq, problemi olan ailələrə dəstək verməliyik.

**- Analıq məzuniyyəti və sosial təminat sisteminin qadınlar üçün yetərli olduğunu düşünürsünüzmü?**

- Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən hamiləlik və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 və doğuşdan sonra 56 təqvim günü) müddətində ödənişli məzuniyyət verilir. Əgər doğuş prosesi çətin olarsa, eyni anda iki və daha çox uşaq doğularsa, doğuşdan sonrakı məzu-




**Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclası**

niyyət günlərinin sayı 70-ə qədər artırılır. Kənd təsərrüfatı istehsalında çalışan qadınlara hamiləliyə və doğuşa görə verilən məzuniyyət günlərinin sayı nisbətən daha çoxdur. Bundan əlavə, ölkəmizdə 0-2 aylıq uşağı övladlığa götürən və ya övladlığa götürmədən böyüdən qadınlar doğuşdan sonra müəyyən edilmiş 56 günlük sosial məzuniyyətdən istifadə edə bilərlər. Uşağa bilavasitə qulluq edən valideynlərdən biri, yaxud ailənin başqa bir üzvü uşağın üç yaşı tamam olanadək ona qulluq etmək üçün qanunvericiliklə müəyyən edilmiş məbləğdə müavinət verilən qismən ödənişli sosial məzuniyyət almaq hüququna malikdir. Uşağa qulluq edən işçi yazılı ərizə əsasında qismən ödənişli sosial məzuniyyət hüququndan tam və yaxud hissə-hissə istifadə edə bilər.

Ölkədə əmək münasibətlərinin gender bərabərliyi prinsipləri əsasında qurulması üçün mövcud qanunvericilikdə qadın əməyi qadağan olunan peşə, vəzifə və iş yerlərinin sayı 674-dən 204-ə endirilib. Bu qadağan edilən peşə, vəzifə və iş yerləri bütün qadınlara deyil, yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara tətbiq edilir. Bu, həm də ölkə üzrə qadınların orta aylıq əməkhaqlarının kişilərin orta aylıq əməkhaqlarına daha yüksək templə yaxınlaşmasını təmin edəcəkdir.

Bundan əlavə, qadınların kişilərlə bərabər qaydada gecə növbəsində çalışmasına, rəsmi iş vaxtının bitməsindən sonra da işlərə cəlb olunmasına, istirahət və iş günü hesab edilməyən bayram günlərində çalışmasına, ezamiyyətə göndərilməsinə onların yazılı razılığı əsasında icazə verilir.

Əmək pensiyalarının tətbiqində gender bərabərliyinin təmin olunması həm də vətəndaşlarımızın konstitusion hüquqlarının müdafiəsi deməkdir. 2009-cu ildən etibarən Əmək Məcəlləsinə edilən dəyişikliyə görə ataların övladı dünyaya gəldiyi zaman onların 2 həftə, yəni 14 gün ödənişsiz məzuniyyətə çıxmaq hüququ var. Bu qanun həm dövlət, həm də özəl şirkətlərə şamil olunur.

Təbii ki, qadın üçün ən əsas şərt onun çalışma imkanlarının rahatlığıdır. Bir daha qeyd edirəm ki, dövlət başçımız İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu məsələyə xüsusi qayğı ilə yanaşırlar. Sahibkarların qarşısında şərt qoyulur ki, tikilən yeni sosial obyektlərdə - bağça, məktəb, tibb və ya iaşə-məişət müəssisəsindən asılı olmayaraq, mütləq orada çalışacaq qadınların şəraitinin yaxşılaşdırılması üçün müəyyən planlaşdırmalar aparılsın.

Qadın, hər şeydən əvvəl, anadır, gələcəyimizin təməli olan övladların tərbiyəsinin çox hissəsi onun çiyinlərindədir, o, ailənin əsas dayağıdır. Buna görə də körpələr evinin, uşaq bağçalarının, məktəblər və digər uşaq-tərbiyə müəssisələrinin sayının artırılması vacib amillərdəndir. Çalışmalıyıq ki, özünü ictimai həyata həsr edən qadın bir ana olaraq evi, ailəsi və uşağı üçün narahatlıq keçirməsin. Yalnız belə rahatlıq və arxayınlıq şəraitində çalışan qadın öz potensialının böyük hissəsini cəmiyyətə həsr edə bilər.




# Türk dövlətlərinin təhlükəsizlik və müdafiə üzrə əməkdaşlığında parlament diplomatiyası mühüm rol oynayır

Aprelin 15-də Milli Məclisdə TÜRKPA-ya üzv dövlətlərin parlamentlərinin Müdafiə və təhlükəsizlik üzrə komitə sədrlərinin “Türk dövlətləri arasında təhlükəsizlik və müdafiə üzrə əməkdaşlığın gücləndirilməsi: parlamentlərin rolu” mövzusunda ikinci iclası keçirildi. Tədbirdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin təmsilçiləri, TÜRKPA-nın Baş katibi və digər rəsmi şəxslər iştirak edirdilər.

İclası giriş nitqi ilə açan Azərbaycan Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev iştirakçıları salamlayaraq tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Milli Məclisin spikeri, TÜRKPA-nın fəaliyyətdə olan sədri Sahibə Qafarovaya təşəkkürünü bildirdi. O, ölkə Prezidenti İlham Əliyevin “Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır” ifadəsinin önəmini qeyd edərək qardaş türk ölkələrinin siyasi, iqtisadi, təhlükəsizlik baxımından təşkilatlanmasının vacibliyindən danışdı.

Arzu Nağıyev söylədi ki, türk dövlətləri ilə bütün sahələrdə, o cümlədən parlament səviyyəsində əlaqələrin güclənməsi ölkəmizin prioritet məsələlərindəndir. Bu gün dünyada inkişafın, sülhün və təhlükəsizliyin təmin edilməsində türk dövlətləri birliyi əsas güc strukturlarından biridir.

Komitə sədri TÜRKPA-nın mühüm platforma kimi strateji hədəf-







lərin həyata keçirilməsində önəmli addımlar atdığını, üzv dövlətlərin parlamentləri arasında əməkdaşlığın genişlənməsinə mühüm töhfələr verdiyini söylədi.

Arzu Nağıyev TÜRKPA-ya üzv ölkələrin parlament komitələri arasında mütəmadi görüşlərin keçirilməsinin təqdirəlayiq olduğunu dedi. O bildirdi ki, parlamentlərarası əməkdaşlığın möhkəmləndirilməsi, digər formatlarda iş birliyinin genişləndirilməsi tarixi, mədəni və mənəvi köklərlə bir-birinə bağlı olan xalqlarımızın və ölkələrimizin ortaq maraqlarına xidmət edir. Komitə sədri parlamentlərin milli təhlükəsizlik və müdafiə strategiyalarını dəstəkləyən qanunvericilik bazasının formalaşmasında mühüm addımlar atdığını söylədi.

Arzu Nağıyev Azərbaycanın 44 günlük Vətən müharibəsində öz ərazi bütövlüyünü bərpa etdiyindən, Cənubi Qafqazda yaranan sabitliyin möhkəmləndirilməsi üçün sülh müqaviləsinin imzalanmasının vacibliyindən danışdı. O, Ermənistanın sülh müqaviləsini imzalamaqda maraqlı olmadığını təəssüflə qeyd etdi və gələcəkdə müdafiə sənayesi, müdafiə və təhlükəsizlik sahələrində türk dövlətləri ilə parlamentlər səviyyəsində çoxtərəfli əməkdaşlığın uğurla davam edəcəyinə inamını bildirdi.

Sonra iclasda Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə komissiyasının sədri Hulusi Akar çıxış edərək ötən il TBMM-in ev sahibliyi ilə keçirilmiş müdafiə komitələrinin birinci iclasını xatırlatdı, tədbirin türk dövlətləri arasında birliyin gücləndirilməsi baxımından önəmini qeyd etdi. O, bu gün dünyada baş verən proseslər, artan təhlükələr fonunda müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın, sülhün, əmin-amanlığın təşviqinin böyük əhəmiyyət kəsb etdiyini dedi. TÜRKPA-ya üzv dövlətlərin parlamentlərinin Müdafiə və təhlükəsizlik üzrə komitələrinin toplantılarının keçirilməsinin parlament diplomatiyası vasitəsilə regional əməkdaşlığın güclənməsində mühüm rol oynadığını vurğuladı.

Hulusi Akar təşkilatın üzv dövlətlər arasında sıx əməkdaşlıq əlaqələrinin və inteqrasiyasının daha da gücləndirilməsi, bu ölkələrə aid aktual məsələlərin müzakirəsi üçün













mühüm platforma rolu oynadığını qeyd etdi. TÜRKPA-ya üzv dövlətlərin təşkilatın daha da inkişaf etməsi və nüfuzlu beynəlxalq quruma çevrilməsi üçün səylərini əsirgəmədiklərini vurğuladı. O, parlamentlər səviyyəsində əməkdaşlığın inkişaf etdirilməsi, qurumun fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində gələcəkdə atılacaq birgə addımların vacibliyi barədə fikirlərini səsləndirdi.

Komitə sədri Azərbaycanın Qarabağ uğrunda haqlı mübarizəsində əldə etdiyi Zəfərin bütün türk dünyası və dünya birliyi üçün bir nümunə olduğunu vurğuladı. O, türk dövlətləri arasında əməkdaşlığın inkişafının regionda sabitliyin və qarşılıqlı anlaşmanın güclənməsinə xidmət etdiyini, həmçinin dünya miqyasında türk dünyasının beynəlxalq təsirinin artdığını dilə gətirdi.

Sonra Qazaxıstan Respublikası Parlamenti Senatının Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin üzvü Amangeldi Nuqmanov, Qırğız Respublikası Joqorku Keneşinin Beynəlxalq məsələlər, müdafiə, təhlükəsizlik və miqrasiya komitəsinin sədr müavini Eldar Sulaymanov, Özbəkistan Respublikası Ali Məclisi Senatının Müdafiə və təhlükəsizlik komitəsinin sədri Kutbidin Burxanov, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Hüquq, siyasi məsələlər, xarici işlər və müdafiə komitəsinin sədri Yasemin Öztürk  çıxışlarında bildirdilər ki,  dünyada gedən geosiyasi proseslər fonunda türk dövlətləri birliyinin möhkəmləndirilməsi və regional həmrəyliyin dərinləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. TÜRKPA-ya üzv dövlətlər arasında müdafiə və təhlükəsizlik sahəsində inteqrasiyanın gücləndirilməsi üçün strateji addımların atılması diqqət mərkəzindədir.

Çıxış edənlər söylədilər ki, strateji əməkdaşlıq planları türk dünyasının təhlükəsizlik sahəsində






koordinasiyasını artırmaqla yanaşı, regiondakı sabitliyin möhkəmləndirilməsinə xidmət edir. O da qeyd olundu ki, qlobal təhlükəsizlik məsələlərinin həllində parlament diplomatiyasının rolu olduqca önəmlidir.

Sonra TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er çıxış edərək tədbirin yüksək səviyyədə təşkil olunduğunu, mövcud beynəlxalq təhlükəsizlik mühitində dövlətlərimiz arasında birlik və həmrəyliyin daha da dərinləşməsinin, hər sahədə əlaqələrin inkişafının mühüm rol oynadığını bildirdi. O, türk dövlətləri arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın ortaq təhdidlərə cavab verilməsi və regional sabitlik baxımından mühüm əhəmiyyətə malik olduğunu vurğuladı, bütün istiqamətlərdəki kimi bu sahədə də parlament diplomatiyasının önəmli rolundan danışdı.

Mehmet Süreyya Er ölkələrimizin və ümumilikdə bölgənin təhlükəsizliyinin təmin olunması üçün atılan addımlarda parlament əməkdaşlığının özünəməxsus yerini qeyd etdi və üzv parlamentlərin Müdafiə və təhlükəsizlik üzrə komitə sədrlərinin iclaslarının nəinki TÜRKPA çərçivəsində əməkdaşlığa, o cümlədən dövlətlərimizin və regionumuzun təhlükəsizliyinə mühüm töhfə verəcəyinə inamını bildirdi.

İclasda çıxış edən millət vəkilləri türk dövlətləri arasında təhlükəsizlik və müdafiə üzrə əməkdaşlığın gücləndirilməsi və bu sahədə parlamentlərin rolu ilə bağlı fikirlərini bölüşdülər, qeyd və təkliflər səsləndirildi.



# Ulu Öndərin müstəqil Azərbaycan Konstitusiyasının qəbul edilməsində müstəsna rolu var

Aprelin 24-də Milli Məclisdə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda elmi-praktik konfrans keçirildi. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qonaqları salamlayaraq tədbirin keçirilməsi üçün lazımi şərait yaratdığına görə parlament rəhbərliyinə təşəkkürünü bildirdi. O, Konstitusiyamızın müstəqil dövlətçiliyimizin təşəkkülündə və hüquqi cəmiyyət quruculuğunda rolunu yüksək dəyərləndirdi, dövlətimizin Əsas Qanununun



qəbulunda Ulu Öndərin müstəsna xidmətlərindən söz açdı.

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov öz çıxışında qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan olunub. O, bu qərarın Konstitusiyamızın son 30 il ərzində keçdiyi inkişafdan və Ana Qanunumuzun ictimai münasibətlərin tənzimlənməsində oynadığı mühüm roldan danışdı. Vitse-spiker qeyd etdi ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilsə də, müstəqilliyin ilk illərində baş verən siyasi proseslər və hakimiyyətdə olan şəxslərin yarıtmaz fəaliyyəti nəticəsində ölkənin Əsas Qanunu qəbul oluna bilməmişdi. Yalnız Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra 1995-ci ildə Azərbaycan Konstitusiyasının qəbulu baş tutdu.

Sədr müavini həmçinin 2023-cü ilin sentyabr ayında keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu qeyd etdi. Bildirildi ki, 2002, 2009 və 2016-cı illərdə keçirilmiş referendumlar nəticəsində Konstitusiyaya zəruri dəyişikliklər edilərək əsasən insan hüquq və azadlıqları ilə bağlı yeni normalar əlavə olunub.

Ziyafət Əsgərov Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsindən, ərazi bütövlüyümüzün, dövlət suverenliyi və ölkənin bütün ərazilərində Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasından danışaraq xalqımızın bu qələbənin qürurverici təntənəsini yaşadığını vurğuladı.

Sonra Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Mübariz Qurbanlı "Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun dövlət quruculuğunda yeri" mövzusunda məruzə ilə çıxış etdi. Dünya ölkələrinin konstitusiya təcrübələrinə diqqət çəkən Mübariz Qurbanlı Azərbaycanın Konstitusiya tarixinə nəzər saldı.

Tədbirdə Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev "Azərbaycan Respublikası Konstitusiyasının keçdiyi inkişaf yolu (referendumlar)" mövzusunda məruzəsini təqdim etdi. Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov "Konstitusiya qanunları Azərbaycan Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir" mövzusunda çıxış etdi. Konstitusiya qanunlarının qəbulu qaydalarından bəhs edən Elşad Nəsirov onların konstitusion sistemdə yeri, qoyulan məhdudiyyətlər, konstitusiya nəzarətinə cəlb edilmə və digər məsələlər barədə fikirlərini bölüşdü.

Konfransda mövzu ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, sədr müavini Elşən Musayev, "Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqası"nın İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov çıxış etdilər. Çıxışçılar Konstitusiyamızın həm Konstitusiya qanunları, həm də referendum yolu ilə daha da inkişaf etdiyini bildirərək dövlətimizin Əsas Qanununun suverenliyimizin və ərazi bütövlüyümüzün tam təmin olunmasında oynadığı rolu barədə danışdılar.

Tədbirdə Milli Məclisin deputatları, aidiyyəti dövlət qurumlarının nümayəndələri və vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri iştirak edirdilər.





# Aqrar siyasət komitəsində ictimai dinləmə keçirildi

Aprelin 23-də Milli Məclisin Aqrar siyasət komitəsində "Aqrar sektorda sahibkarlığa dəstək: nəticələr və perspektivlər" mövzusunda ictimai dinləmə keçirildi. Tədbiri giriş nitqi ilə açan Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycanın uğurlarından bəhs edərək ölkə iqtisadiyyatının inkişafından, dövlətimizin aqrar sahəyə, əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasına göstərdiyi diqqət və qayğıdan danışdı. O bildirdi ki, aqrar sahədə həyata keçirilən islahatlar, yeni qanunların qəbulu, fərman və sərəncamların imzalanması, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin yaradılması, yeni subsidiya mexanizminin tətbiqi və aqrar sığortanın genişləndirilməsi kimi tədbirlər öz müsbət nəticələrini verməkdədir. Söylədi ki, vətəndaşlar əldə edilən uğurlara, kənd təsərrüfatı sahəsində görülən işlərə və qarşıda duran vəzifələrə böyük maraq göstərirlər.

Komitə sədri bildirdi ki, Milli Məclisin sədri Sahibə Qafarova ictimaiyyətin marağını, ərzaq təhlükəsizliyinin təmin edilməsinin vacibliyini nəzərə alaraq belə bir dinləmənin təşkilini məqsədəuyğun hesab edib. Tahir Rzayev tədbirin keçirilməsi üçün lazımi şərait yaratdığına görə parlamentin rəhbərliyinə təşəkkürünü bildirdi.

Sonra çıxış edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov kənd təsərrüfatının ölkə iqtisadiyyatındakı rolunu, iqtisadiyyatın diversifikasiyasındakı, davamlı inkişafındakı əhəmiyyətini vurğuladı. Azərbaycanda Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu aqrar islahatları bu gün həmin sahədə əldə edilən nailiyyətlərin əsası kimi dəyərləndirən komitə sədri sonrakı dövrdə də kənd təsərrüfatı və aqrar sahənin inkişafı ilə bağlı həyata keçirilən tədbirlərdən danışdı. O, dövlət başçısının kənd təsərrüfatı məhsullarının istehsalçılarına böyük önəm verdiyini, aqrar sahənin inkişafını daim prioritetdə saxladığını qeyd edərək Azərbaycanda bu sahədə həyata keçirilən tədbirlər, yeni dəstək mexanizmləri barədə fikirlərini səsləndirdi.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova çıxışı zamanı aqrar sektorun inkişafının əsas nailiyyətlərindən, bu istiqamətdə həyata keçirilən strategiyalar və perspektivdə duran əsas vəzifələrdən danışdı. Nazir müavini qeyd etdi ki, ilk növbədə, kənd təsərrüfatı sahəsi üzrə istehsalda artım müşahidə edilir. Bildirdi ki, aqrar sektorun inkişaf strategiyası məhsuldarlığın artımına, intensiv və innovativ təsərrüfatçılığın genişlənməsinə, həmçinin dayanıqlı inkişafı təmin edən mexanizmlərin tətbiqinə əsaslanan tədbirlərlə xarakterizə olunur.

Aqrar sahənin inkişaf prioritetlərindən danışan nazir müavini müasir suvarma sistemlərinin





genişləndirilməsi, torpaqlardan səmərəli istifadə, innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması, aqrar sığorta mexanizminin tətbiqi, aqrar sahənin elektronlaşdırılması, aqroparkların fəaliyyətinin genişləndirilməsi istiqamətlərində əldə edilən uğurlar barədə məlumat verdi.

Sonra Aqrar Sığorta Fondunun İdarə Heyətinin sədri Fuad Sadıqov çıxış edərək iqlim dəyişikliklərinin təsirləri fonunda aqrar sığorta institutunun əhəmiyyəti və ölkədə aqrar sığorta sisteminin fəaliyyətinə dair məlumatları diqqətə çatdırdı.

Bu gün dünyada baş verən təbii fəlakətlərin və digər problemlərin kənd təsərrüfatında, ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində yaratdığı çətinliklərdən söz açan Fuad Sadıqov aqrar sektorda bu kimi risklərin idarə edilməsində və davamlı fəaliyyətin təmin olunmasında sığorta mexanizmlərinin əhəmiyyətindən danışdı.

Tədbirdə çıxış edən Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov Azərbaycanda aqrar sahədə həyata keçirilən islahatların tarixinə nəzər saldı, ölkəmizdə kənd təsərrüfatının inkişafının və əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin qanunvericilik bazasının yaradılmasından və möhkəmləndirilməsindən söz açdı.

Dinləmədə Milli Məclisin deputatları Tənzilə Rüstəmxanlı, Jalə Əliyeva, Elman Nəsirov, Günay Ağamalı, Pərvanə Vəliyeva, Əlibala Məhərrəmzadə, Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin rəisi Rafiq Aslanov, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Kamil Mirişov, Azərbaycan Kənd Qadınları Assosiasiyasının sədri Gülbəniz Qənbərova mövzu ilə bağlı çıxış edərək fikirlərini və təkliflərini səsləndirdilər.

# Azərbaycanda ailə, qadın və uşaq hüquqları konstitusion hüququn əsas prioritetini təşkil edir



Martın 12-də Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ailə, qadın və uşaq hüquqları - konstitusion hüquqların əsas prioriteti kimi" mövzusunda ictimai dinləmə keçirildi.

Tədbiri komitə sədri Hicran Hüseynova açaraq 30 il əvvəl - 1995-ci il noyabrın 12-də ilk dəfə olaraq müstəqil ölkəmizin Əsas Qanunu olan Konstitusiyanın hazırlanaraq referendum yolu ilə qəbul edildiyini bildirdi. O, 5 il əvvəl Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 30 ilə yaxın davam edən erməni işğalına son qoyaraq ərazi bütövlüyümüzü və suveren hüquqlarımızı bərpa etməsini böyük qürur hissi ilə vurğuladı. Hicran Hüseynova dövlət başçımızın müvafiq sərəncamı ilə bu ilin "Konstitusiya və Suverenlik İli" elan edildiyini və komitə tərəfindən bugünkü ictimai dinləmənin bununla əlaqədar keçiriləcək tədbirlər çərçivəsində təşkil edildiyini söylədi.

Komitə sədri Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərindən birinin də Azərbaycan Konstitusiyasının hazırlanması olduğunu, dövlətimizin Əsas Qanununun ölkədə insan hüquq və azadlıqlarının etibarlı təminatçısına çevrildiyini vurğuladı. Konstitusiyada ailənin və nikahın mahiyyəti, ailə üzvlərinin vəzifə və hüquqlarının mühafizəsi, ailənin dövlətin himayəsində olduğu diqqətə çatdırıldı.

Bildirildi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmiz hərtərəfli və sürətli inkişaf edir. Dövlət başçısının uğurlu xarici siyasəti nəticəsində Azərbaycan regionun ən güclü dövlətinə, yüksək beynəlxalq nüfuza malik ölkəyə çevrilib. Hicran Hüseynova Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti ilə tariximizi, mədəni irsimizi beynəlxalq aləmdə yüksək səviyyədə təbliğ etdiyini xüsusi vurğuladı.

Komitə sədri dedi ki, Konstitusiyanın müddəaları əsas tutulmaqla 2000-ci ildə Ailə Məcəlləsi qəbul olunub, ailə üzvlərinin hüquq və vəzifələri müəyyən edilib. Azərbaycan Prezidenti İlham Əliyevin VII çağırış Milli Məclisin ilk iclasında ailə dəyərlərinin qorunması və tərbiyənin əhəmiyyəti ilə bağlı səsləndirdiyi fikirlər ailə siyasətinin dövlətimizin prioritet istiqamətlərindən olduğunu bir daha təsdiqləyir.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxış edərək Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Konstitusiyasında ilk dəfə qadın hüquqlarının, ailə məsələlərinin öz əksini tapdığını, ailənin dövlət tərəfindən müdafiə olunduğunu, nikahda qadın və kişi bərabərliyinin, uşaq hüquqlarının müdafiəsi ilə bağlı müddəaların təsbit edildiyini dedi. O söylədi ki, ictimai-siyasi həyatımızın bütün sferalarında gender siyasətinin

gücləndirilməsi təmin edilir, qadın və uşaqlara qarşı zorakılığın qarşısının alınması üçün mexanizmlər yaradılır.

Əli Hüseynli 1995-ci ildə qəbul olunmuş Konstitusiyamızın daha da inkişaf etdiyini və 2016-cı ildə keçirilmiş referendum nəticəsində Azərbaycanda prezident idarəetmə üsulunun möhkəmləndirildiyini, vitse-prezident institutunun yaradıldığını nəzərə çatdırdı. O, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın Birinci vitse-prezident seçildikdən sonra Azərbaycanda qadınların cəmiyyətdə, dövlət idarəçiliyində rolunun genişləndiyini bildirdi. Bu gün hakim korpusunda qadınların üstünlük təşkil etdiyini, ölkəmizdə gender bərabərliyinin təmin olunduğunu, ümumilikdə Konstitusiyamızda qadın hüquqlarının müfəssəl şəkildə qorunduğunu söylədi. Komitə sədri suverenliyimizin və ərazi bütövlüyümüzün tam təmin olunmasında da Azərbaycan qadınının xüsusi rolunu vurğuladı.

Tədbirdə iştirak edən Konstitusiya Məhkəməsinin sədr müavini Sona Salmanova bildirdi ki, Prezident İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətimizin hüquqi dayaqlarının möhkəmləndirilməsi, qanunun aliliyinin və Konstitusiya dəyərlərinin daha da gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. O, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk Konstitusiyasının müddəalarının üçdə bir hissəsinin məhz insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə həsr olunduğunu dedi, eyni zamanda, Konstitusiya Məhkəməsinin öz qərarları ilə ailə dəyərlərinin qorunmasına, qadın və uşaqların hüquqlarının müdafiəsinə mühüm töhfələr verdiyini söylədi.

Tədbirdə iştirak edən ədliyyə nazirinin müavini Abiddin Hüseynov çıxışında mövzunun vacibliyini qeyd edərək ailədə təlim və tərbiyə prosesinin əhəmiyyətindən söz açdı. O, Konstitusiyada ailənin cəmiyyətin özəyi olaraq müəyyən edildiyini, nikah, uşaqla bağlı hüquqi münasibətlərə geniş yer verildiyini, o cümlədən ailə və uşaqların müdafiəsinin birbaşa dövlətin himayəsində olduğunu söylədi. Ölkəmizdə bu sahədə çoxsaylı qanunların, habelə beynəlxalq müqavilələrlə bağlı sənədlərin qəbul edildiyini, islahatların bu gün də davam etdirildiyini, qanunvericiliyin təkmilləşdirildiyini bildirdi.

Tədbirdə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov çıxış edərək ölkəmizdə ailə, qadın və uşaq məsələləri sahəsində dövlət siyasətinin formalaşmasının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu və Ulu Öndərin rəhbərliyi dövründə ailələrin sosial problemlərinin həlli istiqamətində zəruri tədbirlər göründüyünü dedi.

İctimai dinləmədə ailə institutunun möhkəmlənməsinin, gender bərabərliyinin təmin edilməsinin daim dövlətimizin diqqətində olduğu bildirildi. Ailə dəyərlərinin möhkəmləndirilməsinin, ailənin sosial-iqtisadi rifahının təmin olunmasının, ailədaxili sağlam mənəvi mühitin formalaşmasının, ailə münasibətlərinin yüksək əxlaqi dəyərlərə əsaslanmasının ümumilikdə cəmiyyətin inkişafında mühüm rolundan bəhs edildi. Qeyd olundu ki, bu gün qadın hüquqlarının təmin edilməsinə, onların ictimai-siyasi həyatda fəal iştirakına dövlət səviyyəsində böyük dəstək verilir, məişət zorakılığının aradan qaldırılması istiqamətində önəmli addımlar atılır.

Toplantıda ailələrdə uşaqların milli ruhda böyüməsi, onların cəmiyyətə faydalı bir fərd kimi yetişməsi üçün təlim-tərbiyə işinin düzgün qurulmasının vacibliyindən danışıldı, bu sahədə davamlı islahatların aparıldığı vurğulandı.



# QHT-lər beynəlxalq aləmdə Qərbi Azərbaycana qayıdışla bağlı səylərini artırmalıdırlar

Martın 10-da parlamentdə İctimai birliklər və dini qurumlar komitəsinin təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu" mövzusunda ictimai dinləmə keçirildi. Dinləməni giriş sözü ilə açan Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa belə mühüm mövzuda ictimai dinləmənin keçirilməsinə göstərdiyi dəstəyə görə spiker Sahibə Qafarovaya təşəkkür etdi.

İctimai dinləmənin mövzusunun aktuallığından söz açan komitə sədri bu ilin fevral ayında Milli Məclisin təşkilatçılığı ilə Bakıda keçirilən Asiya Parlament Assambleyasının yekununda qəbul olunan Bakı Bəyannaməsində Qərbi Azərbaycandan olan soydaşlarımızın öz yurdlarına ləyaqətli qayıdışının həyata keçirilməsi ilə bağlı müddəaların öz əksini tapmasının əhəmiyyətindən danışdı. Ermənistandan qovulmuş azərbaycanlıların tarixi torpaqlarına dinc və ləyaqətli qayıdışı konsepsiyasının beynəlxalq platformalarda tanınmasının soydaşlarımızın hüquqlarının bərpası istiqamətində göstərilən səylərə böyük impuls verəcəyi vurğulandı.

Fazil Mustafa bu işin davam etdirilməsi üçün vətəndaş cəmiyyəti institutlarının prosesə daha çox cəlb olunması, o cümlədən parlamentlərarası platformalarda daha fəal olmaq üçün QHT-lərlə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşdü.

Sonra toplantıda Milli Məclisin Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupunun rəhbəri, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərov çıxış edərək bildirdi ki, ötən dövrdə parlamentdə Qərbi Azərbaycana qayıdışla bağlı müxtəlif komitələr tərəfindən beş, Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupu tərəfindən bir ictimai dinləmə keçirilib. O, Qərbi Azərbaycana dinc yolla və ləyaqətli şəkildə qayıdışla bağlı QHT-lərin üzərinə düşən vəzifələr, onların xalq diplomatiyasında iştirakı, təcrübəli QHT-lərin beynəlxalq əməkdaşlığının gücləndirilməsi kimi məsələlər barədə dəyərli fikirlərini səsləndirdi.

Tədbirdə iştirak edən QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva Agentliyin Qərbi Azərbaycan mövzusunda həyata keçirilən fəaliyyəti haqqında slaydlarla müşayiət olunan təqdimatı diqqətə çatdırdı. O, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin Qərbi Azərbaycana qayıdış konsepsiyası üzrə strategiyası, bu istiqamətdə həyata keçirilən qrant layihələri, onların məzmunu, yekunları və nəticələri barədə ətraflı məlumat verdi.

Tədbirdə Milli Məclisin komitə sədrləri Əhliman Əmiraslanov, Musa Quliyev, Zahid Oruc, komitə sədrlərinin müavinləri Sahib Alıyev, Fariz İsmayılzadə, Elşad Musayev, digər millət vəkilləri, Prezident Administrasi-





yasının və parlament Aparatının nümayəndələri, Qərbi Azərbaycan İcmasının üzvləri, aidiyyəti dövlət qurumlarının, QHT-lərin təmsilçiləri çıxış edərək fikir və təkliflərini səsləndirdilər, bu müzakirələrin azərbaycanlıların Ermənistandan deportasiya edilməsi ilə bağlı həqiqətlərin beynəlxalq müstəviyə çıxarılması, soydaşlarımızın öz ata-baba yurdlarına qayıdış hüququnun beynəlxalq miqyasda tanınması, tarixi ədalətin bərpası baxımından əhəmiyyətini vurğuladılar.

İctimai dinləmədə Qərbi Azərbaycandakı yurd-yuvalarından qovulmuş azərbaycanlıların doğma torpaqlarına qayıtmaq hüququnun təmin olunmasında, bu məsələnin beynəlxalq müstəvidə daha geniş şəkildə işıqlandırılmasında QHT-lərin, xalq diplomatiyasının rolu, Qərbi Azərbaycana təhlükəsiz və ləyaqətli qayıdışın digər aspektləri mövzusunda fikir mübadiləsi aparıldı.

Fazil Mustafa müzakirələrin yekununda bugünkü ictimai dinləmədə səmərəli fikir mübadiləsinin keçirildiyini söylədi, öz tarixi torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin edilməsinin aktuallığından, tədbirdə səslənən fikirlərin ictimai əhəmiyyətindən danışdı. O, Qərbi Azərbaycana dinc və ləyaqətli qayıdışın yaxın zamanlarda gerçəkləşdiriləcəyinə inamını ifadə etdi.





# POLAD BÜLBÜLOĞLU - 80

***Hörmətli Polad müəllim!***

*Sizi - Milli Məclisin Mədəniyyət komitəsinin sədrini, incəsənətimizin və diplomatiyamızın tanınmış simasını, dəyərli ictimai-siyasi xadimi, Azərbaycan mədəniyyətinin yorulmaz fədaisini 80 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edirəm.*

*Siz Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Musiqi Məktəbini bitirdikdən sonra Konservatoriyanın Bəstəkarlıq fakültəsində korifey sənətkarımız Qara Qarayevin sinfində təhsil alaraq bu təhsil ocağını müvəffəqiyyətlə bitirmisiniz.*

*Sonrakı illərdə Siz Azərbaycan Dövlət Estrada Ansamblının, "Aşıqlar" Vokal-İnstrumental Ansamblının bədii rəhbəri olmuş, 1987-1988-ci illərdə isə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru vəzifəsində çalışmısınız. 1988-ci ildən 2006-cı ilədək Sizə Azərbaycan SSR-in, daha sonra isə Azərbaycan Respublikasının mədəniyyət naziri kimi mühüm bir vəzifə həvalə olunmuşdur. Siz 1995-1998-ci illərdə həm də I çağırış Milli Məclisin deputatı olmuş, 1994-2008-ci illərdə isə TÜRKSOY Beynəlxalq Mədəniyyət Təşkilatına rəhbərlik etmisiniz.*

*Görkəmli bəstəkar, unudulmaz mahnıların müəllifi, istedadlı müğənni kimi Sizin Azərbaycan musiqisinə və mədəniyyətinə verdiyiniz töhfələr misilsizdir. Yaratdığınız mahnılar artıq onilliklərdir ki, nəsillərin könlündə yaşayır, dillər əzbərinə çevrilib. Sizin musiqiləriniz bütöv bir döv-*

*rün ruhunu, xalqımızın hiss və duyğularını ifadə edən bənzərsiz incilərdir. Gənc yaşlarınızdan etibarən estrada musiqisinə gətirdiyiniz yeniliklər, müasir musiqi elementlərini ənənəvi Azərbaycan melodiyası ilə ustalıqla sintez etməyiniz, eyni zamanda, peşəkar bəstəkar kimi yaratdığınız əsərlər musiqi tariximizdə öz layiqli yerini tutub.*

*Mədəniyyət naziri kimi fəaliyyət göstərdiyiniz dövrdə milli mədəniyyətimizin yeni mərhələyə qədəm qoymasına, sənət adamlarının dəstək qazanmasına, Azərbaycan musiqisinin dünyaya çıxışına töhfələr vermisiniz.*

*Fəaliyyətiniz təkcə mədəniyyət sahəsi ilə məhdudlaşmır. 2006-2024-cü illərdə ölkəmizin Rusiyadakı səfiri olduğunuz dövrdə Azərbaycan-Rusiya əlaqələrinin möhkəmlənməsi istiqamətində böyük işlər görmüş, ölkəmizi ləyaqətlə təmsil etmisiniz. Siz həm də 2009-cu ildən bugünədək MDB-yə üzv dövlətlərin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun İdarə Heyətinin sədrisiniz.*

*Bu gün Siz Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra ilk dəfə müstəqil Azərbaycanın bütün ərazisində keçirilmiş parlament seçkilərində ata yurdunuz olan Şuşa şəhərindən deputat seçilərək doğma şəhərinizin azadlığa qovuşmasının qürurunu yaşayırsınız.*

*Hazırda Siz VII çağırış Milli Məclisin Mədəniyyət komitəsinin sədri kimi mədəniyyət sahəsində qanun yaradıcılığı prosesinə öz töhfənizi verirsiniz. Siz həm də parlamentin MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasındakı nümayəndə heyətinin, həmçinin Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi parlamentlərarası əməkdaşlıq komissiyasının üzvü, Rusiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafında yaxından iştirak edirsiniz.*

*Sizin xidmətləriniz diqqətdən kənarda qalmamış, Azərbaycanın ən yüksək mükafatı olan "Heydər Əliyev" ordeni, o cümlədən "İstiqlal", "Şərəf", "Azərbaycanın qüruru", I və II dərəcəli "Vətənə xidmətə görə" ordenləri, "Azərbaycan SSR əməkdar incəsənət xadimi", "Azərbaycan SSR xalq artisti", Azərbaycanın, həmçinin bir sıra ölkələrin fəxri adları, orden və medalları ilə təltif olunmusunuz.*

*Sizin zəngin həyat yolunuz, dövlətə, xalqa, sənətə olan bağlılığınız böyük ehtirama layiqdir. Çoxşaxəli fəaliyyətiniz gənc nəsillər üçün bir örnəkdir.*

*Hörmətli Polad müəllim!*

*Sizi bir daha yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, möhkəm can sağlığı, firavanlıq və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***
Bakı şəhəri, 04 fevral 2025-ci il



# ELDAR İBRAHİMOV - 80

***Hörmətli Eldar müəllim!***

*Sizi - Milli Məclisin İntizam komissiyasının sədrini, tanınmış ictimai-siyasi xadimi 80 illik yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz hələ gənc yaşlarınızdan Naxçıvan Tikinti İdarəsində əmək fəaliyyətinə başlamış, sonra isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda ali təhsil alaraq, mühəndis-mexanik ixtisasına yiyələnmisiniz. İnstitutu bitirdikdən sonra Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyində, Naxçıvan MSSR Dövlət Texnika Birliyində müxtəlif işlərdə çalışmış, Naxçıvan MSSR Dövlət Texnika Birliyinin sədri, Muxtar Respublikanın Nazirlər Soveti sədrinin birinci müavini, Dövlət Aqrar Sənaye Komitəsinin sədri, Naxçıvan Standart və Metrologiya Mərkəzinin direktoru, Naxçıvan MR Baş nazirinin birinci müavini, Naxçıvan Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin sədri kimi məsul vəzifələrdə işləmisiniz.*

*Qazandığınız böyük etimad sayəsində Siz Naxçıvan Muxtar Respublikası Ali Sovetinin deputatı, Azərbaycan Ali Sovetinin xalq deputatı olmuş, sonra isə birinci, ikinci, üçüncü, dördüncü, beşinci, altıncı və yeddinci çağırış Azərbaycan Respublikası Milli*

*Məclisinə deputat seçilmisiniz. Siz 1992-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu da bitirərək politoloq ixtisasına yiyələnmisiniz.*

*Ölkə ictimaiyyəti Sizi fəal siyasi xadim, Ulu Öndər Heydər Əliyevin sadiq silahdaşı kimi tanıyır. Siz ölkəmizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının yaradılmasına və təşkilatlanmasına dəyərli töhfələr vermisiniz. Bu gün Siz görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə yenidən qayıtmasını dəstəkləyən məşhur "91-lər"dən və YAP-ın qurucularından biri kimi ölkəmizin siyasi həyatında yaxından iştirak edirsiniz.*

*Siz elmi və pedaqoji fəaliyyətlə də ciddi məşğul olmuş, Naxçıvan Dövlət Pedaqoji İnstitutunun müəllimi kimi gənc nəslin təlim-tərbiyəsinə böyük əmək sərf etmisiniz. Sizin elmi məqalələriniz və kitablarınız elmi ictimaiyyət tərəfindən maraqla qarşılanıb, iqtisad elmləri namizədi, elmlər doktoru elmi dərəcələrinə və professor elmi adına layiq görülmüsünüz.*

*Bu gün Siz Milli Məclisin deputatı kimi ölkəmizin qanunvericilik bazasının daha da təkmilləşdirilməsində yaxından iştirak edir, parlamentin İntizam komissiyasının sədri və Aqrar siyasət komitəsinin üzvü kimi təqdirəlayiq fəaliyyət göstərirsiniz. Sizin uzun illər Aqrar siyasət komitəsinə rəhbərlik etdiyiniz dövrdə hazırlanmış qanun layihələri ölkəmizdə aqrar sahədə aparılan islahatlara mühüm dəstək verib.*

*Siz Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafına da öz töhfənizi verirsiniz. Milli Məclisin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisindəki nümayəndə heyətinin üzvü, Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, həmçinin Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Çexiya, Çin, İtaliya, Moldova, Pakistan, Serbiya, Sloveniya, Türkiyə və Türkmənistanla parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü kimi parlament diplomatiyasının inkişafında yaxından iştirak edirsiniz.*

*Sizin xidmətləriniz diqqətdən kənarda qalmamış, "Şöhrət", "Şərəf", Birinci dərəcəli "Vətənə xidmətə görə" ordenləri və Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomu ilə təltif olunmusunuz.*

*Hörmətli Eldar müəllim!*

*Sizi yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, yaşınızın bu müdriklik zirvəsində Sizə uzun ömür, möhkəm cansağlığı və işlərinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.*

***Hörmətlə,***

**SAHİBƏ QAFAROVA**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***
Bakı şəhəri, 12 mart 2025-ci il



# ARZUXAN ƏLİ-ZADƏ - 60

***Hörmətli Arzuxan müəllim!***

*Sizi - Milli Məclisin deputatını, tanınmış ictimai-siyasi xadimi anadan olmağınızın 60 illik yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Siz 1965-ci ildə Bakı şəhərində dünyaya göz açmış, orta məktəbi qızıl medalla bitirəndən sonra 1981-1990-cı illərdə Bakı şəhəri Sabunçu rayonu Razin (indiki Bakıxanov) qəsəbə sovetində, rayon polis idarəsinin mühafizə alayında, "Azərneftmaş" İstehsalat Birliyində müxtəlif vəzifələrdə çalışmısınız.*

*Bakı Dövlət Universitetinin Hüquq fakültəsində hüquqşünas ixtisasına yiyələndikdən sonra özəl müəssisələrdə hüquq şöbələrinə rəhbərlik etmisiniz. 1993-cü ildə Bakı şəhəri Sabunçu Rayon İcra Hakimiyyətində hüquqşünas, həmçinin şöbə müdiri vəzifələrini yerinə yetirmiş, sonra isə bir müddət təsisçisi olduğunuz İstehsalat Kommersiya Müəssisəsinə rəhbərlik etməklə biznes fəaliyyəti ilə məşğul olmusunuz.*

*1994-2000-ci illərdə Siz müxtəlif müəssisə və təşkilatlarda vəkil və hüquq məsləhətçisi kimi fəaliyyət göstərmiş, sonrakı illərdə Azərbaycan Beynəlxalq Universitetinin Dövlət hüququ kafedrasının baş müəllimi, eyni zamanda, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun dissertantı kimi elmi və pedaqoji fəaliyyətlə məşğul olmusunuz. İnsan hüquq və azadlıqlarına həsr edilmiş bir çox elmi məqalə və broşürlərin müəllifisiniz.*

*Siz 2004, 2009 və 2014-cü il bələdiyyə seçkilərində Bakıxanov Qəsəbə Bələdiyyəsinin üzvü seçilmiş, bələdiyyənin Hüquq məsələləri daimi komissiyasının sədri kimi yerli özünüidarəetmə işində də fəal iştirak etmisiniz.*

*Siz həm də tanınmış siyasətçi kimi ölkənin ictimai-siyasi həyatına öz töhfələrinizi vermisiniz. Xalqımızın azadlıq mübarizəsinin fəal iştirakçısı, 1989-1991-ci illərdə Azərbaycan Xalq Cəbhəsinin üzvü, bir müddət Sabunçu rayonu üzrə dayaq dəstəsinin sədri olmusunuz. Sonra Azərbaycan Milli İstiqlal Partiyasına (AMİP) üzv olmuş, partiyanın Mərkəzi Aparatında sektor müdiri, şöbə müdiri kimi vəzifələr tutmusunuz. AMİP Mərkəzi Şurasının, sonra Siyasi Şurasının üzvü, 2005-ci və 2010-cu illərdə AMİP-in Baş katibi seçilmisiniz. Siz 2015-ci ildən AMİP-in sədr əvəzi olmuş, 2020-ci ildə isə bu partiyanın sədri seçilmisiniz.*

*Hazırda Siz VII çağırış Milli Məclisin İnsan hüquqları komitəsi sədrinin müavini, Regional məsələlər komitəsinin üzvü kimi qanun yaradıcılığı prosesinə öz töhfənizi verirsiniz. Siz həm də Azərbaycan-Kamerun parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, habelə parlamentin Bosniya və Herseqovina, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, İspaniya, İsveç, Meksika, Moldova, Özbəkistan və Serbiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü kimi Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafında yaxından iştirak edirsiniz.*

*Hörmətli Arzuxan müəllim!*

*Sizi ömrünüzün bu müdriklik çağında yubileyiniz münasibəti ilə bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

**SAHİBƏ QAFAROVA**

***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

Bakı şəhəri, 18 mart 2025-ci il

# Hesablama Palatası daim şəffaflıq və ictimai hesabatlılıq prinsipini ön planda tutur

Azərbaycan Respublikası Hesablama Palatasının sədri cənab **Vüqar Gülməmmədovun** qurumun 2024-cü ildəki fəaliyyəti ilə bağlı jurnalımıza müsahibəsini təqdim edirik.



**- Vüqar müəllim, son illərdə audit orqanlarının fəaliyyətində şəffaflıq və hesabatlılıq məsələləri xüsusilə diqqət mərkəzindədir. Bu baxımdan Palatanın 2024-cü il üzrə fəaliyyətini əks etdirən hesabatı əvvəlki ildəkilərlə müqayisədə hansı yenilikləri və ya çatışmazlıqları göstərdi?**

- İlk olaraq onu qeyd etmək istərdim ki, 2024-cü ildə də cənab Prezidentin tapşırıqlarının və qanunvericiliklə Hesablama Palatası qarşısında müəyyən edilmiş vəzifələrin icrasına ciddi yanaşmışıq. Hesabata müvafiq dövr ərzində həyata keçirilmiş fəaliyyətlərə dair əsas məqamları daxil etmişik.

Hər il olduğu kimi bu il də Hesablama Palatasının illik hesabatında şəffaflıq və hesabatlılıq prinsiplərinə xüsusi önəm vermiş, eyni zamanda, bir sıra yeniliklərə yer ayırmışıq. İllik hesabatı həm struktur, həm də oxunaqlılıq və vizuallıq baxımından daha da təkmilləşdirməyə çalışmışıq. Bəzi ölkələrin hesabatvermə təcrübəsindən faydalanıb hesabata əlavələr etmişik. Əvvəlki illərlə müqayisədə bu fərqlər aydın şəkildə nəzərə çarpır.

Fərqli məqamlar kimi hesabatın "Fəaliyyətimizdə ilklər", "Fəaliyyətimiz xronikada" və "Fəaliyyətimiz rəqəmlərdə" bölümlərini qeyd edə bilərəm.

Eyni zamanda, hesabat ilini fərqləndirən məsələlərdən biri kimi cənab Prezident tərəfindən elan olunmuş "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində 2 ekoloji auditin keçirilməsini, "İqlim skaneri" qlobal təşəbbüsü çərçivəsində ölkədə müvafiq qiymətləndirmənin aparılmasını da qeyd edə bilərəm.

Bundan əlavə, əvvəlki illərdən fərqli olaraq auditin əhatəsini növlər üzrə deyil, icmal büdcənin komponentləri baxımından əks etdirmişik. Bu, dövlət maliyyəsinin hansı hissəsinin ali audit orqanı tərəfindən nəzarət fəaliyyəti ilə əhatə olunduğuna dair suala cavab tapmağa imkan verir.

Çatışmazlıqlara gəldikdə isə bu, hesabatdan daha çox fəaliyyətlə bağlı məsələdən irəli gəlir. İlk növbədə, dövlət büdcəsi vəsaiti üzrə əhatənin beynəlxalq təcrübədə müəyyən edilmiş həddən (büdcə vəsaitinin 2/3-si qədər) aşağı olmasını qeyd edə bilərəm. Buna həm ştat sayı, həm də texnoloji həllərdən zəruri həcmdə istifadə edə bilməməyimiz təsir göstərir. Sonuncu məsələnin həlli üçün addımlar atırıq. Lakin hesab edirik ki, dövlət sektorunun qurumları

üçün vahid maliyyə və mühasibat uçotu sisteminin yaradılması, həmin sistemə ali audit orqanının inteqrasiyası vacibdir. Bu, gələcəkdə auditin əhatə dairəsinə də müsbət təsir göstərər.

**- Maliyyə nəzarətində aşkarlanan pozuntuların konkret faktlarla təqdim olunması ictimai marağın qorunması baxımından əhəmiyyətlidir. Hesabatda hansı nöqsan və qanun pozuntuları qeyd olunub?**

- Şübhəsiz ki, maliyyə nəzarətində aşkarlanan pozuntuların konkret faktlarla təqdim edilməsi ictimai marağın qorunması və dövlət maliyyəsinin şəffaf idarə olunmasına nəzarətin gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İl ərzində ayrı-ayrı auditlərin nəticələrini həm saytımızdakı müvafiq bölmə (Dövlət auditinin nəticələri), həm də “Dövlət auditi” jurnalı vasitəsilə açıqlayırıq.

2024-cü ilin iş planı üzrə dərc edilmiş audit nəticələri portfelin 70 faizinə bərabərdir və əvvəlki illərlə müqayisədə bu göstəricidə artım izlənilir. Kommunikasiya strategiyamızın hədəfinin icrası istiqamətində nail olunmuş bu göstərici ilə hesab edirik ki, ayrı-ayrı auditlər üzrə kifayət qədər detallı məlumatla tanış olmaq mümkündür.

İllik hesabatda isə auditlərin nəticələri üzrə icmal-statistik məlumatları təqdim edirik. Bu, dövlət maliyyəsinin idarəedilməsinə nəzarətin əsas nəticələrinə dair makro səviyyədə məlumatlanmağa imkan verir.

2024-cü il ərzində dövlət auditi ilə aşkarlanan nöqsanları hesabatda 3 istiqamətdə qruplaşdırmışıq.

Uyğunluq elementi baxımından müəyyən edilən nöqsanlar daha çox hüquqi aktların pozulması ilə əlaqəlidir. Bu nöqsanlara əsasən büdcə qanunvericiliyinin, dövlət satınalmaları ilə bağlı prosedurların və əsaslı xərclərin icrası zamanı tələblərin pozulması daxildir. Bu istiqamətdə aşkarlanmış pozuntu məbləği 657,0 milyon manat olmuşdur ki, bunun da 126,0 milyon manatını büdcəyə zərər təşkil edir.

Digər mühüm istiqamət maliyyə hesabatlılığında təhriflərdir. Təxminən 2,0 milyard manat məbləğində maliyyə təhrifləri müəyyən edilmişdir. Bəzi hallarda bu rəqəmlər mətbuatda ictimai müzakirələrdə ekspertlər tərəfindən yeyinti və mənimsəmə kimi qələmə verilir. Lakin vurğulamaq istərdim ki, bu, hesabatlılıqla, mühasibat uçotu və müxabirləşmənin standartlara uyğun aparılmaması ilə bağlıdır.

Üçüncü istiqamət isə səmərəliliklə bağlıdır. 2024-cü il üzrə 157,7 milyon manat məbləğində vəsaitin səmərəsiz istifadə olunduğu müəyyən edilmişdir. Bura alınmış aktivlərin istifadəsiz saxlanılmasını, satınalmalarda qənaət edilməməni, funksional fəaliyyətə aid olmayan məsələlərə xərc aparılmasını aid etmişik. Eyni zamanda, müəyyən vəsaitlərin lazımi nəticə vermədən xərclənməsi hallarını səmərəsiz xərc kimi təsnifləşdiririk.

Fəaliyyətimizin təsirinə gəldikdə isə onu deyə bilərəm ki, bərpa və digər tədbirlərin görülməsi üzrə təxminən 100,0 milyon manatın icrası təmin edilmiş, son günlər təqdim olunan rəqəmlər də nəzərə alınmaqla 2023-2024-cü illərin auditlərinin nəticələri üzrə maliy-






yə hesabatlılığında 700,0 milyon manatdan çox təhrifin hesabatlılıqda düzəldildiyi müəyyən edilmiş, bundan əlavə, büdcə sənədləşməsində 250,0 milyon manatdan çox uyğunsuzluq aradan qaldırılmışdır.

**- Dövlət vəsaitlərinin səmərəsiz xərclənməsi halları və onların şəffaf idarə olunması böyük ictimai əhəmiyyət kəsb edir. Hədəf alınan təşkilatlarda büdcə vəsaitlərindən istifadə nə dərəcədə məqsədəuyğun sayılıb?**

- 2024-cü ildə 6 səmərəlilik auditi aparmışıq və hər biri üzrə nəticələri dərc etmişik. Daha əvvəl də qeyd etdiyim kimi, hesabatda bütün auditlər üzrə müəyyən olunmuş səmərəsiz xərclərin rəqəmini açıqlamışıq. Auditlərin nəticələrini ümumiləşdirərək bir sıra məqamlara diqqət artırılmasının vacibliyini bildiririk. Bunlardan bəzilərini vurğulamaq istərdim:

- müəyyən hüquqi tənzimləmənin qüvvədə olması şəraitində fəaliyyətin qiymətləndirilməsi metodologiyası (xərc-gəlir, xərc-nəticəlilik və s.) praktiki olaraq tətbiq edilməli;
- məqsədlərə nail olunma səviyyəsinin qiymətləndirilməsi üçün qurumlar tərəfindən müvafiq sahələrdə plan və strateji sənədlərlə yanaşı, bu sənədlər üzrə tədbirlər planı və monitorinq sistemi də hazırlanmalı;
- ölkədə səmərəlilik auditinin əsas hədəfi olan performans büdcənin alternativi - nəticəəsaslı büdcəyə keçid sürətləndirilməlidir.

Sualınızın ikinci hissəsi ilə bağlı bildirmək istəyirəm ki, Hesablama Palatası 3 ildir ki, auditlərin nəticələrinə əsasən maliyyə-təsərrüfat fəaliyyətində əhəmiyyətli və nisbətən irəliləyiş izlənilən, habelə irəliləyiş izlənilməyən qurumların siyahısını hesabata daxil edir. Təkrar auditlər zamanı bəzi qurumların maliyyə-təsərrüfat fəaliyyətində müəyyən yaxşılaşmaların müşahidə olunması da fəaliyyətimizin təsir gücünü göstərən mühüm amillərdəndir. Təhlillər iki və daha çox sayda auditi keçirilmiş qurumların 83,3 faizində maliyyə intizamının nisbətən gücləndiyini göstərmişdir.

**- Modern idarəçilik şəraitində audit qurumlarının açıq fəaliyyət göstərməsi və ictimaiyyətlə daha sıx əlaqədə olması vacib məsələlərdəndir. Hesablama Palatasının şəffaflıq və ictimai hesabatlılıq baxımından tətbiq etdiyi yeni üsullar varmı?**

- Hesablama Palatası şəffaflıq və ictimai hesabatlılıq prinsipini ön planda tutaraq müasir idarəetmə şəraitində bir sıra yeniliklər tətbiq edir. Kommunikasiya strategiyamız çərçivəsində ictimaiyyətlə əlaqə, media ilə əməkdaşlıq və məlumatların yayımı sahəsində ardıcıl və peşəkar bir yanaşma mövcuddur.

Palata rəsmi internet saytı və sosial media platformaları vasitəsilə audit və qeyri-audit fəaliyyəti, illik və yarımillik hesabatlar, jurnal, rəylər, xülasələr, açıqlamalar və analitik icmallar da daxil olmaqla məlumatları ictimaiyyətə təqdim edir. Daha əvvəldə bildirdiyim kimi, audit nəticələrinin açıqlaması faizində əhəmiyyətli artım var. Həm bu nəticələr, həm də rəylər, hesabatlar və xülasələr Palatanın rəsmi internet səhifəsində tam həcmdə yerləşdirilir. Bu yanaşma vətəndaşlara Palatanın fəaliyyətindən məlumatlı olmağa və maliyyə idarəçiliyi üzərində daha güclü ictimai nəzarəti təmin etməyə imkan yaradır.








Hesablama Palatasının rəsmi internet səhifəsinin kontentinin artırılması üçün ardıcıl tədbirlər davam etdirilir. Nəzarətlə yanaşı, fəaliyyətimizin təşkili üzrə məsələlərdə də ictimaiyyət üçün açıq və əlçatan olmağa çalışırıq. Belə ki, Hesablama Palatasının büdcəsinin icrasını, satınalmaları, beynəlxalq tədbirlərin xərc smetalarını, maliyyə hesabatlarımızı və onların audit rəylərini dərc edirik. Hətta daha oxunaqlı olması üçün bəziləri üzrə izah və açıqlamaları da əlavə edirik. Məqsəd ali audit orqanı kimi nümunəvi təşkilat olmaq yolunda fəaliyyəti davam etdirmək, eyni zamanda, digər dövlət qurumları üçün bu təcrübəni paylaşmaq və onlara bu yolda dəstək olmaqdır.

2024-cü ildə də rəsmi internet səhifəmiz hesabatlılığa və şəffaflığa xidmət etməyə davam etmiş, kənar dövlət maliyyə nəzarəti tədbirləri üzrə kollegiya qərarlarının izlənilməsi və müvafiq nəticələrin mütəmadi olaraq ictimaiyyətə açıqlanması məqsədilə qurumun rəsmi internet səhifəsində "Qərarların (Təkliflərin) izlənilməsi" bölməsi yaradılmışdır.

Bundan əlavə, 2023-cü ildə istifadəyə verilmiş "Audit təklif et" bölməsi üzrə daxil olmuş təkliflərə aparılmış risk qiymətləndirməsindən sonra təkliflərdən birinin 2025-ci ilin iş planına daxil olunmasına dair qərar qəbul etmişik.

**- Palatanın verdiyi tövsiyələrin yerinə yetirilməsi ilə bağlı nəzarət mexanizmləri mövcuddurmu? Yoxdursa, hansı boşluqlar var?**

- Hesablama Palatası yalnız pozuntuları aşkarlamaqla kifayətlənmir, eyni zamanda, bu pozuntuların aradan qaldırılmasına, dövlət orqanlarında şəffaflığın və idarəetmənin təkmilləşdirilməsinə yönəlmiş təklif və tövsiyələr təqdim edir.

Yaxşı məqamlardan biri kimi bir sıra sahələrdə fəaliyyətimizin təsirinin artdığını, xüsusilə təkliflərimizin icrası istiqamətində müsbət dinamikanın müşahidə olunduğunu qeyd edə bilərik. Bu, bizim üçün olduqca önəmlidir. Məsələn, 2024-cü ildə aparılan nəzarət tədbirlərinin nəticələri üzrə qərarların icra səviyyəsi 70 faiz olmuşdur. Bu, kifayət qədər yüksək rəqəmdir. Lakin biz yerdə qalan hissəni nəzarətdən kənarda saxlamırıq. İzlənilmə davam etdirilir və nəticələri növbəti illərin hesabatına daxil edirik. Eyni zamanda, qərarlarımızın icrası təmin edildikcə həmin tədbirlər üzrə icra statusunda yenilənmə aparılır və bu, rəsmi saytda da əks olunur.

Hesab edirik ki, qanunvericilikdə qərarlarımızın icrasının təmin olunması üçün kifayət qədər yaxşı mexanizmlər müəyyən edilib. Hətta qərarların əsassız olaraq icra edilməməsi məsuliyyət də yaradır. Eyni zamanda, Hesablama Palatasının kollegiya qərarlarının icrasının izlənilməsi təsdiqlənmiş metodiki sənədə uyğun olaraq, həmçinin Audit Fəaliyyətinin İdarəedilməsi Sistemi (AFİS) vasitəsilə də təmin olunur. Bu mexanizmlər qərarlar üzrə bütün tədbirləri nəzarətdə saxlamağa imkan verir.






**- Palatanın rəqəmsallaşma istiqamətində gördüyü işlər barədə nə deyə bilərsiniz? Audit proseslərinin avtomatlaşdırılması və texnologiyadan istifadə hansı səviyyədədir?**

- Hesablama Palatasının strateji planının aralıq nəticələrindən biri də rəqəmsal transformasiyaya keçidlə bağlıdır. Strateji plana uyğun olaraq müvafiq aralıq nəticəyə nail olunması üçün müxtəlif fəaliyyətlər nəzərdə tutulur və bu istiqamətdə addımlarımızı genişləndiririk.

Əsas funksional fəaliyyətdə və inzibatçılıq ilə bağlı proseslərdə rəqəmsallaşdırma səviyyəsinin artırılması məqsədilə ardıcıl tədbirlərin görülməsini davam etdiririk. Məsələn, audit fəaliyyətinin idarəedilməsinə imkan verən proqram təminatı AFİS bütün nəzarət tədbirləri portfeli üzrə məlumatların yığılmasına və emalına imkan verir.

Bundan əlavə, daxili resurslarımız hesabına hazırlanmış RİDES sistemli idarəetmə (insan resursları, təlimlər və s.) ilə bağlı müxtəlif aspektləri rəqəmsallaşdırmaq mümkündür. Eyni zamanda, müvafiq modula daxil edilmiş dövlət büdcəsinin icrasına dair hesabat formalarının sayı artırılmış, dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən Hesablama Palatasına təqdim olunan bəzi hesabatların dövlət büdcəsinin icrasına dair müvafiq hesabatlar ilə müqayisəliliyi təmin edilmişdir.

2025-ci ildən başlayaraq bu sahədə böyük layihəni yerinə yetirmək niyyətindəyik. Bu, məsafədən audit və böyük verilənlərin təhlili ilə bağlıdır. Biz bu istiqamətdə artıq işlərə başlamışıq. İstəyirik ki, müasir texnoloji həll vasitəsilə auditimizin əhatə dairəsini artıraq, eyni zamanda, emal prosedurlarının bir qismini rəqəmsallaşdıraq.

**- Beynəlxalq əməkdaşlıq kontekstində Hesablama Palatası hansı təşkilatlarla işləyir? Bu əməkdaşlıqlar Palatanın fəaliyyətinin keyfiyyətinə necə təsir edir?**

- Ümumiyyətlə, qeyd edim ki, 2024-cü ildə də Hesablama Palatası digər fəaliyyət istiqamətləri kimi beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xüsusi önəm verib. Palata həm INTOSAI (Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatı), həm də onun regional qurumlarının fəaliyyətində aktiv iştirak edib, bu çərçivədə tədbirlərə qatılıb. Belə ki, il ərzində ali audit orqanlarının beynəlxalq təşkilatlarının işçi qruplarının toplantılarında iştirak təmin edilib, ətraf mühitin auditi, eləcə də dövlət borcu üzrə işçi qrupların illik toplantılarına ev sahibliyi etmişik.

Bundan əlavə, 2024-cü ildə Çin, Qazaxıstan və Tacikistan AAO-ları ilə qurumlar arasında əlaqələrin daha da gücləndirilməsi və təcrübə mübadiləsinin artırılması məqsədilə memorandumlar, Türkiyə Hesablama Məhkəməsi ilə paralel auditlərin keçirilməsinə dair sənəd imzalanıb və audit İğdır-Naxçıvan qaz kəmərinin tikintisi layihəsini əhatə edib.

Hesabat ilində Azərbaycanın ev sahibliyi etdiyi nüfuzlu beynəlxalq tədbirə ali audit orqanı olaraq




biz də qoşulmuş, "Hökumətlərin iqlim sahəsində fəaliyyətləri hansı mərhələdədir? - İqlim Skaneri qiymətləndirməsinin nəticələri" adlı tədbirdə beynəlxalq həmkarlarımızla müzakirələr aparmışıq. İlk dəfə olaraq Ali Audit Orqanlarının Asiya Təşkilatının (ASOSAI) İdarə Heyətinə üzv seçilmişik. Həmçinin Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının Peşəkar Bəyanatlar Forumuna Hesablama Palatasının auditorunun üzvlüyü təsdiq edilib.

Hesabat ilində qoşulduğumuz digər bir beynəlxalq layihə barədə də məlumat vermək istəyirəm. Həmin layihənin nəticəsi kimi Hesablama Palatasında ən son standartlara cavab verən yeni keyfiyyətin idarə edilməsi modelinin tətbiqinə başlamışıq. Bu, auditlərin keyfiyyətinin daha da artmasına təkan verəcək.

**- Gələn il üçün Hesablama Palatasının qarşısında hansı əsas çağırışlar dayanır?**

- 2025-ci il Hesablama Palatasının əsas strateji sənədinin sonuncu ilidir. Bu baxımdan strateji sənəddə müəyyən etdiyimiz məqsədlər üzrə hədəflərə nail olunması üçün fəaliyyətimizi bir qədər gücləndirməyə çalışacağıq. Cari ilin sonunadək görmək istədiyimiz bəzi tədbirləri sadalamaq istərdim.




- Hesablama Palatasının strateji planı və digər strateji sənədlərin növbəti ortamüddətli dövr üçün təsdiqi;
- Fəaliyyətimizdə həmkar qiymətləndirməsinin təşkili;
- Ekoloji auditlərin davam etdirilməsi;
- Beynəlxalq həmkarlarla (Türkiyə və Qazaxıstan AAO) paralel auditlərin aparılması;
- İşğaldan azad edilmiş ərazilərdə tikinti layihələrinin pre və post auditi təcrübəsinin, tematik auditlərin genişləndirilməsi;
- Nəqliyyat sahəsi üzrə auditlərin keçirilməsi;
- Audit Orqanlarının Asiya Təşkilatının İdarə Heyətinin üzvü kimi kifayət qədər mötəbər sayılan tədbirə - bu qurumun illik toplantısına, həmçinin tədbir çərçivəsində ARABOSAI və ASOSAI-ın birgə iclasına ev sahibliyinin təşkili;
- məsafədən audit və böyük verilənlərin təhlili üzrə proqram təminatının yaradılmasını hədəfləyirik.




# Milli Məclisdə İnsan hüquqları üzrə müvəkkilin 2024-cü il üzrə illik məruzəsi qəbul edildi

Milli Məclisin martın 7-də keçirilən növbəti iclasında qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi dinlənildi. Məruzəni təqdim edən ombudsman Səbinə Əliyeva ötən ilin ölkəmiz üçün bir sıra mühüm ictimai-siyasi hadisələr və qlobal əhəmiyyətli tədbirlərlə yadda qaldığını söylədi. O, diqqətə çatdırdı ki, 2024-cü ildə ombudsmanın ünvanına 29371 müraciət daxil olub. İnsanların üzləşdikləri problem və çətinliklərin həlli məqsədilə ombudsman tərəfindən aidiyyəti dövlət qurumlarına, idarə, müəssisə və təşkilatlara müraciətlər edilib, bir çox hallarda nöqsan və çətinliklərin aradan qaldırılması, pozulmuş hüquqların bərpası üzrə zəruri tədbirlər görülüb, təklif və tövsiyələr verilib.

Səbinə Əliyeva sahibkarlıq subyektlərində işçilərin əmək hüquqlarının pozulması faktları üzrə araşdırmaların aparılmasında ciddi çətinliklər yarandığını qeyd etdi və onların aradan qaldırılması üçün zəruri tədbirlərin həyata keçirilməsinin vacibliyindən söz açdı.

İşəgötürənlər tərəfindən işaxtaran şəxslərin əmək müqaviləsi bağlanılmadan işə cəlb edilməsi probleminə də diqqət artırılmasına, özünüməşğulluq proqramına əlçatanlığın asanlaşdırılması məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac yarandığı bildirildi. İnsan sağlamlığının qorunması hüququnun səmərəli təmin edilməsi istiqamətində əhəmiyyətli islahatların aparılmasına baxmayaraq, hələ də bu sahədə müəyyən çətinliklərin olduğu, icbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlər zərfinin genişləndirilməsinin, ölkəyə idxal edilən dərman vasitələrinin key-



fiyyətinə nəzarətin gücləndirilməsinin, onkoloji xəstəliklərin müalicəsində istifadə olunan dərman preparatlarının spektrinin genişləndirilməsinin vacibliyi qeyd edildi. Səhiyyə müəssisələri tərəfindən əlilliyin qiymətləndirilməsi məqsədilə müvafiq göndərişlərin düzgün rəsmiləşdirilməsi və süründürməçilik hallarının aradan qaldırılması üçün tibb işçilərinin peşəkarlığının artırılmasına, sənədləşmə prosesinin sadələşdirilməsinə zərurət olduğu bildirildi.

Ombudsman təhsil sahəsində davamlı monitorinqlərin aparılmasının təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına kömək etməklə yanaşı, tədrisin dövlət standartları əsasında təşkil olunmasına da əhəmiyyətli təsir göstərdiyini söylədi. O, təhsil müəssisələrində psixoloqlara ayrılan ştat vahidinin şagird sayına uyğunlaşdırılmasının, psixoloqların müəllim və valideynlərlə əməkdaşlığının gücləndirilməsinin, onların bilik və bacarıqlarının artırılmasının məqsədəmüvafiq olduğunu dedi.

Qeyd olundu ki, həssas əhali qrupuna aid edilən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, onların cəmiyyətin tamhüquqlu üzvləri kimi inteqrasiyasının təmin olunması insan hüquqlarına hörmətin və sosial ədalət prinsiplərinə bağlılığın vacib göstəricilərindən biridir. Bildirildi ki, sənəddə ölkəmizdə mənzil hüququnun təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər sırasında əhali üçün maddi cəhətdən əlverişli olan yaşayış binalarının tikintisinə dəstək verilməsinin əhəmiyyətindən söhbət açılır. Güzəştli ipoteka kreditinin şərtlərinin yüngülləşdirilməsi, mənzil fondunun dövlət uçotu qaydasının təsdiq edilməsi prosesinin və çoxmənzilli binaların idarə olunması qaydasının müəyyən edilməsinin sürətləndirilməsi məqsədəmüvafiq hesab olunur. Bir sıra şəxslərin yaşayış yeri və olduğu yer üzrə qeydiyyatı ilə əlaqədar üzləşdikləri problemlərin aradan qaldırılması məqsədilə özbaşına tikililərin və yeni tikililərdə olan mənzillərin dövlət qeydiyyatına alınması prosesinin sürətləndirilməsinin zəruri olduğu diqqətə çatdırıldı.

Ötən müddətdə məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının müdafiəsinin diqqətdə saxlanıldığı, şikayətlər üzrə müvafiq araşdırmaların aparıldığı, bir sıra hallarda hüquq mühafizə orqanlarının bəzi əməkdaşlarının qanun pozuntularına yol verdiyi müəyyən edilərək barələrində intizam tənbehi tədbirlərinin tətbiq olunduğu bildirildi. Qeyd edildi ki, yüksək keyfiyyətli hüquqi yardım almanın daha səmərəli təmini məqsədilə dövlət hesabına hüquqi yardımın göstərilməsi üçün qanunvericiliklə nəzərdə tutulan məbləğin artırılması məqsədəmüvafiq hesab olunur. Həbs qətimkan tədbirinin seçilməsi və ya həbs müddətlərinin uzadılması ilə bağlı

təqdimatların işin hallarından asılı olaraq minimuma endirilməsi, habelə penitensiar müəssisələrdəki sıxlıq probleminin aradan qaldırılması məqsədilə həbsə alternativ qətimkan tədbirlərinin seçilməsi prosessual hüquqların təmini baxımından əhəmiyyətlidir.

Ombudsman çıxışında məhkəmə sistemində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin keyfiyyət və səmərəliliyin artırılmasına xidmət etməsinin, ləşmənin araşdırılması məqsədilə aidiyyəti dövlət qurumlarının müəssisələrinə ümumilikdə 352 başçəkmə həyata keçirilib, onlardan 108-i isə plandankənar başçəkmələr olub. Başçəkmələr zamanı saxlanılan şəxslərin hüquqlarının təmini vəziyyəti öyrənilib, müraciətləri araşdırılıb, bəzi məsələlər yerində həll olunub, zəruri hallarda aidiyyəti dövlət qurumlarına müraciətlər edilib. Həbs yerlərində saxlanılan şəxslərin və məhkum- hüquqlarının bərpası istiqamətində ombudsman tərəfindən geniş fəaliyyət həyata keçirilib, müvafiq beynəlxalq təşkilatlar qarşısında bu məsələ davamlı olaraq qaldırılıb. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edildikdən sonra Ermənistanın mina terroru haqqında məlumat dəfələrlə ombudsman tərəfindən beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılıb.

Qeyd olundu ki, illik məruzədə insan hüquq və azadlıqlarının



məhkəmə qərarlarının icrası mexanizmlərinin təkmilləşdirilməsi üzrə tədbirlərin davam etdirilməsinin zəruriliyindən bəhs etdi. Aliment tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi barədə şikayətlərin çoxluq təşkil etdiyini, alimentin ödənilməsinə vahid dövlət nəzarət mexanizminin yaradılmasının vacibliyini vurğuladı.

Diqqətə çatdırıldı ki, ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində saxlanılan şəxslərlə rəftar məsələləri, saxlanma şəraiti, habelə müvafiq sənəd-

ların sağlamlıq hüquqlarının daha effektiv təmini üçün tibbi məlumatların elektron qeydiyyatının aparılması, müəssisələrdə tibbi xidmətlərin sosial xidmətlərə daha sıx inteqrasiyası üzrə zəruri tədbirlərin görülməsi təklif olunub.

Çıxışda vurğulandı ki, azərbaycanlılara qarşı Ermənistanın uzun illərdir həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində müxtəlif vaxtlarda əzəli torpaqlarından zorla qovularaq qaçqın həyatı yaşamağa məcbur olmuş yüz minlərlə insanın pozulmuş müdafiəsi sahəsində görülmüş işlərin təhlili əks etdirilməklə yanaşı, hüquq pozuntularının qarşısının alınması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsinin vacibliyi, dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında səmərəli dialoqun və əməkdaşlığın dərinləşdirilməsi önə çəkilir.

Sonra iclasda parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc ombudsmanın illik məruzəsi ilə bağlı fikirlərini açıqladı. O, məruzədə vətəndaşların müraciətlərinə xüsusi yer ayrıldığını söylədi.

Komitə sədri bildirdi ki, sənəddə mülki hüquqlarla bağlı, ilk növbədə, mənzil fondunun yenilənməsi ilə əlaqədar, xüsusilə də Bakı şəhərində problemlərin hələ də qaldığı göstərilir. Müvəkkilin beynəlxalq mandatı çərçivəsində Yaxın Şərqdə döyüşən azərbaycanlıların yaxınlarının ölkəmizə qaytarılmasının diqqətdə saxlandığı vurğulanır. Ötən il Milli Preventiv Mexanizm çərçivəsində insan hüquqları üzrə müvəkkilin ümumilikdə müxtəlif rumetmə deyil, məhdudlaşdırma tədbirlərinin, həmçinin "cəza bilərziyi"nin tətbiqinin mütərəqqi hadisə olduğunu dedi.

Komitə sədri sənəddə hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı çağırışçıların sağlamlıq vəziyyətinin müəyyən edilməsi və bir sıra digər məsələlər barədə də fikirlərini açıqladı. O, məruzədə informasiyanın əldə olunmasına, o cümlədən dövlət-media münasibətlərinə geniş yer verildiyini bildirərək bu

Komitə sədri beynəlxalq əməkdaşlıq sahəsində müvəkkilin həyata keçirdiyi genişmiqyaslı işlər barədə də öz fikir və təkliflərini bölüşdü. Habelə məruzədə irəli sürülən təkliflərin dövlət orqanlarının işinin təkmilləşdirilməsinə və daha səmərəli koordinasiyasına xidmət etdiyini bildirdi.

Sonra məsələ ətrafında müzakirələr aparıldı və millət vəkilləri təqdim olunan məruzə ilə bağlı fikir və təkliflərini açıqladılar.



qurumlara 352 başçəkmə həyata keçirdiyi, habelə planlaşdırılmayan baxışlar haqda geniş məlumat verilir.

Zahid Oruc həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi haqqında məruzədəki statistik məlumatlar barədə fikirlərini açıqladı. O, ağır xəstə olan məhkumların cəzadan azad olunmalarına dair məhdudiyyətlərin aradan qaldırılmasından, təqdimatların göndərilməsindəki problemlərin həllinin zəruriliyindən danışdı. Azadlıqdan məhsahədə də müəyyən problemlərin olduğunu, bəzi media qurumlarının xarici dövlətlərin siyasi layihələrinə çevrildiyini dilə gətirdi. Belə hallarla bağlı dövlətimizin seçdiyi üslubun beynəlxalq qanunlara və milli ləyaqət prinsiplərinə tamamilə uyğun olduğu nəzərə çatdırıldı. İllik məruzəyə Qərbi Azərbaycana dinc qayıdışın hüquqi prinsiplərinin daxil edilməsi, bu məsələ üzrə fəaliyyətin həm ayrı struktur vahidi, həm də hesabatlılıq baxımından müstəqil fəsildə verilməsinin təklif olunduğu vurğulandı.

Milli Məclisin sədri Sahibə Qafarovanın təklifi ilə yüksək səviyyədə hazırlanmış Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin 2024-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında məruzəsi ilə bağlı deputatlar tərəfindən səsləndirilən sual və tövsiyələrin işçi qaydada müzakirəsindən sonra illik məruzənin nəzərə alınması barədə qərar layihəsi qəbul edildi.

Sonra iclasda gündəliyə daxil edilən digər məsələlər müzakirə olundu.

# Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması regional inteqrasiyaya xidmət edəcək

## Azərbaycanın parlaq qələbəsi Qafqaz bölgəsində yeni reallıqlar yaratdı



**Gülşən Paşayeva**
Milli Məclisin deputatı

Məlum olduğu kimi, Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində əldə edilmiş şanlı qələbə və 2023-cü il sentyabrın 19-20-da həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi, beynəlxalq hüquq normalarının bərqərar olması ilə yekunlaşdı. Ölkəmiz BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış dörd qətnaməsini monolit xalq-dövlət-ordu birliyi nəticəsində, öz gücü ilə reallığa çevirdi. Məhz bu hadisələr bölgədə yeni geosiyasi reallıq yaratmaqla yanaşı, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesini də gündəmə gətirdi. Beləliklə, 2022-ci ilin mart ayında Azərbaycan Ermənistanla münasibətlərini normallaşdırmaq məqsədilə rəsmi İrəvana vasitəçilər tərəfindən aşağıdakı beş baza prinsiplərindən ibarət təklifini təqdim etdi:

- Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;
- Dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;
- Dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə təhdid yaratmaqdan, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;
- Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;
- Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

Azərbaycan bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar aparmaqla ikitərəfli sülh sazişinin yekunlaşdırılmasının mümkün olduğunu düşünürdü.

Üç il davam edən danışıqlar nəticəsində "Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş" layihəsinin mətni üzərində iş aparılmış və 17 maddədən ibarət müvafiq sənəd hazırlanmışdır. 2025-ci il martın 13-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin bəyanatına əsasən bu saziş layihəsinin mətni üzrə danışıqlar artıq yekunlaşmışdır. Bu gün sənədin imzalanması məqsədilə Azərbaycan tərəfi Ermənistandan iki vacib şərtin yerinə yetirilməsini tələb edir. Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması üçün Ermənistanın Konstitusiyasına müvafiq dəyişiklik olunmalı, ATƏT-in köhnəlmiş, qeyri-funksional Minsk qrupu və aidiyyəti strukturları rəsmi olaraq ləğv edilməlidir.

Beləliklə, Ermənistan və Azərbaycan arasında davamlı sülhün əldə olunması üçün Ermənistan Konstitusiyasının preambula hissəsindən 1990-cı il avqustun 23-də imzalanmış Ermənistanın Müstəqillik Bəyannaməsinə edilmiş istinad, eləcə də bu dövlətin bir sıra normativ hüquqi aktlarından Azərbaycanın ərazi bütövlüyünə qarşı ərazi iddiaları çıxarılmalıdır. Eyni zamanda, ATƏT-in Minsk qrupu, Yüksək Səviyyəli Planlaşdırma Qrupu və ATƏT-in fəaliyyətdə olan

sədrinin şəxsi nümayəndəsi kimi öz dövrünü başa vurmuş təsisatlara artıq ehtiyac yoxdur və onların ATƏT tərəfindən maliyyələşdirilməsi də əsassızdır.

Lakin Ermənistanda və xaricdə mövcud olan revanşist qüvvələr - parlamentdə təmsil olunan və olunmayan müxalifət partiyaları, ABŞ, Fransa, Rusiya  və digər ölkələrdə yaşayan erməni diasporunun nümayəndələri, eləcə də Qarabağdan köçüb gəlmiş ermənilər 44 günlük Vətən müharibəsinin yaratdığı yeni reallığı qəbul etmək istəməyərək "Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş"in əleyhinə çıxış edirlər. Onları Fransa kimi dövlətlər də bu gün dəstəkləməkdədirlər.

Məlum olduğu kimi, 44 günlük Vətən müharibəsindən sonra Fransanın rəsmi dairələri və parlament üzvləri Azərbaycana qarşı sərt bəyanatlar verməyə, qətnamələr qəbul etməyə başladılar. Onların ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı bu qərəzli münasibəti Azərbaycan tərəfindən dövlətimizin daxili işlərinə müdaxilə edilməsi kimi qiymətləndirilir.

Eyni zamanda, Fransa, Hindistan və bir sıra digər ölkələr Ermənistana müdafiə sahəsində dəstək göstərərək onu sürətlə silahlandırmağa çalışırlar və bu da qonşu ölkədə revanşist əhval-ruhiyyənin artmasına şərait yaradır, öz növbəsində Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesinə mənfi təsir göstərir. Lakin bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan və Ermənistanın dövlət başçıları və bu ölkələrin nümayəndə heyətləri ikitərəfli formatda danışıqları davam etdirirlər.

### İkitərəfli format çərçivəsində fəaliyyət müsbət nəticələr verir

Artıq bir neçə ildir ki, Azərbaycan və Ermənistan nümayəndə heyətləri ənənəvi vasitəçilər olmadan əsas məsələlər ətrafında birbaşa fikir mübadiləsi aparırlar. Bu istiqamətdə müəyyən nəzərəçarpacaq nəticələr əldə edilmişdir. 2023-cü il dekabrın 7-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası Baş nazirinin aparatının birgə açıqlamasını bu istiqamətdə əldə edilmiş mühüm nailiyyət hesab etmək olar. Bu sənəd əsasında humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq Azərbaycan Respublikası 32 erməni hərbçini, Ermənistan Respublikası isə 2 azərbaycanlı hərbçini azad etdi. Ermənistan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək Azərbaycan Respublikasının namizədliyini dəstəklədi. Azərbaycan Respublikası da öz növbəsində Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyinə səs verdi.

Lakin 2024-cü ildə Ermənistanda və eləcə də bir sıra xarici ölkələrdə mövcud olan destruktiv qüvvələr COP29 prosesini siyasiləşdirməyə cəhd göstərdilər. Onlar "Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş" layihəsinin mətninin Ermənistan və Azərbaycan tərəfindən tam razılaşdırılmamasına baxmayaraq, bu sənədin natamam şəkildə imzalanmasını, eləcə də sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin



hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama kimi çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının azadlığa buraxılmasını tələb etməyə çalışdılar. Lakin hər iki şərt Azərbaycan hökuməti tərəfindən birmənalı şəkildə rədd edildi. 2025-ci il yanvarın 17-dən isə Azərbaycanda bu şəxslər barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi başladı və bu proses hazırda da davam etməkdədir.

Ötən dövr ərzində Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiyası üzrə danışıqlar da ikitərəfli formatda həyata keçirilmişdir. Bu proses Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistanın Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə aparılır. Bu formatda ilk görüş 2022-ci ilin may ayında baş tutmuşdur. Bu günə qədər Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın ümumilikdə 10-dan artıq görüşü keçirilmişdir. Bu görüşlərin böyük əksəriyyəti iki dövlət arasındakı şərti sərhəddə baş tutmuşdur.

Ötən il aprelin 19-da və mayın 15-də keçirilmiş səkkizinci və doqquzuncu görüşlər zamanı sərhədlərin delimitasiyası ilə bağlı müsbət irəliləyiş əldə olundu. Aprelin 19-da olan görüşdə Azərbaycan və Ermənistan arasında 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edildi və bununla Qazax rayonunun 4 kəndi - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı ərazilərinin (6,5 kvadrat kilometr) Azərbaycana qaytarılmasına dair razılıq əldə olundu.

Qeyd etmək lazımdır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində bu kəndlər Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və orada yaşayan soydaşlarımız öz evlərindən zorla qovulmuşdu. Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra bu kəndlərin qaytarılması məsələsini qaldırdı. Komissiyaların mayın 15-də keçirilmiş doqquzuncu görüşündə isə Azərbaycan və Ermənistan arasında aprelin 19-da əldə edilmiş razılaşmaya uyğun olaraq sərhədin Qazax-Tavuş istiqamətinin demarkasiya olunması ilə bağlı protokol imzalandı. Beləliklə, bu danışıqlar nəticəsində Ermənistan-Azərbaycan dövlət sərhədinin 12,7 kilometrlik hissəsi delimitasiya və daha sonra demarkasiya edilmişdir.

2024-cü il avqustun 30-da "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə" imzalanmışdır. 2024-cü ilin sentyabrında Ermənistan hökuməti bu sənədi təsdiqlədikdən, Konstitusiya Məhkəməsi müsbət rəy verdikdən sonra Ermənistan parlamenti 2024-cü il oktyabrın 23-də onu ratifikasiya etdi. Ermənistan prezidenti Vaaqn Xaçaturyan oktyabrın 24-də bu qanun layihəsini imzaladı.

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü il oktyabrın 25-də "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komis-






siyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında fərman imzalandı. İlk dəfə olaraq iki dövlət tərəfindən imzalanmış bu hüquqi sənəd Azərbaycan və Ermənistan arasında birbaşa danışıqların nəticəsi idi.

Sərhədlərin delimitasiyası üzrə fəaliyyət 2025-ci ildə də davam etdirilməkdədir. Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 2025-ci il yanvarın 16-da keçirilmiş görüşündə də tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xətti sahələrinin ardıcıllığı məsələsi ilə bağlı fikir mübadiləsi apardılar. Dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimal sahəsindən başlayaraq Azərbaycan Respublikasının, Ermənistan və Gürcüstan sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan və Ermənistanın İran İslam Respublikası ilə sərhədinə qədər aparılması barədə razılığa gəlindi.

Hesab edirəm ki, ikitərəfli format çərçivəsində "Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş" layihəsinin 17 maddəsi üzrə tərəflərin razılıq əldə etməsi böyük nailiyyətdir.

### Sülh sazişinin imzalanması üçün Azərbaycanın şərtləri yerinə yetirilməlidir

Son bir neçə il ərzində Azərbaycan və Ermənistan münasibətlərinin normallaşmasına dair müəyyən müsbət nəticələr əldə edilib. Davamlı sülhə nail olmaq üçün Ermənistan hökuməti siyasi iradə nümayiş etdirməlidir. Ermənistanın Konstitusiyasında və digər normativ aktlarında Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı ərazi iddialarını ehtiva edən bütün məsələlər həmin sənədlərdən çıxarılmalı, ATƏT-in Minsk qrupunun rəsmən ləğv edilməsi üçün müvafiq addımlar atılmalıdır.

Eyni zamanda, Ermənistanın sürətlə silahlanması bölgədə yeni gərginlik ocağının meydana gəlməsinə səbəb ola bilər. Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibəsində Ermənistan rəhbərliyini düzgün qərar qəbul etməyə çağıraraq bildirmişdir ki, Azərbaycan Ermənistan üçün təhlükə mənbəyi deyil: "Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər".

Aydındır ki, Azərbaycanla sülh sazişi imzalamaqla Ermənistan ilk növbədə özünütəcrid vəziyyətindən çıxacaq, Türkiyə və Azərbaycanla münasibətləri inkişaf edəcəkdir. Eyni zamanda, Cənubi Qafqaz bölgəsində yerləşən hər üç dövlət üçün regional inteqrasiya baxımından yeni imkanlar yaranacaqdır.





**Göydəniz Qəhrəmanov**
Milli Məclisin deputatı

# Azərbaycanda turizmin inkişaf perspektivləri

Hər bir ölkədə turizmin inkişafı yalnız onun iqtisadi dirçəlişinə deyil, tarixin, ədəbiyyatın, incəsənətin və ümumilikdə mədəniyyətin tərəqqisinə təkan verən, dünya xalqları ilə hərtərəfli əlaqələri möhkəmləndirən prosesdir. Turizmin inkişafı üçün əsas amillərdən biri ölkənin dünyada tanıdılmasıdır. Son illərdə Azərbaycan həqiqətlərinin və xalqımızın malik olduğu yüksək dəyərlərin beynəlxalq arenada təbliği istiqamətində dövlət səviyyəsində və Heydər Əliyev Fondu tərəfindən mühüm işlər görülür.

XXI əsrin əvvəllərində hotel və turizm biznesi iqtisadi səmərəliliyinə görə dünyada ön sıralara çıxmış, beynəlxalq ticarətdə avtomobil, neft və qaz sahələri ilə rəqabətə girmişdir. Xarici ölkələrdə təşkil olunan təqdimatlar, tədbirlər və mədəniyyət proqramları Azərbaycanın imicinin yüksəlməsinə, turist axınının artmasına xidmət edir. Respublikamızda keçirilən beynəlxalq yarışlar, festivallar, konfranslar və müsabiqələr də ölkəmizin tanınmasında mühüm rol oynayır. Azərbaycanda turizmin inkişafı ilə bağlı həyata keçirilən təşkilati tədbirlər, qanunvericilik bazasının təkmilləşdirilməsi, yeni infrastrukturun yaradılması onu regionda və dünya miqyasında turizmi sürətlə inkişaf edən ölkələrdən birinə çevirmişdir.

Bu uğurların nəticəsidir ki, Azərbaycan BMT-nin Dünya Turizm Təşkilatının (UNWTO) XX Baş Assambleyasında İcraiyyə Şurasına üzv seçilmişdir. Hazırda ölkəmiz turizm sahəsində geniş beynəlxalq əlaqələrə malikdir. Azərbaycanın bir çox turizm müəssisəsi Dünya Turizm Təşkilatının assosiativ üzvüdür.

Prezident İlham Əliyevin turizmə olan diqqət və qayğısı verilən sərəncamlarda, qəbul edilən dövlət proqramlarında aydın görünür. Azərbaycanda fəaliyyət göstərən Dövlət Turizm Agentliyi, Turizm Təbliğatı Bürosu, Azərbaycan Turizm Agentlikləri Assosiasiyası, Azərbaycan Hotellər Assosiasiyası və digər qurumlar bu sahənin inkişafında mühüm rol oynayır.

Ölkədə "Turizm haqqında" yeni qanunun qəbul olunması, infrastrukturun inkişafı, yeni hotellərin tikilməsi və xidmət keyfiyyətinin

artırılması kimi tədbirlər turizm sektorunun daha da güclənməsinə səbəb olmuşdur. Pandemiya dövründə belə dövlət turizm şirkətlərinə və hotellərə dəstək göstərmiş, bu sahənin dirçəlməsini təmin etmişdir. Azərbaycanda Dövlət Turizm Agentliyi ölkənin turizm strategiyasını həyata keçirən əsas qurumdur. Onun dəstəyi ilə yerli turizm şirkətləri xarici sərgilərdə ölkəmizi təmsil edir, müxtəlif infoturlar təşkil olunur.

Azərbaycan əsrarəngiz təbiəti, zəngin mədəniyyəti ilə turistlərin böyük marağına səbəb olur. Ekskursiya bələdçiləri bu təbliğat işində mühüm rol oynayırlar. Onlar ölkəmizin siması kimi çıxış edərək Azərbaycan həqiqətlərini, tarixini və mədəniyyətini dünya turistlərinə çatdırırlar. Ölkəyə gələn turistlərin artması yeni hotellərin tikilməsini zəruri edir. Hazırda Azərbaycanda 800-dən çox müxtəlif tipli hotellər, o cümlədən dünyanın tanınmış brendləri - “Four Seasons”, “Fairmont”, “Marriott”, “Hilton”, “Ramada”, “Accor”, “Hyatt” kimi hotellər fəaliyyət göstərir. Bu hotellər beynəlxalq tədbirlərə, o cümlədən COP29 kimi mühüm forumlara ev sahibliyi edəcək turist axınını qarşılamaq üçün böyük əhəmiyyət daşıyır.

Son illərdə hotellərə ulduz təsnifatının verilməsi, personalın peşəkar hazırlığına diqqət göstərilməsi xidmət keyfiyyətinin yüksəlməsinə səbəb olmuşdur. Gələcəkdə 2 və 3 ulduzlu hotellərin regionlarda tikintisinin sürətləndirilməsi üçün sahibkarlara vergi güzəştləri edilməsinin məqsədəuyğun olacağını düşünürəm. Bununla yanaşı, perspektivdə ekoturizm, sağlamlıq turizmi, qış turizmi və konqres turizmi üçün xüsusi hotellərin açılması məqsədəuyğun olardı.

Azərbaycan Turizm Agentlikləri Assosiasiyası üzvlərini ətrafında birləşdirərək onların fəaliyyətini daha da genişləndirmək, ölkəmizin turizm potensialını beynəlxalq səviyyədə təbliğ etmək üçün çox çalışır. Assosiasiya Türkiyə, Gürcüstan, Rusiya, Qazaxıstan, Özbəkistan, Avropa və Asiya ölkələrində fəaliyyət göstərən turizm assosiasiyaları ilə əməkdaşlıq edir. Azərbaycanda 1000-dən çox turizm şirkəti fəaliyyət göstərir. Dövlətin turizmin inkişafına dəstəyi sayəsində sahibkarlıq sahəsi sürətlə inkişaf edir. Turizm sahəsində viza rejiminin sadələşdirilməsi, xüsusilə də bu günlərdə Prezident İlham Əliyevin Çin Xalq Respublikasına rəsmi səfəri zamanı viza rejiminin ləğvi ilə əlaqədar müvafiq razılaşmanın əldə olunması turist axınının artmasına böyük təsir göstərəcək.

Azərbaycanda dəmir yolu turizmi də inkişaf potensialına malikdir. Şimal-Cənub və Şərq-Qərb dəmir yolu xətlərinin açılması bu istiqamətdə yeni imkanlar yaradır. Respublikada daxili və gəlmə turizmin artması iqtisadiyyatın inkişafına, iş yerlərinin açılmasına, regionların sosial-iqtisadi dirçəlişinə mühüm töhfə verir.

Kütləvi turizmin inkişafı və turizm növlərinin artırılması prioritet istiqamətlərdəndir. Xəzər dənizində kruiz turizminin təşkili, çimərlik turizminin “mavi bayraq” standartlarına uyğun inkişafı, sağlamlıq turizmi üçün yeni imkanların yaradılması da prioritet məsələlərdəndir. Azərbaycanın palçıq vulkanları, isti və kükürdlü su mənbələri bu sahədə böyük potensiala malikdir.

Respublikamızın zəngin qastronomik imkanları da turistləri cəlb edən əsas amillərdəndir. Kənd turizminin inkişafı, kənd evlərinin qonaq evlərinə çevrilməsi layihələri kənd təsərrüfatı və turizmin birgə inkişafına xidmət edir. Hazırda ölkəmizdə turizm sahəsində kadr hazırlığına xüsusi diqqət yetirilir. Azərbaycan Turizm və Menecment Universitetinin, peşə məktəbləri və kolleclərin fəaliyyəti də bu istiqamətdə mühüm rol oynayır.

Şanlı Azərbaycan Ordusunun Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı 30 illik işğaldan azad etməsi ölkəmizin turizm potensialına yeni imkanlar açdı. Belə ki, Qarabağ və Şərqi Zəngəzur regionlarında turizmin inkişafı üçün böyük potensiallar mövcuddur. Fizuli, Zəngilan və Laçın hava limanlarının açılması, azad edilmiş ərazilərdə yeni turizm marşrutlarının yaradılması ölkəmizin turizm sektoruna yeni nəfəs verəcəkdir.

Azərbaycan turizm sektoru sürətlə inkişaf edir, ölkəmiz dünya turistləri üçün cəlbedici məkana çevrilir. Prezident İlham Əliyevin vurğuladığı kimi: “Hər bir ölkə öz turizm potensialını maksimum səviyyədə istifadə etməlidir və Azərbaycan bu sahədə böyük uğurlar əldə edir”.



# Qəlbi Azərbaycan eşqi ilə döyünən istedadlı soydaşımız

Abuzər Manafzadə

"Milli Məclis" jurnalının "Diaspor" rubrikası oxucularımız arasında geniş rəğbət qazanıb. Hər dəfə bu rubrikamızı  xaricdə yaşayan bir həmvətənimizin Azərbaycanla bağlı könül çırpıntılarına, fəaliyyətinə həsr edirik. Budəfəki qonağımız isə Avstriyada yaşayan, məşhur musiqiçilər ailəsinin gənc nümayəndəsi, beynəlxalq müsabiqələr laureatı, gözəl pianoçu, dirijor və bəstəkar, eyni zamanda, diaspor fəalı **Abuzər Manafzadədir**. Xalqımızın mənəvi kapitalına çevrilən bu gənclə oradakı qayğıları, sənət həyatındakı yeniliklər, vətən nisgili, musiqimiz və Avstriyadakı Azərbaycan icmasının fəaliyyəti barədə söhbət açdıq.



**- Abuzər bəy, xoş gördük sizi. Bu rubrikada qonağımız olan bütün müsahiblərimizə ənənəvi sualımız olur ki, yaşadığınız ölkəyə hansı səbəblərlə getmisiniz? Avstriyada yaşamaq və fəaliyyət göstərmək istəyiniz haradan qaynaqlandı?**

- Əvvəlcə müsahibə üçün təşəkkür edirəm. 2000-ci ildə atam Türkiyədə müəllim olaraq çalışmaq üçün təklif aldı və buna görə ailəliklə İstanbula köçdük. Burada bacım və mən Mimar Sinan Universiteti Dövlət Konservatoriyasına imtahanlardan uğurla keçdik. Onu da deyim ki, bu təhsilə haqq qazanan üç nəfərdən ikisi biz olduq. Universitetdə piano üzrə bakalavr pilləsində məzun olduqdan sonra bəstəkarlıq üzrə də təhsil aldıq. Bu təhsilimizi də başa vurduqdan sonra bacımla hər ikimiz  Dirijorluq fakültəsinə qəbul olunaraq  italyan maestro Antonio Pirollinin sinfində ikinci bakalavr, daha doğrusu, üçüncü təhsil aldıq.

Bacım həmin universiteti Azərbaycanın ilk xanım dirijorlarından biri olaraq bitirdi. Amma  mənim  hər zaman Avropada təhsil almaq xəyalım vardı.  Elə o dönəmdə Türkiyədə "Kim milyoner olmaq istər" televiziya yarışmasına qatıldım və 12 çətin sualı cavablandıraraq böyük miqdarda pul mükafatı qazandım. Qazandığım pulla xəyallarımı gerçəkləşdirməyə qərar verdim.  Dünyanın ən məşhur dirijorlarını yetişdirən Vyana Musiqi və Səhnə Sənətləri Universitetinə qəbul olunmaq üçün çətin imtahanlardan keçdim. Bura bütün dünyada dirijor olmaq istəyən gənc musiqiçilərin hamısının xəyalıdır. Onu da deyim ki, bu universitetin Dirijorluq fakültəsində 5 illik təhsil almağa qəbul edilən ilk azərbaycanlıyam. Burada dünyaca məşhur dirijor professor Johannes Wildnerin tələbəsi oldum. Vyanada dirijorluq təhsilimlə yanaşı, Linz şəhə-



ri Anton Bruckner adına Universitetində də piano üzrə magistr pilləsində təhsil almaq haqqı qazandım. Burada isə təhsilimi dünya şöhrətli pianoçu professor Oleq Marshevin sinfində tamamladım. Artıq 9 ildir Vyanada yaşayıram.

Bu şəhər klassik musiqinin paytaxtı, Motsart, Bethoven kimi dahilərin şəhəridir. 2020-ci ildə piano üzrə magistr, 2022-ci ildə isə Dirijorluq fakültəsinin bakalavr və magistr pillələrini uğurla tamamladım. Bu universitetin ilk azərbaycanlı məzunu olduğum üçün Vyana Radio Simfonik Orkestrinin möhtəşəm Musikverein Qızıl Zalında dirijorluq etdiyim məzuniyyət konsertimdə bu tarixi anı dəyərləndirərək görkəmli bəstəkarımız Fikrət Əmirovun "Kürd Ovşarı" və "Azərbaycan Kapriççiosu" əsərlərinə dirijorluq etməyə qərar verdim. Hər iki çıxışım dinləyicilər tərəfindən çox bəyənildi, hətta ayaq üstə alqışlandı.

**- Bildiyimiz qədər siz Azərbaycanda çox geniş tanınan musiqiçilər ailəsində doğulmusunuz. Valideynləriniz, bacınız, hətta həyat yoldaşınız da musiqiçilərdir...**

- Bəli, atam Moskvada Çaykovski adına Konservatoriyanın məzunu, dünya şöhrətli pianoçu, Azərbaycanın əməkdar artisti İslam Manafovdur. O, Ulu Öndər Heydər Əliyevin ən çox sevdiyi və dəyərləndirdiyi musiqiçilərdən idi. Dahi şəxsiyyət həmişə ölkəmizə gələn xarici qonaqların, prezidentlərin şərəfinə verilən konsertlərdə atamın çıxış etməsini xüsusi olaraq istəyirdi. Anam Şükûfə Manafova da musiqiçidir. O, İstanbulda çox tanınmış piano müəlliməsidir. Bacım da mənim kimi beynəlxalq müsabiqələr laureatı, pianoçu, dirijor, bəstəkar, Azərbaycanın əməkdar artisti Turan Manafzadədir. Həyat yoldaşım Karen Danger-Manafzadə isə həm vokalist, həm də aktrisadır. O, yarı alman, yarı kubalı olmasına baxmayaraq, artıq Azərbaycan dilini tam öyrənib, hətta bizim dilimizdə mahnılar da bəstələyir. Bu, məni olduqca sevindirir. Dünyanın hər yerində bərabər konsertlər də veririk. Həyat yoldaşım keçən il sentyabr ayında Millətlərarası Futbol Liqasında keçirilən Slovakiya-Azərbaycan oyunundan öncə stadionda Azərbaycan Respublikasının Dövlət Himnini canlı səsləndirdi.

Ailəvi şəkildə bu günə qədər bir çox layihələrdə bərabər səhnədə olmuşuq. Bu konsertlərimizdən ən unudulmaz olanlardan biri də Azərbaycan qazını Avropaya daşıyan TANAP layihəsinin açılış mərasimində bütün ailə üzvlərimizlə birlikdə Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın qarşısında verdiyimiz konsert idi. İndiyə qədər yadımıza salanda mənəvi zövq alırıq.

**- Bütün dünyada Azərbaycan icmaları fəaliyyət göstərir və onlar ölkəmizin kimliyini təbliğ edirlər. Bu baxımdan sizin işiniz elə öz-özlüyündə bir vətən təbliğatıdır. Çünki musiqinin dili olmur. Ona görə də fəaliyyətiniz barəsində bir qədər geniş söhbət açmağınızı istərdik.**

- Bəli, haqlısınız. Musiqi qlobal və çox effektiv bir dildir. Onu milli mənsubiyyətindən asılı olmadan hər kəs başa düşə bilir, çünki o, birbaşa insanın duyğularına xitab edir. Musiqi ilə hər cür mesaj vermək mümkündür. Bu günə qədər beynəlxalq müsabiqələrdə 18 mükafat qazanmışam. ABŞ, Almaniya, Avstriya, Azərbaycan, Bolqarıstan, Braziliya, Hollandiya, İspaniya, İsveçrə, İtaliya, Özbəkistan, Polşa, Rumıniya,






Slovakiya və Türkiyədə konsertlər vermişəm. Vyana Simfonik Orkestri və Vyana Radio Simfonik Orkestri daxil dünyanın bir çox ölkələrində çox nüfuzlu orkestrlərə dirijorluq etmişəm. Balabanla simfonik orkestr üçün yazmış olduğum konserti bir çox ölkələrdə fərqli musiqi qrupları ilə səsləndirmişəm.

"Xocalıya" adlı əsərimi bu günə qədər Avropada, Amerikada və Asiyada 200-dən çox konsertdə ifa etmişəm. Bu əsər hər zaman ayaq üstə alqışlanıb və ifa etdiyim hər yerdə böyük rezonans doğurub. Bunu da qürurla söyləyirəm. Hazırda Vyanada yaşamağıma baxmayaraq, dünyanın hər yerində həm pianoçu, həm dirijor, həm də bəstəkar olaraq konsertlər verməyə davam edirəm.

**- Xaricdə yaşayan soydaşlarımız yaşadıqları ölkənin siyasi həyatına yaxından qoşulur, ictimai rəyə təsir göstərə, iki ölkə arasında bir növ körpü rolunu oynaya bilirlər. Avstriyada bu sahədə gördüyünüz işlər, diaspor fəaliyyəti ilə bağlı həyata keçirilən layihələr barədə oxucularımıza məlumat verməyinizi istərdik.**

- Bəli, doğrudur, sənət ölkələr arasında körpülər qurmaq anlamında çox önəmlidir. Təhsil aldığım zaman təbii olaraq bu ölkənin bir çox önəmli ictimai xadimləri, elm və sənət adamları, məşhur artistləri ilə tanış oldum. Bu insanlarla təmaslarımızda onlara ölkəmizin tarixi, musiqimiz və incəsənətimiz haqqında geniş məlumat verirdim. Vyanada yerləşən Azərbaycan Mədəniyyət Mərkəzində bu günə qədər çoxsaylı konsertlərim olub. Həmin günlərdə Avstriya ictimaiyyəti Azərbaycan musiqisinin tərənnümü ilə yanaşı, ölkə həqiqətləri barədə də məlumatlanırlar. Xüsusi günlərdə ölkəmizi dünyanın fərqli yerlərində fəxarətlə təmsil etmişəm. Diasporla İş üzrə Dövlət Komitəsi və Diaspora Dəstək Fondunun dəstəyi ilə çıxarmış olduğum, "Xocalıya" adlı əsərim də daxil olmaqla mənim ifalarımdan ibarət CD albomumu bu günə qədər Avstriya Baş naziri başda olmaqla bir sıra siyasi xadimlərə təqdim etmişəm. Avstriyada çox azərbaycanlı yaşayır. Həmyerlilərimizlə xüsusi günlərdə, milli bayramlarımızda tez-tez bir araya gəlirik.

**- Burada Azərbaycanın milli mətbəxinə, mədəniyyətinə və musiqisinə maraq hansı səviyyədədir?**

- Musiqimiz və milli mətbəximiz xaricdə böyük maraqla qarşılanır, amma bunların tanıdılması üçün daha çox çalışmalı olduğumuzu hiss edirəm. Biz ailə olaraq hər zaman əlimizdən gələni ən yaxşı şəkildə etməyə çalışırıq. Hər konsertimizdə mütləq Azərbaycan bəstəkarlarının əsərlərini repertuarımıza daxil etməyə və ya Azərbaycan ilə bağlı parçalar səsləndirməyə çalışırıq.

**- Nə qədər geniş çevrəniz, çoxlu dostlarınız, sevimli işiniz olsa da, sözsüz ki, vətən üçün darıxırsınız. Azərbaycana sıx-sıx gələ bilirsinizmi?**

- Əlbəttə, Azərbaycan bizim vətənimizdir, ana yurdumuzdur, o, hər zaman qəlbimizdədir. Qohumlarımız Bakıda yaşayır. Hər dəfə təyyarə enərək Azərbaycan torpağına toxunanda gözlərim dolur. Vətənimizi çox sevirəm.





**- Abuzər bəy, sizin öz bəstəniz olan "Xocalıya" adlı əseriniz bu faciəni özündə o qədər dərindən əks etdirir ki... Bu faciənin təsiri ilə yazılmış belə ağrılı bir əsər hansı hisslərdən yarandı?**




- Bu əsəri 2016-cı ildə bəstələdim və o gündən bu günə dünyanın hər yerində solo şəklində də, nüfuzlu orkestrlərlə də səsləndirmişəm. Bu əsəri göz yaşları içərisində ərsəyə gətirmişəm, musiqinin dili ilə acılarımızı bütün dünyaya anlatmağa çalışmışam. Dünyanın harasında olursa-olsun, milli kimliyindən asılı olmadan, hətta faciə haqqında bilgi sahibi olmayan insanlar belə sonda göz yaşlarında boğulur... Bu, mənim üçün bəstəkar, Azərbaycan gerçəklərini dünyaya çatdıran bir sənət elçisi olaraq çox qürurvericidir. Bəstələdiyim gündən bu günə 200-dən artıq konsertdə ifa etmişəm və bu, sosial şəbəkələrdə milyonlarla baxış sayına yüksəlib. Yaponiyadan tutmuş Amerikaya qədər bir çox ölkələrdən yüzlərlə musiqiçi bu əsəri ifa etmək üçün məndən not istəyir. Amerikanın əfsanəvi vokal ustası Tomas Hampson kimi dünya şöhrətli bariton və digər məhşur artistlər bu əsərin olduqca təsiredici hisslər yaratdığını söyləyib.

**- 44 günlük Vətən müharibəsi dönəmindən sonra qalib bir xalqın nümayəndəsi olaraq qürbət ölkədə hansı hissləri keçirirsiniz?**

- "Xocalıya" və "Balaban Konserti" kimi əsərlərin müəllifi olaraq Azərbaycan mədəniyyətini dünyada tanıtmaq üçün durmadan çalışan bir musiqiçi kimi bunlar çox qəribə hisslərdir. 44 günlük Vətən müharibəsi zamanı sosial şəbəkələrdə Ali Baş Komandan, cənab Prezident İlham Əliyev tərəfindən hər bir şəhərimizin geri alınma xəbərini izlədiyimizdə sevinc göz yaşlarına boğulurduq. 30 il çəkən ağrılardan, acılardan sonra bunlar bir möcüzə kimi görünürdü. Şükürlər olsun ki, biz cənab Ali Baş Komandan və əsgərlərimiz sayəsində öz torpaqlarımıza qayıtdıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimiz isə sağlıqlarına qovuşsunlar. Heç vaxt tarixi keçmişimizi unutmamalıyıq, unutmayacağıq da... İnşallah, bundan sonra artıq şanlı Zəfərimizə ithaf olunan əsərlər yaratmaq istəyirəm.

**Qərənfil Mansurova**




Şərqi Zəngəzur

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ